Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Birinci sessiya
Payız

5-ci cild

22 oktyabr 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# I SESSİYASI İCLASININ

# PROTOKOLU № 6

*Milli Məclisin iclas salonu.*
*22 oktyabr 2024-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 118 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
| İştirak edir | 105 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

2. "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Konstitusiya Məhkəməsi haqqında" və "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında Azərbay-

can Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

3. “Turizm haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

4. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

5. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

6. “Siyasi partiyalar haqqında” Azərbaycan Respublikasının 2022-ci il 16 dekabr tarixli 693-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

7. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

8. Minatəmizləmə fəaliyyəti haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

9. “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

10. “Qrant haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

11. “Daşınar əmlakın yüklülüyü haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

12. “Arbitraj haqqında” Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1077-VIQ nömrəli Qanu-

nunun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

13. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

14. "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

15. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

16. "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

17. "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edil-

məsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

18. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

19. "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Qüdrət Həsənquliyev, Tural Gəncəliyev, Əziz Ələkbərov, Ziyafət Əsgərov, Fazil Mustafa, Aydın Mirzəzadə, Müşfiq Cəfərov, Razi Nurullayev, Zahid Oruc, Siyavuş Novruzov, Ramil Həsən

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.03 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**1. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi**

**(üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov, Azər Əmiraslanov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

**2. "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Konstitusiya Məhkəməsi haqqında" və "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Arzu Nağıyev

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.40 dəq.) |
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

| | |
|---|---|
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

**3. "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Polad Bülbüloğlu, Azər Əmiraslanov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.42 dəq.) |
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

**4. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
| Lehinə | 112 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

**5. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.45 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 114 |

Nəticə: Qəbul edildi

**6. "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının 2022-ci il 16 dekabr tarixli 693-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Elşən Musayev, Azər Əmiraslanov, Razi Nurullayev, Hikmət Məmmədov, Azay Quliyev, Aydın Mirzəzadə, Siyavuş Novruzov, Məlahət İbrahimqızı

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.14 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**7. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**8. Minatəmizləmə fəaliyyəti haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev, Razi Nurullayev, Vüqar Bayramov, Rafael Hüseynov, Fazil Mustafa, Sadiq Qurbanov, Tahir Rzayev, Sahib Alıyev, Fatma Yıldırım, Əli Əhmədov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

**9. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Arzu Nağıyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

**10. "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Siyavuş Novruzov, Məlahət İbrahimqızı, Aydın Mirzəzadə

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.16 dəq.) |
|---|---|
| Lehinə | 106 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**11. "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.18 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**12. "Arbitraj haqqında" Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1077-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamran Bayramov, Musa Quliyev, Azər Əmiraslanov, Şahin İsmayılov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.22 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**13. “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.26 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**14. “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Jalə Əliyeva, Zahid Oruc, Razi Nurullayev, Ceyhun Məmmədov, Səyyad

Salahlı, Tənzilə Rüstəmxanlı, Elnarə Akimova, Əli Əhmədov, Mehriban Vəliyeva

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.53 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**15. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Jalə Əliyeva, Elman Nəsirov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.05 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**16. "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Prokurorluq or-**

**qanlarında qulluq keçmə haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əminə Ağazadə, Fazil Mustafa

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.14 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**17. "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.19 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

**18. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.20 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

**19. "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.23 dəq.) |
| Lehinə | 104 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verməди | 1 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*22 oktyabr 2024-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Hamınızı xoş gördük, hörmətli deputatlar! Media nümayəndələrini də salamlayıram. Hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçək. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
| İştirak edir | 105 |
| Yetərsay | 83 |

Yetərsay var.

Buyurun, gündəliyə də münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.03 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Gündəlik qəbul edildi.

30 dəqiqəmiz var, 10 nəfər çıxış edə bilər. Gündəlikdə, gündəmdə olan məsələlərlə bağlı kimin nə sözü varsa, buyurun. Fərid müəllim, xahiş edirəm, deyin, 10 nəfərin siyahısı saxlanılsın.

Hörmətli həmkarlar, çıxış üçün 3 dəqiqə var, xahiş edirəm, reqlamentə hamı riayət etsin. Qüdrət Həsənquliyev. Buyurun.

**Qüdrət Həsənquliyev.** Hörmətli sədr, hörmətli həmkarlar, media nümayəndələri və Məclis iştirakçıları. Mən ilk öncə, hörmətli sədr, istəyirəm ki, uşaqlarına verdiyiniz dəstəyə görə Yaqub Turab oğlu Novruzovun valideynlərinin dərin minnətdarlığını və təşəkkürlərini Sizə çatdırım. Mən onlara söz vermişdim ki, bunu mütləq edəcəyəm və həm də hesab edirəm, xeyirxah işlər təşviq və təbliğ olunmalıdır. Öz adımdan da Sizə bir daha minnətdarlığımı bildirirəm.

Hörmətli sədr, bu günlərdə biz gördük ki, Moldovada referendum keçirildi və orada hətta referendumun nəticələrini xaricdə yaşayan moldovanların verdiyi səs dəyişdi. Bizim hörmətli həmkarımız Siyavuş Novruzov da Seçki Məcəlləsinə baxılması ilə bağlı burada zaman-zaman məsələ qaldırır. Mən hesab edirəm ki, Azərbaycan Respublikası vətəndaşlarının da böyük bir qismi, əhəmiyyətli bir hissəsi xarici ölkələrdə yaşayır, işləyir, onların yaşadıqları, işlədikləri şəhərlərin hamısında bizim seçki məntəqələri yaratmaq imkanımız yoxdur. Ona görə də onlar o imkanlardan məhrum olurlar. Bir çox ölkələrin də təcrübəsi var.

Qarşıdan bələdiyyə seçkiləri gəlir. Bəlkə bələdiyyə

seçkilərinə qədər, heç olmasa, pilot layihə kimi bir neçə seçki dairəsində vətəndaşlara onlayn qaydada səsvermə hüququnun tanınması haqqında məsələyə baxaq. Bunu biz icra hakimiyyəti orqanları ilə də müzakirə edə bilərik. İnsanlar öz PİN-kodlarını daxil etməklə onlayn qaydada daxil olub səslərini verə bilsinlər. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Tural Gəncəliyev. Buyurun.

**Tural Gəncəliyev**. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Təəssüflər olsun ki, bu günlərdə yenə Avropa Parlamentində ölkəmizə qarşı qarayaxma kampaniyası davam edir. Bu gün Avropa Parlamentində "Azərbaycanda insan hüquqları" adlı müzakirələr başlayır. Bu, Avropa Parlamentinin ikiüzlü, riyakar siyasətini bir daha davam etdirdiyini göstərir. Təkrar olmasın, biz burada dəfələrcə demişik. 30 il ərzində 100 minlərcə azərbaycanlının hüquqlarının pozulması haqqında bir kəlmə söyləməyən, bir sənəd qəbul etməyən Avropa Parlamenti bu gün "Azərbaycanda insan hüquqları" adı altında guya ermənilərin hüquqlarının pozulması ilə bağlı müzakirələr keçirir. Yeri gəlmişkən, buna yaxşı cavab olaraq bu günlərdə bizim parlamentdə Qərbi Azərbaycana qayıdış üzrə təşəbbüs qrupunun yaradılması məsələsi, həqiqətən, təqdirəlayiq haldır. Çünki Avropa Parlamenti ikiüzlü siyasətini davam etdirməkdənsə, bu gün hələ də yüz minlərcə insanın öz fundamental hüquqlarından məhrum olması məsələsini qaldırmalı, müzakirə etməlidir.

Təəssüflər olsun ki, biz yenə də insan hüquqları kontekstində görürük, Azərbaycanda cəzaçəkmə müəssisəsində haqlı cəzalarını çəkən erməni canilərinin, cinayətkarlarının hüquqları haqqında guya narahatlıq ke-

çirən avropalılar həmin o cinayətkarların törətdiyi cinayətlərdən heç danışmırlar.

Ümumiyyətlə, bu insan hüquqları, canilər haqqında söz düşmüşkən, hesab edirəm, bizim də hüquqlarımızın pozulması, Azərbaycana müharibə nəticəsində vurulmuş zərərlə bağlı həmin Avropa institutları məhz Ermənistandan tələb etməlidirlər ki, müvafiq təzminatların, kompensasiyanın ödənilməsinin vaxtıdır. Bu, beynəlxalq hüquqa, Avropa insan hüquqları konvensiyalarına tamamilə uyğundur, örnəyi də var. Misal üçün, Birinci Dünya müharibəsindən sonra Versal sülh müqaviləsində Almaniyanın üzərinə bilavasitə maliyyə öhdəliyi qoyulmuşdu, ölkələrə vurduğu zərərə görə kompensasiyanın ödənilməsi məsələsi qaldırılmışdı. Yaxud xüsusi ilə İkinci Dünya müharibəsindən sonra. Həm ölkələrə vurduğu zərərə, həm də fərdi cinayət məsuliyyətinə görə təzminatların ödənilməsini, restitusiya və digər maliyyə institutlarından istifadə edərək vurulmuş ziyanın ödənilməsini Ermənistan tərəfinin üzərinə qoymaq lazımdır və avropalılar məhz bunu Ermənistandan tələb etməlidirlər. Xüsusi ilə İkinci Dünya müharibəsindən sonra fərdi cinayət məsuliyyəti və fərdlərin törətdikləri cinayətlərə görə məsələlərin də gündəmdə olması ilə bağlı örnəklər var. İstər Beynəlxalq Cinayət Məhkəməsinin, istərsə də müvafiq müharibələr başa çatdıqdan sonra, – məsələn, İran–İraq müharibəsi, – müvafiq maliyyə təzminatlarının ödənilməsi təcrübəsinə istinad etmək olar. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, Əziz Ələkbərli 12-ci yazılmışdı, mən burada gördüm. Tural Gəncəliyev Qərbi Azərbaycan İcmasının təklifi ilə bağlı maraqlı bir mövzuya toxundu. Bilirsiniz ki, biz dünən bir

qrup yaratmışıq. Əziz müəllim, xahiş edirəm, Siz də öz fikrinizi bildirin. Buyurun.

**Əziz Ələkbərov,** *Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Qərbi Azərbaycana qayıdış üzrə təşəbbüs qrupunun rəhbəri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar, hörmətli media nümayəndələri. Bildiyiniz kimi, 200 il bundan əvvəl Cənubi Qafqaza köçürülüb gətirilən ermənilərin və onların havadarlarının xalqımıza qarşı düşmənçilik hərəkətləri nəticəsində xalqımız bu zaman ərzində saysız-hesabsız məhrumiyyətlərə, deportasiya və soyqırımlarına məruz qalmışdır. Torpaqlarımız zəbt olunmuş, insanlarımız öldürülmüş, yurd-yuvasından didərgin salınmışdır. Yalnız 4 il bundan əvvəl, 2020-ci ilin 44 günlük Vətən müharibəsi və 2023-cü ilin bir günlük antiterror əməliyyatı nəticəsində bu bədnam siyasət durdurulmuş, düşmən öz layiqli cəzasını almışdır. Lakin sonrakı hadisələr sübut etdi ki, düşmən bu müharibədən nəinki heç bir nəticə çıxarmayıb, xalqımıza qarşı mina terrorunu və informasiya müharibəsini bu gün də davam etdirir, sürətlə silahlanır. Bu münaqişənin əvvəlində Qərbi Azərbaycandan vəhşicəsinə qovulub çıxarılmış azərbaycanlıların geriyə, öz doğma evlərinə qayıtmağına belə razılıq vermirlər.

Belə həlledici məqamda 2022-ci il dekabrın 24-də cənab Prezident İlham Əliyevin Qərbi Azərbaycan İcmasına gəlişi və oradakı tarixi çıxışı soydaşlarımızın Qərbi Azərbaycana qayıdış mübarizəsində yeni səhifə açmış oldu. Cənab Prezidentin diqqət və qayğısı, xüsusi ilə bu məsələni ən mötəbər beynəlxalq formatlarda qaldırması Qərbi Azərbaycan məsələsinin beynəlxalq aləmdə siyasi və insan hüquqları kontekstində ciddi şəkildə qəbul olunmasını təmin etmişdir.

Bu ümummilli məsələdə Milli Məclisin fəaliyyəti də diqqətçəkəndir. Təkcə onu xatırlatmaq kifayətdir ki, keçən il parlamentdə Milli Məclisin sədri çox hörmətli Sahibə xanım Qafarovanın birbaşa təşəbbüsü ilə Qərbi Azərbaycana qayıdışla bağlı 5 dəfə dinləmə keçirilmiş, qayıdışımızın müxtəlif aspektləri geniş müzakirə olunmuşdur. Deputatlarımız dəfələrcə Qərbi Azərbaycana qayıdış ideyası ilə bağlı çıxışlar etmişlər. Dünən Milli Məclisin sədri çox hörmətli Sahibə xanım Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların doğma torpaqlarına qayıtmaq hüququnun gerçəkləşməsinə dəstək vermək məqsədi ilə parlamentdə Qərbi Azərbaycana qayıdış üzrə təşəbbüs qrupunun yaradılması barədə sərəncam imzalayıb. Mən icmamız adından hörmətli xanım sədrə təşəkkür edirəm. Möhtərəm Prezidentimizi, xanım sədri və bütün Azərbaycan xalqını əmin edirəm ki, bu qrup ümummilli maraqlar naminə qarşısında duran vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışacaqdır. Bir daha təşəkkür edirəm və diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun, Əziz müəllim. Bütün təşəkkürlər möhtərəm cənab Prezidentə çatır. Siz bu məsələni tamamilə düzgün vurğuladınız, bu ideyanı möhtərəm cənab Prezident qaldırmışdı.

Hörmətli həmkarlar, mən sizin ümumi fikrinizi ifadə edib belə bir təşəbbüs qrupunun yaradılması barədə sərəncama qol çəkdim. Sərəncamda bu qrupun həm səlahiyyətləri, həm də vəzifələri öz əksini tapmışdır. Çox hörmətli həmkarlar, sizin hamınızı bu qrupda iştirak etməyə çağırıram. Əziz müəllim, bu qrupun fəaliyyəti hansı formada olacaqsa, biz bununla bağlı Sizinlə sonra görüşəcəyik. Mən düşünürəm, yaxın günlərdə bir tədbir də

keçirmək vacibdir. Çox sağ olun.

Ziyafət müəllim söz istəyirdi. Buyurun, Ziyafət müəllim.

**Ziyafət Əsgərov.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar, bir məsələ ilə əlaqədar fikrimi sizinlə bölüşmək istəyirəm. Bilirsiniz ki, dünən Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Baydenin xüsusi köməkçisi möhtərəm Prezidentimiz cənab İlham Əliyevin qəbulunda oldu və Baydenin məktubunu hörmətli Prezidentimizə çatdırdı. Məktubda iki məsələ mənim diqqətimi cəlb etdi. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü və kreativ güzəştlərin əldə edilməsi ilə bağlı məsələlər. Söhbət sülh müqaviləsindən gedir. Siz bilirsiniz ki, 2022-ci ildən bu yana cənab Prezident qalib dövlətin müzəffər Ali Baş Komandanı olaraq Ermənistana sülh təklifi irəli sürüb və müqavilədə beynəlxalq hüququn 5 əsas prinsipinin olmasının vacibliyini vurğulayıb.

Sülh müqaviləsini əngəlləyən Ermənistanın bəhanəsini əldən almaq üçün biz nəqliyyat qovşaqlarının ayrıca müzakirə olunmasını qəbul etdik. Sonra nə oldu? Ermənistan sülh müqaviləsinin bağlanmasını əngəlləməkdə yenə də davam edir.

Mən bir neçə məsələni sizin diqqətinizə çatdırmaq istəyirəm. Möhtərəm Prezidentimiz dəfələrlə bəyan edib ki, sülh müqaviləsinin bağlanması üçün Ermənistanın Konstitusiyasından Azərbaycana qarşı ərazi iddiaları götürülməlidir. Məktubda göstərilir ki, qısa bir müddət ərzində belə bir müqavilə imzalansın. Qısa bir müddət ərzində bu sənəd necə imzalana bilər? Bu müqavilənin imzalanması üçün Ermənistanda referendum keçirilməlidir. Çünki biz müqaviləni Paşinyanla deyil, Ermənistan dövləti ilə bağlayırıq və onun arxasında Ermənistan xalqının

siyasi rəyi durmalıdır.

Mən sizin yadınıza bir neçə məsələni salmaq istəyirəm. 1996-cı ildə Ermənistanın o vaxtkı prezidenti Ter-Petrosyan Lissabon sammitinin sənədinə imza atmadı. Soruşanda ki, niyə imza atmırsınız, dedi ki, Ermənistanın 1995-ci ildə qəbul edilmiş Konstitusiyasına görə, Qarabağ (o vaxt "Dağlıq Qarabağ" deyirdilər) Ermənistanın tərkib hissəsidir və mən buna imza ata bilmərəm. Həmin sənədlər hələ durur. Bu, Konstitusiyadan və Ermənistanın Müstəqillik Bəyannaməsindən çıxarılmayıb.

İkincisi, 1997-ci ildə Robert Köçəryan Ermənistanın prezidenti seçiləndə belə fikirlər səsləndi ki, Robert Köçəryan Ermənistan vətəndaşı deyil və o, prezident ola bilməz. Onda Ermənistanın Konstitusiya Məhkəməsi qərar qəbul etdi, rəsmi rəy verdi ki, Dağlıq Qarabağ Ermənistanın tərkib hissəsi olduğuna görə o da Ermənistan vətəndaşı hesab olunur və prezident seçilə bilər.

Nəhayət, Ermənistanın beynəlxalq məhkəmələrdə Azərbaycana qarşı qaldırdığı iddiaların hamısında "Dağlıq Qarabağ" adı gedir. İndi bütün bunlara rəğmən, əgər bütün bunlar Ermənistanın Konstitusiyasından və Ermənistanın dövlət müstəqilliyi haqqında bəyannaməsindən çıxarılmayıbsa, necə bu sülh müqaviləsi yarımçıq bağlana bilər? Bu təklifi irəli sürənlər, bizə bu məsləhəti verənlər bəyəm bilmirlər ki, Azərbaycan dəfələrlə deyib, siz Konstitusiyanızı dəyişdirməlisiniz. Ermənistanın Konstitusiyası 1995-ci ildə qəbul olunub və bu günə qədər də orada Azərbaycana qarşı ərazi iddiaları vardır. Beynəlxalq məhkəmələrdə qaldırılan iddialarda da həmçinin.

Mən burada sizə Paşinyanın çox maraqlı bir çıxışını misal gətirmək istəyirəm. Paşinyan 2024-cü il fevralın 1-də

“Azadlıq” radiosuna müsahibəsində deyir: “Bu gün Azərbaycanla sülh müqaviləmizin bağlanmasının qarşısını alan Ermənistanın Müstəqillik Bəyannaməsidir. Çünki orada göstərilib ki, Dağlıq Qarabağ Ermənistanın tərkib hissəsidir”. Yaxşı, sən bunu özün etiraf edirsən, bəs onda nə üçün bunu Konstitusiyadan çıxarmırsan? Çox qəribə bir vəziyyət alınır. Ona görə də mən hesab edirəm ki, sözsüz, bu ala-yarımçıq sülh müqaviləsinin bağlanmasından söhbət gedə bilməz. Baxmayaraq ki, bizə Amerikadan da, Fransadan da, digər ölkələrdən də belə təzyiqlər var. Amma bu məsələlər, Azərbaycana qarşı ərazi iddiaları Ermənistanın Konstitusiyasından, eyni zamanda, Müstəqillik Bəyannaməsindən çıxarılmasa, heç bir müqavilədən söhbət gedə bilməz.

Yaxud kimsə hesab edirsə ki, gəlin bu ala-yarımçıq sülh müqaviləsini paraflayaq, sonra baxarıq, nə olur. Sonra nə olacaq? Sonra Bayden gedəcək, Baydeni axtaracağıq, haradasan, Bayden, sən axı, belə bir söz vermişdin. Ona görə bizə hüquqi təminat lazımdır. Hüquqi təminatı da ancaq referendumda xalq verə bilər. Heç kəs bizi sadəlövh hesab etməsin. Bu məsələdə Azərbaycan Respublikası Prezidentinin mövqeyi tamamilə Azərbaycan xalqının iradəsinə uyğundur və biz bu məsələdə həmişə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin yanındayıq. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Sağ olun, Ziyafət müəllim. Mən bilsəydim ki, bu mövzu ilə bağlı çıxış edəcəksiniz, deyərdim, orada jurnalistlər var, bəlkə onlara müsahibə də verərdiniz.

Azər müəllim, Siz çıxış edə bilməyəcəksiniz, xahiş edirəm, üzrlü hesab edin, vaxtımız çatmayacaq. Gələn dəfə mən Sizə birinci söz verəcəyəm. Fazil Mustafa. Buyurun.

**Fazil Mustafa**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Məlum olduğu kimi, “Vikipediya” internet üzərində azad şəkildə yayımlanan, Viki texnologiyasının tətbiqi yolu ilə könüllü istifadəçilərin fərqli dillərdə yaratdıqları açıq, onlayn ensiklopediyadır. Mövcud olduğu 23 il içində “Vikipediya”dakı istifadəçilərin və məqalələrin sayı durmadan artır. Ötən il, sadəcə, dekabr ayı ərzində burada Azərbaycan dilində olan səhifələr 37 milyon dəfə ziyarət edilib. Son bir il ərzində isə bu rəqəm 358 milyondur. Ancaq nə qəribədir ki, bu açıq ensiklopediyanın Azərbaycan seqmentində, necə deyərlər, birdən-birə 3 min məqalə azaldığı müşahidə olunub, özü də söhbət qəhrəman şəhidlərimizlə bağlı məqalələrdən gedir. Əlbəttə ki, biz kimi isə ittiham etmək, kimə isə haqq qazandırmaq üçün bu mövzuya toxunmuruq. Məqsədimiz “Vikipediya” savadlılığının və könüllülüyünün təşviqinə çağırmaqdır.

Məsələn, şəhidlərimiz haqqında məqalələr elə hazırlana bilərdimi ki, kimsə onların “Vikipediya” standartlarına uyğunsuzluğuna irad tutmasın, yaxud fikrini bununla əsaslandırmağa çalışmasın. Bizdə Samir Qaçayev var idi, qəhrəman şəhidimiz. Memar idi, məsələn, onun haqqında məqalədə onun memarlıq fəaliyyəti qabardılardı və sonda yazılardı ki, erməni işğalçılarına qarşı mübarizədə şəhid olubdur. Onda bu məqaləni artıq tərəfli deyə kimsə silə bilməzdi.

Bilirik ki, Elmlər Akademiyası öndə olmaqla, az sayda da olsa, elmi, ictimai dairələrdə bu məsələyə ciddi fokuslanma var. Amma görünür ki, yetərli deyil. “Vikipediya” onlayn ensiklopediyasını qeyri-hökumət təşkilatı olan Vikimedia Fondu yaradıb. Burada da Azərbaycan–Ermənistan seqmentləri arasında torpaqların işğalı və başqa

məsələlərlə bağlı ciddi mübahisələr gedir. Buranın əsas tələbi məqalələrdə və əlavə edilən bilgilərdə neytral baxışın qorunmasıdır. Yəni burada "dünyada ən gözəl filmlər Bakı studiyasında çəkilən filmlərdir" kimi şəxsi mülahizələr vurğulanmamalıdır. Ona görə də belə bir halda kimin haqsız, ya haqlı olduğu yalnız sağlam müzakirələr və "Vikipediya" arbitrlərinin qərarı ilə müəyyən edilə bilər. Bir sıra digər mövzularda azərbaycanlı və erməni "Vikipediya"çıları arasında müzakirələr ingilis, fransız, rus, türk dillərində hələ də davam etməkdədir. Bu da bir daha təsdiq edir ki, bizim "Vikipediya" könüllülərimizin sayı artırılmalı, onların işinin keyfiyyəti daha da yüksəldilməli, onlara mənəvi, xeyirxah, metodik dəstək göstərilməli, "Vikipediya"nın yaradılması və idarə olunması üçün proqram təminatı, proqram sistemi üzrə bilikləri dərinləşdirilməlidir. Bir qədər irəli getsək, bizim gənclərin alternativ proqramlar, platformalar yaratması qayğısına da qalınmalıdır, – deyə düşünürəm.

Sonda isə, hörmətli xanım sədr, Sizin parlamentdə Qərbi Azərbaycana qayıdış üzrə təşəbbüs qrupunun yaradılması barədə sərəncamınızı strateji, ciddi addım hesab edirəm və dəstəkləyirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Aydın Mirzəzadə. Buyurun.

**Aydın Mirzəzadə.** Təşəkkür edirəm, xanım sədr. Dünən Qərbi Azərbaycan İcmasının Sizə müraciəti cəmiyyətdə çox böyük maraq doğurdu, geniş müzakirələr gedir. İcma yarandığı dövrdən Qərbi Azərbaycanın tarixi, həmin torpaqların Azərbaycan xalqının tarixi torpaqları olması barəsində çox böyük işlər aparır, beynəlxalq təşkilatlara müraciət edir, maraqlı və vacib müzakirələr keçirir. İcma artıq Azərbaycan ictimai fikrində ciddi bir

yer tutub. Heç də təsadüfi deyil ki, xarici ölkə səfirləri, eyni zamanda, beynəlxalq təşkilatların Azərbaycana səfər edən nümayəndələri icma ilə görüşməyə maraq göstərirlər və həmin görüşlərdə tək rəhbərlik deyil, icmanın fəal üzvləri də iştirak edirlər. İcmanın parlamentdə təşəbbüs qrupu yaratmaqla bağlı təklifi ilk növbədə ondan irəli gəlir ki, parlament səviyyəsində bu işləri daha da gücləndirmək, xarici ölkə parlamentləri ilə bu istiqamətdə daha ciddi iş aparmaq imkanı əldə etmək mümkün olsun.

Hörmətli xanım sədr, icmanın təşəbbüsünə dəstək verdiyinizə, təşəbbüs qrupunun yaradılması barədə sərəncam imzaladığınıza görə Sizə öz təşəkkürümü bildirirəm. Bu, imkan verəcək ki, icma artıq parlament səviyyəsində də işini daha güclü qura bilsin. Təşəbbüsün parlament rəhbərliyi tərəfindən dəstəklənməsi onu göstərir ki, Qərbi Azərbaycana qayıdış məsələsi artıq təkcə əslən o torpaqdan olan insanların deyil, bütün Azərbaycan xalqının bir fəaliyyət istiqamətidir. Vaxtı ilə bütün ölkəmiz "Dağlıq Qarabağ"ın və ətraf zonaların işğaldan azad olunması məsələsini özünün ümummilli məsələsi hesab etdiyi kimi, Qərbi Azərbaycana qayıdış məsələsi də artıq xalqımız üçün əsas məsələlərdən birinə çevrilib. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Müşfiq Cəfərov. Buyurun.

**Müşfiq Cəfərov.** Hörmətli xanım sədr, hörmətli həmkarlar və media mənsubları. Çıxışım şəhid övladlarının cənab Prezidentə və Milli Məclisə ünvanladıqları minnətdarlıq barəsindədir.

VI çağırış Milli Məclisin son iclasında 3 oxunuşda qəbul etdiyimiz layihələrdən biri "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edil-

məsi barədə qanun layihəsi olmuşdu. Bu qanunda dəyişiklik etməklə çoxsaylı şəhid övladlarının müraciətləri öz müsbət həllini tapmışdır. Belə ki, yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəhid ailəsinin üzvü, yəni şəhidin həyat yoldaşı vəfat etdiyi halda, həmin uçotun onun ailə üzvlərinə ötürülməsi qanunda edilən dəyişiklikdən sonra qüvvəyə minmişdir.

Mən ilk olaraq möhtərəm cənab Prezident İlham Əliyevə, Milli Məclisin sədri xanım Sahibə Qafarovaya, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyevə və bütün VI çağırışda olan həmkarlarıma həm öz adımdan, həm də şəhid övladları adından təşəkkür edirəm.

Təbii ki, dövlət başçısının şəhid ailələrinə, qazilərə və müharibə veteranlarına olan diqqət və qayğısından bəhs etməyə vaxt çatmaz. Azərbaycan dövləti bu sahədə, sözün əsl mənasında, nümunədir. Azərbaycanda şəhid ailələri və müharibədə yaralanmış şəxslər üçün hərtərəfli proqramlar müəyyənləşdirilir və onlara bütün sahələrdə imtiyazlar verilir. Şəhid ailəsi üzvlərini və qaziləri əhatə edən qanunvericilik gündən-günə onların xeyrinə təkmilləşdirilib genişləndirilir.

Mənim də bu barədə bir təklifim var. Belə ki, anadangəlmə əlilliyi olan və 18 yaşadək əlilliyi müəyyən edilən şəhid övladları ömür boyu şəhid ailəsi üzvlərinə aid edilən güzəşt və imtiyazlardan faydalana bilirlər. Lakin 18 yaşından sonra hərbi xidmət zamanı, avtoqəzada və ya ehtiyatsızlıqdan bu və ya digər formada əlilliyi müəyyən edildikləri halda şəhid övladları şəhid ailəsi üzvlərinə aid edilən güzəşt və imtiyazlardan faydalana bilmirlər.

Mən təxmini araşdırma əsasında deyə bilərəm ki, bu kateqoriyaya məxsus olan şəxslərin sayı ölkə üzrə 15–20

nəfərdən ibarətdir. Düşünürəm ki, bu təklifimi "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinin davamı kimi qiymətləndirib, əlilliyi olan şəhid övladlarının 18 yaşından sonra əlillikləri müəyyən edildiyi halda, 18 yaşadək əlillikləri müəyyən edilmişlərdə olduğu kimi, eyni imtiyazlara malik olmalarını əlavə edə bilərik. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Müşfiq müəllim. Hörmətli həmkarlar, Müşfiq müəllim mənim və hörmətli Musa müəllimin adını çəkdi. Bu məsələ ilə bağlı sizə bir balaca arayış verim. İş burasındadır ki, – Musa müəllim bunu yaxşı bilir, – VI çağırış zamanı biz çoxsaylı məktublar almışdıq. Biz bu məsələni qaldırdıq və Nazirlər Kabinetində bu məsələnin üzərində 2 ilə yaxın iş getdi. Möhtərəm cənab Prezident çox sağ olsun, nəhayət ki, bu məsələ də öz həllini tapdı. Çox sağ olun.

Siz dediyiniz məsələlərlə bağlı burada qeydiyyat aparıldı. Sonra hörmətli Musa müəllimlə biz bu barədə danışarıq.

Razi Nurullayev. Buyurun, Razi müəllim.

**Razi Nurullayev.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli xanım sədr və hörmətli deputatlar. Qurumuş ağaclar və onların törətdiyi problemləri demək istəyirəm.

Quru ağacların kəsilməsi ilə bağlı müraciət edilməsi və bu müraciətə baxılması bəzən aylar çəkir. İsrarlı müraciətlər olarsa, bu, bir neçə ay ərzində həll olunur. Səbəb isə prosedurların keçirilməsi, ekspertizaların aparılması, analizlərin götürülməsi və laboratoriyalarda yoxlanılmasıdır. Xeyli vətəndaşlara da ziyan dəyib. Quru ağac onun

yaşadığı evi zədələyir, ya avtomobilinə ciddi ziyan vurur, ya da müştərilərin avtomobilini zədələyir.

Quru ağacların kəsilməsi ilə bağlı müraciət və icra arasında olan zamanın bir neçə dəfə azaldılmasını xahiş etmək istəyirəm. Ümid edirəm ki, aidiyyəti dövlət qurumları bununla bağlı mövcud durum haqqında məlumatı da təqdim edə bilərlər.

Bir də şüşələrin toplanması ilə bağlı məsələ qaldırmaq istəyirəm. Azərbaycanda hər il, yəqin ki, yüz milyonlarca şüşə və plastik qablar istifadə olunur və zibilliyə atılır. Məsələn, mən Kəlbəcərin "İstisu"yunu almışam. Çox yaraşıqlı bir qabı var. Onun şüşəsini zibil qutusuna atmağa heyfim gəlir. Eyni şəkildə, "Sirab", "Badamlı" və digər sular. Biz milyonlarca şüşəni niyə zibilliyə atıb sındıraq ki, niyə elə istehsalçı şirkət onların tədarük və ya toplama məntəqələrini təşkil etməsin? Bu barədə aidiyyəti qurumlardan cavab almaq istərdim. Xahiş edirəm ki, bu barədə görülən və yaxud görüləcək işlər barədə də bizə məlumat versinlər.

Bir də plastik qablar barədə. Onlar da 100 milyonlarca istifadə olunur və atılır. Bu yaxınlarda Sinqapurla bağlı bir videonu izlədim. Orada plastik qabların təkrar emalından göz oxşayan asfalt yollar çəkilir. İstərdim ki, bu texnologiya da öyrənilsin, Azərbaycana gətirilsin. Aidiyyəti dövlət qurumları bununla bağlı araşdırmalara da başlaya bilər. Konkret layihələr həyata keçirilməsi üçün iş adamlarına da təkliflər verilə bilər. Yaxud iş adamları özləri bu sahəni öyrənib gəlirli bir biznes sahəsi yarada bilərlər. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun. Zahid Oruc. Buyurun, Zahid müəllim.

**Zahid Oruc.** Oktyabrın 26-da Gürcüstan taleyüklü parlament seçkilərinə gedir. Seçim ya suverenlik və müstəqillik, ya da 2003-cü ilin qanlı geosiyasi inqilabına qayıtmaq uğrundadır.

Biz müstəqilliyi yeni qazananda sadəlövhcəsinə beynəlxalq hüquqa əsaslanıb başqa ölkələrin daxili işlərinə qarışmamağa çalışırdıq. Lakin bu prinsiplər onu yazan və qanlı müharibələrlə postsovet ölkələrində hakimiyyətləri devirən dövlətlərə aid deyil.

Avropa İttifaqı seçkiöncəsi Gürcüstan hakimiyyətinə təzyiqlər edir, ağır maliyyə-iqtisadi sanksiyalara məruz qoyur. Məsələn, 151 milyon avroluq yardımı dayandırıb. Amerika əməkdaşlığa yenidən baxır, vizaların ləğvi hədəsi var, nəhəng Qərb mediasında müxalif qüvvələrə güclü dəstək verilir, "Gürcü arzusu" demonlaşdırılır.

Gürcüstanı Rusiyaya qarşı ikinci cəbhə açmağa və sanksiyalara sövq edirlər. Halbuki 2008-ci ildə Qərbin fitnəsinə uyaraq, separatçı Abxaziya və Osetiyanı qaytarmaq uğrunda savaşa başlayarkən gürcü xalqı hərbi meydanda Rusiya qarşısında tək qaldı.

Bidzina İvanişvili deyir ki, "2004–2012-ci illərdə ölkəni xalqın seçdiyi hökumət deyil, kənardan təyin olunan inqilab komitəsi, xarici agentlik idarə edib".

2003-cü ildə Qərbin həyata keçirdiyi "rəngli inqilab"ın növbəti ünvanı Azərbaycan olmalıydı. Hakimiyyət dəyişsəydi, biz nəinki 44 günə qazandığımız torpaq bütünlüyündən məhrum olacaqdıq, üstəlik, Qarabağın müstəqilliyini də tanıyacaqdılar. İndi bildinizmi, bizi gürcü demokratiyasının yolu ilə aparmaq istəyənlərin məqsədləri nə idi.

İlham Əliyev "rəngli çevrilişlər"i durdurdu. Avqust müharibəsində Gürcüstanı xilas edən və ona ilk kömək

əlini uzadan da bizim dövlət oldu. Əgər 2020-ci ildə Milli Hərəkat Partiyası iqtidarda olsaydı, Qərbin təzyiqi ilə bu ölkə ərazisindən İrəvana silah daşınmasına razılıq veriləcəkdi.

İndi sual olunur: xalqı Brüsseldən təyin olunan müasir ingilisdilli orconikidzelər idarə edəcəkdisə, onda Gürcüstan oğulları Qorbaçovun qanlı ordusunun qabağında niyə qurban gedirdilər? Azadlıq təkcə Kreml və rus imperiyasından deyil, bütün xarici müstəmləkəçilərdən xilas olmaqdır.

Gürcü xalqı gələcəyini özü müəyyənləşdirməlidir. Biz yaxşı görürük ki, Azərbaycana qarşı mübarizə həm də Gürcüstan üzərindən aparılır. Zəngəzur dəhlizinin açılması Azərbaycan üçün tək nəfəslik olmaq istəyən rəsmi Tbilisinin və indiki hakimiyyəti devirmək istəyənlərin maraqlarına ziddir. İlham Əliyevin "əlinizi Qafqazdan çəkin" bəyanatının da məqsədi regionun bütün xalqlarının mənafelərinə uyğundur.

Qərb dövlətləri Saakaşvilinin üzərinə qoyduqları missiyanı indi Paşinyana və İrəvana həvalə ediblər. Müttəfiqi olduğumuz ölkədə baş verənlər, bütövlükdə, regiona təsir edir. Strateji layihələrimiz, yatırdığımız çoxmilyardlıq sərmayələr və yarım milyona çatan azərbaycanlıların taleyi qarşıdakı seçkilərdən asılıdır. Ukrayna, Suriya, Əfqanıstan hadisələri bir ibrətdir. Biz Gürcüstanda ictimai-siyasi xaos istəmirik. Qələbəmiz Gürcüstan üçün nümunə, idealdır. Ən böyük "gürcü arzusu" – bütöv Azərbaycandır. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov. Buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Ölkə başçısının uğurlu siyasəti

nəticəsində Azərbaycanda həyata keçirilən hərtərəfli islahatlar, o cümlədən beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun genişləndirilməsi, Azərbaycanın haqq işinin Prezidentimiz tərəfindən daim dəstəklənməsi və Azərbaycanda mühüm, böyük tədbirlərin keçirilməsi ayrı-ayrı dövlətlərin və qurumların müxtəlif bəhanələri, pozuculuq fəaliyyəti ilə qarşılansa da, artıq dünyanın bir çox dövlətləri başa düşüb ki, Azərbaycanla əməkdaşlıq etmək, əlaqələr qurmaq lazımdır. Azərbaycan nəinki Cənubi Qafqazın açarı, eyni zamanda, Şərqlə Qərbi, Avropa ilə Asiyanı birləşdirən ən mühüm və yeganə dövlətdir.

Məhz elə bunun nəticəsidir ki, dünən Amerika Prezidenti Azərbaycan Prezidentinə göndərdiyi məktubda da müəyyən detalları xatırlatmaqla yanaşı, Azərbaycanın uğurlarını, həyata keçirdiyi islahatları, Azərbaycanın əldə etdiyi nailiyyətləri qeyd edib. Lakin biz məktubda Ermənistanı düşdüyü vəziyyətdən cidd-cəhdlə dartıb çıxarmağa səy göstərilməsinin də şahidi oluruq. Müəyyən mənada tarixin saxtalaşdırılmasını da görürük.

Tutalım, məktubda göstərilir ki, regionda gedən "minilliklərlə mübarizə". Bu minillik haradadır? Ermənilərin Azərbaycana köçməsi 1828-ci il Türkmənçay müqaviləsindən bu yana başlayıb. Hələ bunların köçməsinin 200 ilinin tamam olmasına 4 il qalır. Onda bu minillik haradan oldu? Bu və ya digər şəkildə erməni xalqının süni tarixinin yaradılması bu məktubda da öz əksini tapır.

İkinci bir tərəfdən, elə Paşinyanın özü dəfələrcə qeyd edib, ermənilərə sual verib ki, 1918-ci ilə qədər Ermənistan ərazisində olan dövlətin adını çəkin, hansı dövlət olub? Düzdür, məliklik olub, xırda şeylər olubdur. Amma ümumiyyətlə, o ərazidə, istər Qərbi Azərbaycanda, istərsə

də Qarabağ ərazisində heç bir erməni dövləti olmayıbdır.

Biz görürük ki, artıq dünya da bunu yavaş-yavaş başa düşür. Mən heç təəccüb etmərəm ki, yaxın vaxtlarda Makronun da ağlı başına gələcək, o da bir məktub göndərəcək və etdiyi əməllərin hər birini etiraf etməklə yanaşı, Azərbaycanla, Azərbaycan dövləti ilə, türk dünyası ilə gələcəkdə hər hansı bir əməkdaşlığın qurulmasına cəhd göstərəcəkdir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Ramil Həsən. Buyurun.

**Ramil Həsən.** Çox sağ olun, xanım sədr. Hamımızın bildiyi kimi, 1987–1991-ci illər ərzində məhz Ermənistanın şovinist, faşist siyasəti nəticəsində mən və ailəm də daxil olmaqla, 300 mindən çox azərbaycanlı yerindən-yurdundan didərgin salınıb.

Siyavuş müəllimin də qeyd etdiyi kimi, vaxtı ilə öz ata-baba torpaqlarımızda milli çoxluq olduğumuz halda, məhz Ermənistanın və onun havadarlarının siyasəti nəticəsində milli azlığa çevrilmiş olduğumuz tarixi məmləkətimizdən 1987–1991-ci illərdə qovulmuş azərbaycanlılar olaraq, biz cənab Prezident İlham Əliyevin bilavasitə liderliyi və göstərdiyi dəstək sayəsində bu gün Qərbi Azərbaycan İcması çərçivəsində atılan bütün bu xoşməramlı addımlarda və bütün azərbaycanlılarımızın dədə-baba torpaqlarına geri qayıtması ilə bağlı həyata keçirilən tarixi missiyada iştirak edirik. Bununla əlaqədar, hörmətli xanım sədr, Sizin rəhbərliyiniz altında yaradılmış Qərbi Azərbaycana qayıdış üzrə təşəbbüs qrupu ilə bağlı bu gün burada ifadə edilən fikirləri də nəzərə alaraq, qeyd etmək istərdim ki, çox tarixi və vacib bir məqam üzərində durulmaqdadır. Məhz cənab Prezidentin təşəbbüsü və Sizin sərəncamınızla həyata keçirilən bu təşəbbüs qrupu ilə, əminəm ki,

VI çağırışda olduğu kimi, VII çağırışda da Azərbaycan Milli Məclisi parlament diplomatiyasını uğurla həyata keçirməyə davam etməkdədir.

Hörmətli Sahibə xanım, mən əminəm ki, bunun tərkib hissəsi kimi, Siz başda olmaqla, mənim hörmətli həmkarlarım qərbi azərbaycanlıların haqlarının, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində qorunmasının canlı şahididirlər. Ermənilərin, belə desək, müxtəlif donlara girərək “Freedom House”, “Amnesty International” kimi beynəlxalq təşkilatlar adı altında bilavasitə Ermənistanın mənfur siyasətini dəstəkləyən addımlar ataraq “Qarabağ kartı”ndan Azərbaycana qarşı təzyiq və təsir metodu kimi istifadə etdikləri və Azərbaycana qarşı ciddi total hücumun canlı şahidləri olduğumuz bu dövrdə məhz Qərbi Azərbaycana qayıdış üzrə təşəbbüs qrupu çox vacib işlər görəcəkdir. Azərbaycan parlamentinin bir çox sahədə qazanmış olduğu uğurların tərkib hissəsi kimi, Qərbi Azərbaycana qayıdış üzrə təşəbbüs qrupu da bu uğurların nəticəsini birlikdə yazacaqdır. Əminəm ki, inşallah, hər birimiz dədə-baba torpaqlarından didərgin düşmüş bütün azərbaycanlıların məhz cənab Prezident İlham Əliyevin öndərliyi və liderliyi altında Qərbi Azərbaycana, indiki Ermənistan ərazisinə ləyaqətli və təhlükəsiz şəkildə qayıdışının canlı şahidləri olaraq bu tarixi anı görmək şərəfinə nail olacağıq. Çox təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Ramil müəllim. Hörmətli həmkarlar, mən hamıya təşəkkür edirəm. Gündəliyin məsələlərinə keçirik. Biz bu gün 19 məsələni müzakirə etməliyik. Onu da qeyd edim ki, gündəliyimizin ilk beş məsələsi üçüncü oxunuşda olan qanun layihələridir.

1-ci məsələ Miqrasiya Məcəlləsində və “Dövlət rüsumu

haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə, bildiyiniz kimi, Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Mən indi komitənin üzvü hörmətli Nurlan Həsənova söz verirəm. Nurlan müəllim, bu qanun layihəsini Siz təqdim edirsiniz. Buyurun, söz Sizindir.

**Nurlan Həsənov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli Sahibə xanım. İlk oxunuş zamanı layihə barədə geniş məlumat verilmişdir. Hər iki oxunuş zamanı hər hansı rəy və təklif olmadığından, olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, bilirsiniz ki, qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılmışdır. Mən indi komitənin sədri hörmətli Azər Əmiraslanova söz vermək istəyirəm. Buyurun, komitənin rəyini bildirin.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli xanım sədr, komitədə layihəyə baxılmışdır. Biz həmin layihənin üçüncü oxunuşda qəbul edilməsini məqsədəuyğun hesab edirik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
|---|---|
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

İştirak edir 114
Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. Bu, "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Konstitusiya Məhkəməsi haqqında" və "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Bu dəfə isə məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Kamal Cəfərova söz verirəm. Kamal müəllim, buyurun.

**Kamal Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Hər hansı rəy və təklif olmadığı üçün səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihəsinə ikinci komitədə – Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində də baxılıb. Arzu müəllim, komitənin rəyini Siz özünüz təqdim edəcəksiniz. Buyurun.

**Arzu Nağıyev,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Təşəkkür edirəm, xanım sədr. Bu layihələrə üçüncü oxunuşda komitədə baxılmışdır. Əlavə rəy və təklif olmadığı üçün səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.40 dəq.) |
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti 3-cü məsələyə keçirik. Bu məsələ "Turizm haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Musa müəllim, bu gün özünüz buradasınız, mən sözü Sizə verirəm. Buyurun, məlumat verin.

**Musa Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. "Turizm haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında birinci və ikinci oxunuşlarda parlamentin iclasında ətraflı məlumat verilmişdir. Hər 2 oxunuş zamanı komitəyə heç bir təklif daxil olmamışdır. Layihənin mətnində dəyişiklik yoxdur. Olduğu kimi səsə qoyulmasını və üçüncü oxunuşda qəbul edilməsini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Hörmətli həmkarlar, bu qanun layihəsinə digər 2 komitədə də baxılıb. Birinci komitə Mədəniyyət komitəsidir. Mən indi hörmətli Polad müəllimdən komitənin rəyini bildirməyi xahiş edəcəyəm. Buyurun.

**Polad Bülbüloğlu,** *Milli Məclisin Mədəniyyət komi-*

*təsinin sədri.*

Sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Heç bir təklifimiz yoxdur. Komitədə bir dəfə də baxılmışdır. Olduğu kimi səsə qoyulmasını təklif edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Polad müəllim. Azər müəllim, sizin komitədə də baxılıb. Xahiş edirəm, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin rəyini bildirin. Buyurun.

**Azər Əmiraslanov.** Hörmətli xanım sədr, komitə tərəfindən heç bir təklif və qeydimiz yoxdur. Komitənin üzvləri bu layihəni dəstəkləyirlər.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsini səsə qoyuram, xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.42 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti 4-cü məsələmiz – Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Bu dəfə qanun layihəsi haqqında məlumatı Nizami Səfərov verəcək. Buyurun, hörmətli Nizami müəllim.

**Nizami Səfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli Milli Məclisin deputatları. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi yekun oxunuşa heç bir əlavə edilmədən çıxarılmışdır.

Xatırlatmaq istərdim ki, Azərbaycan Respublikasının Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında müzakirəyə təqdim olunmuş qanun layihəsi milli cinayət qanunvericiliyində nəzərdə tutulan beynəlxalq cinayətlər kateqoriyasının təcavüz, soyqırımı, müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərlə yanaşı, yeni ekosid cinayətinin əlavə edilməsini nəzərdə tutur.

COP29 beynəlmiləl tədbirinin Bakıda keçirilməsi ərəfəsində belə bir hüquqi addımın atılması rəmzi məna daşıyır və Azərbaycanda ətraf mühitin, bütövlükdə, bəşəriyyətə məxsus dəyər kimi qorunmasına töhfəsinin əyani sübutudur. Xahiş edirəm, üçüncü oxunuşda qəbul edilməsinə səs verəsiniz. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, xahiş edirəm, qanun layihəsinə münasibət bildirəsiniz. Səsə qoyuram, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

5-ci məsələyə keçirik. Bu, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün Kamal Cəfərova söz verirəm. Kamal müəllim, buyurun.

**Kamal Cəfərov.** Çox sağ olun, hörmətli xanım sədr. İkinci oxunuş zamanı həmkarlarımızın, o cümlədən Fazil müəllimin dəyərli təklifləri var idi. Biz bu məsələləri qanunvericilik təşəbbüsü subyektinin nümayəndəsi ilə müzakirə etdik. Qərara aldıq ki, bu məsələlər növbəti mərhələdə nəzərə alınacaqdır.

Qeyd edilənləri nəzərə alaraq, layihədə dəyişiklik və hər hansı bir rəy olmadığı üçün olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Yəqin ki, bununla bağlı Fazil müəllimlə də danışmısınız.

Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.45 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim növbəti 2 məsələmiz uyğunlaşdırma və dəqiqləşdirmə xarakteri daşıyır. Odur ki, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən bu layihələr bir oxunuşda qəbul ediləcək. Biz indi gündəliyin 6-cı məsələsinə keçirik. Bu məsələ "Siyasi partiyalar haqqında" Qanunun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitə sədrinin müavini hörmətli Elşən Musayevə söz verirəm. Elşən müəllim, buyurun.

**Elşən Musayev,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi sədrinin müavini.*

Təşəkkür edirəm, xanım sədr. Sizin də qeyd etdiyiniz kimi, qanun layihəsi ümumi kontekstə uyğunlaşdırma xarakterlidir. Eyni zamanda, "Siyasi partiyalar haqqında" 2022-ci il tarixli Qanunun icrası məqsədi ilə hazırlanıb və hüquqi mexanizmlərin genişləndirilməsini nəzərdə tutur.

Qanun layihəsi siyasi partiyaların hüquqi tənzimlənməsi ilə bağlı mövcud qanunvericilikdə prosessual qaydaların "Siyasi partiyalar haqqında" Qanunla uyğunlaşdırılmasını təmin edəcəkdir. Bu layihədə siyasi partiyaların dövlət qeydiyyatı, onların fəaliyyətinin dayandırılması və ləğv edilməsi kimi mühüm hüquqi məsələlər daha aydın və şəffaf göstərilib.

Hesab edirik ki, ölkədə aparılan siyasi islahatların genişlənməsi və dərinləşməsi fonunda bu qanunun qəbul olunması ümumi proseslərə ciddi töhfə və fayda verəcəkdir. Səsvermədə dəyərli həmkarlarımızdan dəstək gözləyirik.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, bu

layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılmışdır. Azər müəllim, yenə də Sizdən xahiş edəcəyəm, komitənin rəyini bildirin. Buyurun.

**Azər Əmiraslanov.** Hörmətli xanım sədr, komitəmizdə bu layihəyə baxılmışdır. "Siyasi partiyalar haqqında" Qanunda dövlət yardımı alan siyasi partiyaların Hesablama Palatası tərəfindən auditinin keçirilməsi nəzərdə tutulmuşdur. Amma Palata istənilən obyektə münasibətdə yoxlama, audit fəaliyyətini "Hesablama Palatası haqqında" Qanuna əsasən həyata keçirir. Məhz bu baxımdan "Hesablama Palatası haqqında" Qanunda yoxlamanın, auditin predmeti, əhatə dairəsi sırasında maliyyə yardımı alan siyasi partiyalar da göstərilmişdir. Qanunu dəstəkləyir və səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Hörmətli həmkarlar, yazılanlar var. Sadəcə, qabaqcadan demək istəyirəm ki, bilirsiniz, siyasi partiya mövzusu çox geniş bir mövzudur. Biz bu qanunu – "Siyasi partiyalar haqqında" Qanunu parlamentdə qəbul etmişik. Qəbul etməzdən öncə, 3 oxunuşdan əvvəl biz neçə dəfə, Əli müəllim, Zahid müəllim, 5 dəfə dinləmə keçirmişik. Ona görə, xahiş edirəm, ancaq qanun layihəsi haqqında danışın.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Səsə qoya bilməyəcəm, 6 nəfər yazılıb.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** 5 dəqiqə, bəli. 5 dəqiqəyə heç kimin etirazı yoxdur? Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev.** Təşəkkür edirəm, xanım sədr. "Siyasi partiyalar haqqında" Qanunda edilən dəyişikliklər siyasi partiyaların fəaliyyətində hüquqi boşluqların doldurulmasına kömək edəcək. O baxımdan mən bu qanun

layihəsini dəstəkləyirəm.

Bu gün siyasi partiyaların şəffaf fəaliyyət göstərməsi üçün hüquqi baza var. Bununla bərabər, siyasi partiyaların daha da güclənməsi lazımdır ki, bütün siyasi müzakirələr və məsələlər siyasi partiyalar müstəvisində olsun. Vətəndaşlar da bilsinlər ki, onlar üçün siyasi fəaliyyət və müzakirə siyasi partiyalar müstəvisində olan zaman fayda verir. Onlar da gedib şübhəli hərəkatlara, qurumlara və birliklərə qoşulmasınlar.

Siyasi partiyalar demokratiyanın tərkib hissəsidir. Siyasi partiyalar yoxdursa, demokratiyanın ölçüsü də olmur. Bu baxımdan onların ölçü göstərə biləcək səviyyədə inkişafı vacibdir. Bu, həm də onun üçün lazımdır ki, onlar beynəlxalq birliklərdə öz maddi-texniki bazaları ilə sərbəst şəkildə iştirak edə, Azərbaycan adına işlər görə və ölkəmizi layiqincə təmsil edə bilsinlər.

Siyasi partiyaların maddi-texniki bazası elə olmalıdır ki, onlar həm ölkə daxilində, həm də sərhədlərimizdən kənarda xalqa və dövlətə xidmət etməkdə sıxıntı ilə üzləşməsin. Ona görə deyirəm ki, xeyli boşluqlar və təhlükələr görür, əsassız ittihamlar eşidirəm.

Məni və rəhbərlik etdiyim Milli Cəbhə Partiyasını bəzən hakimiyyətə qulluq etməkdə günahlandırırlar. Böyük yanlışlıqdır. Biz Azərbaycan xalqına xidmət edirik. Sosial demokratiya ideologiyası əsasında fəaliyyət göstərərək bütün antikonstitusion fəaliyyətlərə qarşı çıxırıq. Heç bir xarici qüvvəyə bağlı deyilik, xarici təşkilatın və ya iqtidar nümayəndələrinin göstərişi ilə siyasət qurmuruq. Bizləri günahlandıran AXCP-nin sədri Əli Kərimli, Milli Şura kimi təşkilatlar isə göstərişləri məhz elə xaricdən alırlar. Biz sizlərin dediyi kimi, daxildən göstəriş alsaq belə, bu,

ölkəmiz və xalqımız üçün təhlükəli deyil.

Təəssüflə deməliyəm ki, sizlər isə Azərbaycan dövlətinin birmənalı maraqları olan yerdə belə ikibaşlı bəyanatlar və açıqlamalar verirsiniz. Özünüzü fədakar kimi göstərirsiniz. Amma siyasəti və diplomatiyanı bilənlər gözəl başa düşürlər ki, sizin xeyli açıqlamalarınız ancaq və ancaq xarici aləm üçün deyilir. Yəni hakimiyyəti ələ keçirmək üçün heç nədən çəkinmək olmaz və ən ağır şərtlərə də razıyıq. Əgər xaricdən vəd olunanlar bu qədər gözəl, cəzbedici idisə, niyə Moldovada Avropaya inteqrasiya əleyhdarları az qala referendumu udmuşdular. Bu, düşünmək üçün ciddi məsələdir. Moldovanlar Avropaya vizasız gedir, işləyir, güclü vəsait alırlar. Onlar Avropanın direktivası altında olmağa "yox" deyirlər. Suveren, müstəqil siyasət yürütmək istəyirlər. Bunu bir Əli Kərimli də düşünsün.

26 oktyabrda Gürcüstanda parlament seçkiləri olacaq. Gürcüstan, demək olar ki, Avropaya "yox" deyib. Axı, gürcülər də vizasız gedib-gəlir, orada işləyir, hər cür dəstək alır, amma boyunduruq altına düşmək istəmirlər. Ukraynaya baxaq. O dağılıb, məhv olub və məhv olmaqda davam edir.

Əli Kərimli və Milli Şura deyir ki, azadlıq, müstəqillik qurban tələb edir. Minlərcə qurban olmasa, azadlıq və müstəqillik, suverenlik olmaz. Əli Kərimliyə məsləhət görürəm ki, gözünü açıb bir daha diqqətlə baxsın. Biz 30 min qurban vermişik. 20 faiz torpaqlarımız dağılıb. 30 il 1 milyon qaçqın, köçkün ən ağır şərtlər altında yaşayıb. Daha bundan ağır qurban vermək olarmı? Bundan sonra 1 nəfər də qurban vermək olmaz. İndi ən ümdə məqsəd abad Azərbaycan qurmaq və insanlara layiqli həyat bəxş etmək üçün çalışmaqdır.

Ümid edirəm ki, müzakirə etdiyimiz "Siyasi partiyalar haqqında" Qanunda da bütün bu məsələlər öz əksini tapmışdır. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun. Hikmət Məmmədov. Hikmət müəllim, buyurun.

**Hikmət Məmmədov.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Doğrudan da, mühüm bir qanun layihəsi müzakirəyə çıxarılıb. Hörmətli xanım sədrin buyurduğu kimi, yeni reallıqda artıq siyasi partiyaların fəaliyyətini tənzimləyəcək qanunlar qəbul etmişik. Mən düşünürəm ki, bu düzəliş həmin qanunları bir daha zənginləşdirəcəkdir və demokratik inkişaf, hüquqi fəaliyyət üçün yeni imkanlar yaradacaqdır.

Bu kontekstdə mən bu qanun layihəsinin 2-ci maddəsinə toxunmaq istəyirəm. 2-ci maddənin birinci bəndində qeyd olunur ki, "nizamnaməsinə" sözündən sonra "proqramına" sözü əlavə edilsin. Doğrudan da, yeni mərhələdə, yeni keyfiyyətdə təzahür edən siyasi sistemimizdə proqram çox əhəmiyyətlidir. Çünki nəticə etibarı ilə Azərbaycan Prezidenti qeyd etdi ki, yeni tarixi mərhələdə millətimizin qarşısında yeni vəzifələr dayanır. Əminəm ki, 2020-ci ilə qədər fəaliyyət göstərən partiyaların hamısının proqramından artıq "Qarabağı işğaldan azad edəcəyik", "böyük qayıdış edəcəyik" – bu kimi məsələlər çıxarılıbdır. Ona görə də yeni kontekstdə yeni proqramın qəbul edilməsi zəruridir ki, bax, bu da qanunun 2-ci maddəsinin birinci bəndində, İnzibati Prosessual Məcəllənin 125.2-ci maddəsində öz əksini tapır.

Ayrı bir məsələ. İnzibati Prosessual Məcəllənin 126.2.1-ci maddəsinin 126.2-1.2-ci bəndində "siyasi partiyanın ləğvi barədə" ifadəsi, 126.2-1.1-ci bəndində isə "si-

yasi partiyanın fəaliyyətinin 2 aydan 6 ayadək müddətdə dayandırılması barədə” ifadəsi əlavə edilir. Bu da siyasi partiyaların fəaliyyətinin daha da genişləndirilməsi üçün çox vacibdir. Çünki ləğv etmək, aydındır ki, birdəfəlik ləğv etmək deməkdir, amma siyasi partiyanın fəaliyyətinin dayandırılması həm də gələcəkdə siyasi fəaliyyətin bərpa edilməsi deməkdir. Bu da milli demokratiyamız adına, düşünürəm, çox mühüm bir addımdır.

Başqa bir məsələyə toxunmaq istəyirəm. Bu da siyasi partiyaların fəaliyyəti ilə əlaqədardır. Ancaq Azərbaycandakı siyasi partiyaların deyil, sülh istəməyən Ermənistandakı siyasi partiyaların fəaliyyəti ilə bağlıdır. 1 gün öncə Ermənistanda fəaliyyət göstərən siyasi partiyalardan ibarət kollektiv “Hayastan” bloku bəyanat veribdir ki, bu gün Ermənistan parlamentində keçiriləcək sərhəd təhlükəsizliyi, delimitasiya və demarkasiya ilə bağlı qanun layihəsinin müzakirəsində iştirak etməyəcəklər. Səbəbini izah edirlər, ona görə ki, bu, Konstitusiyaya ziddir. Yəni Ermənistan Konstitusiyasına ziddir. Mən düşünürəm, görün, Azərbaycanın mövqeyi əvvəldən nə qədər haqlı idi ki, sülh sazişinin imzalanmasının Konstitusiyaya zidd olduğu ilə bağlı həyəcan təbili çalırdı və bu gün Ermənistan müxalifəti bunu etiraf etmiş oldu.

Mənə elə gəlir ki, bu, hörmətli Ziyafət müəllimin toxunduğu məsələyə, Amerika Birləşmiş Ştatlarının Prezidentinə bir növ cavabdır. Yəni biz nəyə görə sülh istəmirik. Ona görə ki, bu, antikonstitusion bir aktdır. Ona görə ki, Azərbaycan Prezidenti dəfələrlə bəyan edib ki, biz həqiqi sülh istəyirik. Bu mənada mən düşünürəm ki, Ermənistan müxalifətinin davranışları izahedicidir və doğrudan da, Azərbaycanın haqlı mövqeyini təsdiq edir.

Sonda, hörmətli xanım sədr, mən təşəkkür edirəm ki, Siz də Qərbi Azərbaycana qayıdışla bağlı Azərbaycan Prezidentinin siyasətinə dəstək olaraq bir komissiya yaratdınız. Mən düşünürəm ki, bu, artıq Qərbi Azərbaycan İcmasının fəaliyyətinin yeni bir mərhələsini təşkil edəcək. Çünki artıq burada bir institutlaşma, xüsusi məqsədyönlü bir fəaliyyət olacaqdır. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Azay Quliyev. Buyurun.

**Azay Quliyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlarım, dəyərli media nümayəndələri. Bu gün biz 4 qanunda siyasi partiyalarla bağlı əlavələr edirik, yəni birinci, Mülki Məcəllədə, ikinci, İnzibati Prosessual Məcəllədə, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunda və "Hesablama Palatası haqqında" Qanunda. Bu dəyişikliklər, bəli, bir sıra dəyişikliklər texniki xarakter daşıyır. Amma bir neçə mühüm dəyişiklik var ki, bu haqda mən danışmaq istərdim.

Birinci dəyişiklik "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunda olan məsələdir. Bu dəyişiklikdə göstərilir ki, siyasi partiyalar yalnız dövlət qeydiyyatına alındıqdan sonra fəaliyyət göstərə bilərlər. Bu da çox normal bir müddəadır. Çünki dünyanın hər bir yerində siyasi təşkilatlanma prosesi başa çatdıqdan sonra onun rəsmi qeydiyyatı tələb olunur və bundan sonra siyasi partiyalar fəaliyyət göstərə bilərlər.

İkinci dəyişiklik partiya üzvlərinin reyestri haqqındadır. Bilirsiniz ki, mövcud qanunvericiliyə əsasən, partiya üzrə reyestr aşkar məlumatlar sırasına daxil idi. Yəni hər bir şəxs partiya üzvləri haqqında məlumat əldə edə bilərdi. Amma əgər biz bu dəyişikliyə getsək və qəbul olunsa,

onda partiya üzvlərinin reyestri haqqında məlumatları yalnız xüsusi sorğu əsasında əldə etmək mümkün olur. Müvafiq dövlət qurumlarına belə bir səlahiyyət verilir. Əslinə baxanda, bu, çox maraqlı və prinsipial dəyişiklikdir. Çünki xatırlayırsınızsa, "Siyasi partiyalar haqqında" Qanun müzakirə olunan zaman bəzi müxalifət partiyaları iddia edirdilər ki, guya onların üzvləri haqqında məlumatların açıq reyestrdə olması həmin şəxslərə məhz siyasi motivli təzyiqlər olması üçün əsaslar yaradır. Baxmayaraq ki, o vaxt da bu iddianın heç bir əsası yox idi, çünki dövlətin, hakimiyyətin belə bir niyyəti olmayıb və olmaz da. Burada məntiq yox idi. Amma yenə də qanunvericilik təşəbbüsü ilə çıxış edən bizim müvafiq qurumlar bunu da aradan qaldırırlar. Beləliklə, dövlət partiya üzvlərinin reyestri haqqında məlumatları məhdudlaşdıracaq və hər kəs üçün açıq olmayacaq.

Üçüncü, maraqlı təkliflərdən biri də "Hesablama Palatası haqqında" Qanunda edilən dəyişiklikdir. Həmin dəyişikliyə əsasən, artıq bundan sonra siyasi partiya Hesablama Palatasının yoxladığı təşkilatlar siyahısında olacaqdır. Burada da, hesab edirəm, məntiq var. İndi, ola bilsin ki, bəzi müxalifət partiyaları bunu müəyyən bir formada partiyalara bir təzyiq kimi qəbul edəcəklər. Amma hesab edirəm, bu da məntiqdən kənardır. Çünki birinci, ona görə ki, ilk dəfədir, Azərbaycanda bütün siyasi partiyalar, yəni parlament seçkilərində iştirak edən bütün siyasi partiyalar dövlətdən maliyyə alacaqdır. Yeri gəlmişkən, çox təqdirəlayiq haldır ki, sonuncu parlament seçkilərində Azərbaycanda fəaliyyət göstərən 26 siyasi partiyanın 25-i iştirak etdi. Onlardan 11-i mandat qazandı, parlamentə düşdü, yerdə qalan 14-ü isə yeni qanuna əsa-

sən ilk dəfə olaraq dövlət büdcəsindən maliyyə alacaq və o da məhz onların əldə etdiyi etibarlı səslərin sayına görə hesablanacaq.

Beləliklə, dövlət cənab Prezidentin təşəbbüsü ilə başlanılan siyasi dialoq mühitini daha da genişləndirir, siyasi partiyaların ölkənin inkişafında iştirakını stimullaşdırır və başqa sözlə desək, siyasi partiyalara həm də maliyyə sabitliyini və maliyyə müstəqilliyini təmin edir. Bu, özü çox müsbət bir haldır. Ona görə də məhz Hesablama Palatası tərəfindən dövlət büdcəsindən ayrılan vəsaitlərin yoxlanılmasının, eyni zamanda, siyasi partiyalara da şamil edilməsi, hesab edirəm ki, məntiqi yanaşmadır.

Bütövlükdə, əlbəttə, sonda onu demək istərdim ki, bu qanun layihələrinin məzmunu və fəlsəfəsi, qeyd etdiyimiz kimi, ölkədə keçirilən siyasi islahatların dəstəklənməsini özündə ehtiva edir və ona görə də bu dəyişiklikləri dəstəkləmək lazımdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Azay müəllim. Aydın Mirzəzadə. Buyurun.

**Aydın Mirzəzadə.** Təşəkkür edirəm, xanım sədr. Qanunda edilən dəyişiklikləri dəstəkləyirəm. Hesab edirəm ki, bu dəyişikliklər qanunun daha səmərəli işləməsinə, günün tələblərinə cavab verməsinə kömək edəcək.

2 il bundan əvvəl çox gərgin müzakirələrdən sonra "Siyasi partiyalar haqqında" yeni Qanun qəbul edildi. Azərbaycanda siyasi partiya sisteminin daha səmərəli olmasına, siyasi partiyaların öz potensialını açmasına çox böyük kömək oldu. Gücü olan siyasi partiyaların, həqiqətən, bu qanun əsasında tanınmasına imkan verdi. Görünən ondan ibarətdir ki, 26 siyasi partiyanın 25-nin son parlament seçkilərində iştirakı bu qanunun, doğrudan da,

həyatiliyindən xəbər verdi. Bir də, əsas nəticələrdən biri ondan ibarətdir ki, seçkidə iştirak edən siyasi partiyaların azı yarısının nümayəndəsi parlamentdə təmsil olundu. Deməli, siyasi müzakirələr, siyasi polemikalar tək parlamentdən kənarda deyil, eyni zamanda, parlamentin iclaslarında da keçirilir. Hər dəfə keçirilən iclaslarımızda bunun bir daha şahidi oluruq.

Eyni zamanda, dövlətin siyasi partiyaların fəaliyyətinə şərait yaratması, onlara maddi dəstək göstərməsi, mənzil qərargahlar ilə təmin edilmələri, fəaliyyətlərinin demokratik şəkildə həyata keçirilməsi üçün şərait yaradılması göz qarşısında olan məsələdir.

Mən iki məsələyə münasibət bildirmək istəyirəm. Burada bildirilir ki, "siyasi partiyanın fəaliyyətinin 2 aydan 6 ayadək müddətinə dayandırılması" müddəası əlavə edilir. Mənim üçün maraqlıdır, bu, hansı formada həyata keçiriləcək? Həmin siyasi partiya iclas keçirə bilməyəcək, öz fəaliyyətini mətbuatda işıqlandıra bilməyəcək. Həmin müddətdə dövlətin onlara maddi yardımı dayandırılacaq. Yəni bu detallar açıqlansa və yaxud hansı isə formada olsa, çox yaxşı olardı.

Bir də, mənim belə bir narahatçılığım var, birdən hansı isə siyasi partiya seçkilər ərəfəsində elə bir təxribat etdi ki, məhkəmənin qərarı ilə onun fəaliyyəti 2 aydan 6 aya qədər dayandırıldı. Belə olan halda, bu, xaricdən müəyyən qüvvələrin məqsədli surətdə Azərbaycanda seçkiyə dair yenidən ədalətsiz qərar verməsi üçün bir bəhanə ola bilərmi? Yəni bu məsələnin də düşünülməsini təklif edərdim.

Eyni zamanda, bununla bağlı bir məsələyə münasibət bildirim. Vaxtaşırı burada parlamentdə təmsil olunmayan siyasi partiyalar və yaxud onların liderləri haqqında

fikirlər bildirilir. Seçicinin qarşısına çıxa bilməyən liderin adının burada hallanmasına nə ehtiyac var? O insanlar ancaq kompüter qarşısında bu və ya digər məsələyə bloger kimi münasibət bildirirlər. Hansı siyasi qüvvəsi olduğu bildirilmir, haradan maliyyələşdirildiyi bildirilmir. Amma vaxtaşırı onların adları hallanır. Mətbuat vasitəsi ilə, ictimai fikir vasitəsi ilə onlar yenə gündəmdə olurlar. Hesab edirəm, o qüvvələrdən, o şəxslərdən danışmaq lazımdır ki, onlar, doğrudan da, real qüvvədir. Milli Məclisdə təmsil olunur və yaxud parlamentdən kənarda olsalar da, onlar siyasi gündəmin zənginləşməsinə, dövlətçilik məsələlərinin həllinə öz töhfələrini verirlər. Amma kimlərinsə heç bir ehtiyac olmadan və yaxud ona layiq olmadan adının vaxtaşırı parlamentdə səsləndirilməsinin mənasını, açığını deyim, mən bir o qədər də başa düşə bilmirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov. Buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Xanım sədr, Sizin də qeyd etdiyiniz kimi, 30 ildən və uzun müzakirələrdən sonra Azərbaycanda "Siyasi partiyalar haqqında" yeni Qanun qəbul olundu və özündə bütün müasir cəhətləri əks etdirir. Bu gün etdiyimiz dəyişikliklər də bu qanunun daha da zənginləşdirilməsinə xidmət edəcəkdir.

Birincisi, Hesablama Palatası tərəfindən bu sahənin yoxlanılması tamamilə doğrudur. Çünki bütün nazirliklər, komitələr, dövlət büdcəsindən vəsait alan idarələr, təşkilatlar, heç olmasa, 5 ildən bir Hesablama Palatası tərəfindən yoxlanılır, yaxud müraciətlər əsasında bu yoxlamalar aparılır. Ona görə də dövlət büdcəsindən vəsait alan siyasi partiyanın da yoxlanılması vacib şərtlərdən biridir.

İkincisi, biz, eyni zamanda, qanunvericilikdə də göstərmişik, bu partiyalar rübdə bir dəfə Mərkəzi Seçki Komissiyasına büdcədən deyil, digər, büdcədənkənar, yəni üzvlük haqqıdır, ianədir və sair aldığı vəsaitlər haqqında hesabat verməlidir ki, partiyaya haradan vəsaitlər daxil olur. Təbii, siyasi partiyanın maliyyə bazası yoxdursa, o siyasi partiya ciddi şəkildə fəaliyyət göstərə bilməz. Biz əksər hallarda görürük ki, bir qrup siyasi partiya Mərkəzi Seçki Komissiyasına, ümumiyyətlə, hesabat vermir. Lakin bizim qanunvericilikdə bu var ki, deməli, hesabat vermirsə, buna məhkəmə qaydasında baxılmalıdır və hətta siyasi partiyanın ləğv olunmasına qədər gedib çıxmalıdır. Bu qanunu qəbul etdiyimiz dövrdən indiyə qədər AXCP, bir neçə digər partiya, ümumiyyətlə, Mərkəzi Seçki Komissiyasına heç bir hesabat verməyiblər. Yerdə qalan partiyalar isə verdiyi hesabatlarda həmin qrafanın qarşısında "0" yazırlar. Yəni büdcələrinə heç bir vəsait daxil olmayıb və xərclənməyibdir. Onda sual çıxır, müəyyən partiyaların rəhbərləri 19 ildir, 20 ildir işləmirlərsə, hansı vəsaitlə yaşayırlar, aparat, cangüdən saxlayırlar və ən bahalı maşınlarda gəzirlər. Bu da sual doğurur ki, bunlar bu hesabatı niyə vermirlər? Əgər biz şəffaflıqdan danışırıqsa, şəffaflığı ortaya qoyuruqsa, bu məsələlərdə ən böyük şəffaflıq hesabatlılığın təmin olunmasıdır. Bu baxımdan mən hesab edirəm, bu addımlar atılmalıdır.

Burada hörmətli Aydın müəllim bir neçə sual qoydu. Aydın müəllim, o ləğv olunma onunla əlaqədardır ki, əgər partiya üzvlərinin sayı 5 mindən aşağı düşürsə, o, ildə bir dəfə hesabat verməlidir. Üzv sayını 5 min nəfərə çatdırmalıdır ki, qeydiyyatdan keçsin. Əgər çatdıra bilmirsə, onda onun fəaliyyəti dayanır, növbəti dəfə o, üzv sayını 5

min nəfərə çatdırdıqdan sonra qeydiyyatı, fəaliyyəti davam olunur.

Digər bir məsələni burada hörmətli Razi müəllim də qeyd etdi. Bu gün o partiyalar qarayaxma ilə məşğuldurlar. Xarici kəşfiyyata işləyirlər, xarici kəşfiyyatdan maliyyələşirlər. Gürcüstan özünün müttəfiqi olan Amerikanın və Avropanın qeyri-hökumət təşkilatlarından alınan qrantlarla əlaqədar qanun layihəsinin üstündə durub müstəqilliyi bahasına bunun qarşısını alır. Bilir ki, o adamlara verilən tapşırıq əsasında burada hansı oyunlardan çıxacaqlar.

Bu gün Azərbaycanda aparılan qlobal işlər, Azərbaycan Ordusu, işğaldan azad olunmuş ərazilərimizdə gedən tikinti, quruculuq işləri haqqında olmazın yalanı, böhtanı öz blogerliyi, "tiktoker"liyi ilə yazıb qarayaxma ilə məşğul olan adamlara qarşı biz qəti şəkildə mübarizə aparmalıyıq. Bilirsiniz ki, indi informasiya əsridir. İnsanlar ən çox məlumatları internetdən, sosial şəbəkələrdən alırlar. Sosial şəbəkələrdə o insanları çaşdırmasınlar deyə, biz öz fikirlərimizi də, sözümüzü də deməliyik, mövqeyimizi də bildirməliyik ki, bu, yalandır, böhtandır, şərdir. Ona verilən tapşırıqdır, ermənilərin verdiyi pullardır ki, o pulların hesabına övladları bu gün xaricdə ən bahalı institutlarda təhsil alırlar. Özlərinin dolanışığı və sair xərcləri. O baxımdan qanun layihəsini təsdiq edəcəyik və bunu bir az da sərtləşdirmək lazımdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Siyavuş müəllim. Mən Sizinlə tamamilə razıyam ki, sosial şəbəkələrdə çox fəal olmaq lazımdır, hər birimizə aiddir. Harada yazılıbsa, elə orada da cavabını vermək lazımdır. Məlahət İbrahimqızı. Məlahət xanım, buyurun.

**Məlahət İbrahimqızı**. Çox sağ olun, xanım sədr. Mən

də, sözsüz ki, müzakirəmizə təqdim olunmuş “Siyasi partiyalar haqqında” Azərbaycan Respublikasının Qanununa və onunla əlaqədar bır sıra qanunlarda edilən dəyişikliklərə səs verəcəyəm və həmkarlarımı da səs verməyə dəvət edirəm. Sözsüz ki, bu dəyişikliklər ölkəmizdə uzun illərdir aparılan fundamental və genişmiqyaslı islahatlara, xüsusi ilə də ölkəmizin siyasi sisteminin təkmilləşdirilməsinə, siyasi partiyaların fəaliyyətinin daha da şəffaf olmasına verilən bir töhfədir. Əminəm ki, bu qanunda edilən dəyişikliklər onların dövlətimizin demokratikləşmə prosesində iştirakı mexanizmlərini də daha da sadələşdirəcək və gücləndirəcəkdir.

Mənim təklifim nədir? Əminik ki, ölkəmizdə islahatlar davamlı və ardıcıl olaraq həyata keçiriləcəkdir. Komitəyə müraciət etmək istərdim ki, “Siyasi partiyalar haqqında” Qanunda bu gün çox aktual olan məsələlərə baxılması da, hesab edirəm, günün aktual tələblərindən biridir. Çünki biz Konstitusiya dəyişiklikləri ilə bağlı sonuncu referendumda seçib-seçilmək hüququnu 18 yaş etdik. Əgər 18 yaşında vətəndaş parlamentə seçilmək hüququ qazanırsa, deməli, onun siyasi partiyalarda təmsil olunmaq hüququna da baxmaq lazımdır. Çünki bizdə siyasi partiyalara üzv olmaq yaşı da 18-dir. Əgər 18 yaşında vətəndaş seçkiyə gedirsə, onun siyasi partiyalarda fəal üzv olmaq və yaxud fəaliyyət göstərmək hüququ yoxdursa, burada bir balaca boşluq əmələ gəlir. Nəzərə alsaq ki, dünya praktikasında, hətta Amerika Birləşmiş Ştatlarında Respublikaçılar və Demokratlar kimi məşhur partiyalarda 12, 13, 14, 15 yaşında yeniyetmələrin belə üzv olmaq hüququ var. Təkcə Amerika Birləşmiş Ştatları deyil, Avstraliyada, Kanadada və bir sıra ölkələrdə, yəni, bütövlükdə, dünyada o yaş

kateqoriyalarını dərəcələndirdikdə 12–18 yaşında olanlara siyasi partiyalarda fəaliyyət göstərmək hüququ verilibdir. Bu mənada bizdə də, bir daha təkrar etmək istəyərdim ki, 18 yaşında parlamentə seçilmək hüququ qazanan gəncə, heç olmasa, 17 yaşında hansı isə siyasi partiyada fəaliyyət göstərmək hüququ verilsə, qanunla tənzimlənsə, daha yaxşı olar. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Elşən Musayev. Elşən müəllim, buyurun.

**Elşən Musayev**. Təşəkkür edirəm, Sahibə xanım. Bir neçə məsələyə münasibət bildirmək istəyirəm. İlk öncə, hörmətli həmkarlarıma təşəkkür edirəm. Təbii ki, siyasi partiyalar məsələsi elə bir mövzudur ki, bununla bağlı mütləq qanun layihəsinin predmetindən kənara çıxılması gözlənilən idi.

Azay müəllim bir məsələni qeyd etdi, reyestr üzvlərinin məlumatları ilə bağlı. Siz bilirsiniz ki, bu barədə "Siyasi partiyalar haqqında" Qanun qəbul olunmamışdan əvvəl mühüm və ciddi müzakirələr olub. Bir neçə dinləmə keçirilib. Hətta o zaman bizim o qeydiyyat dediyimiz, əslində, reyestr məlumatlarının toplandığı mərhələdə artıq bu məsələ ilə bağlı müəyyən narazılıqlar var idi. İnsanlar bu məlumatların bildirilməsini istəmirdilər. Niyə? Necə olub? Artıq bu, belə deyək, bizə aid olan məsələ deyil. Ümumi fikir belə idi ki, məlumatlar sızmasın. Çünki burada təkcə siyasi mənsubiyyətdən söhbət getmir, həm də şəxsi məlumatlardan gedir. Telefon nömrəsi, ünvan, iş yeri və sair və ilaxır.

Burada digər məsələ – ilkin mərhələdə iki aydan altı ayadək ləğv qərarı ilə bağlı qeyd olundu. Səhv etmirəmsə, deyəsən, Aydın müəllim dedi. Təbii, əgər yüngül cəza

nəzərdə tutulursa, bu, yüngül hüquqpozmalarına qarşı olacaq, orada qeyd olunan dövləti cinayətlər və sair, əlbəttə ki, o məsələnin predmeti ola bilməz.

Nəhayət, bu mövzu məhkəmə hakimiyyətinə aid olan məsələdir. Hesab edirəm ki, biz indiki mərhələdə heç buna ehtimal, fərziyyə kimi belə münasibət bildirməməliyik.

Ən nəhayət, hörmətli həmkarım Razi Nurullayev çıxışının əvvəlində və sonunda "Siyasi partiyalar haqqında" Qanunda dəyişiklik deyə bir fikir işlətdi. Bildirmək istəyirəm ki, bu, "Siyasi partiyalar haqqında" Qanunda dəyişiklik deyil, "Siyasi partiyalar haqqında" Qanunun icrası ilə bağlı digər qanunlarda dəyişikliyi özündə ehtiva edən layihədir. Minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun, Elşən müəllim.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Elşən müəllim burada qaldırılan suallara da aydınlıq gətirdi, komitənin rəyini, münasibətini də bildirdi. Mən indi qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.14 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələyə keçirik. Bu da Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun

layihəsidir. Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Azər müəllim, xahiş edirəm, məlumat verin. Buyurun.

**Azər Əmiraslanov**. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Bu qanun layihəsi ilə Vergi Məcəlləsində edilən dəyişiklik texniki xarakter daşıyır. Terminoloji dəqiqləşdirmə məqsədi ilə 164.1.20-ci maddədə "qurumun" sözü "orqanın (qurumun)" sözləri ilə əvəz edilir. Texniki xarakterli olduğunu nəzərə alaraq, hörmətli həmkarlarımızdan layihənin dəstəklənməsini xahiş edirik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Hörmətli həmkarlar, çıxış etmək istəyən yoxdur. Azər müəllim çox açıq məlumat verdi, texniki xarakterli dəyişiklikdir. Mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, bizim gündəliyimizdə 12 məsələ qalır və bu məsələlərin hamısı da birinci oxunuşda olan qanun layihələridir. Ona görə elə bəri başdan hamıdan xahiş edirəm ki, qanun layihəsinin birinci oxunuşuna uyğun olaraq çıxışlar edin.

Hörmətli həmkarlar, qeyd edim ki, gündəliyin növbəti

iki məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub. Mahiyyətcə bir-birinə yaxındır. 8-ci məsələ Minatəmizləmə fəaliyyəti haqqında qanun layihəsidir, 9-cu məsələ isə "Yol hərəkəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Mən təklif edirəm ki, həmişə olduğu kimi, təqdimatlar birgə verilsin, müzakirə də birgə olsun, ancaq səsverməni biz ayrılıqda keçirək. 8-ci məsələyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılmışdır. Arzu müəllim, xahiş edirəm, bununla bağlı məlumat verin. Buyurun.

**Arzu Nağıyev,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Təşəkkür edirəm, xanım sədr. Hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Ali Baş Komandan cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə ordumuzun tarixi qələbəsindən sonra işğaldan azad olunmuş ərazilərdə minadan təmizlənmə, dövlət başçısının dediyi kimi, ən əsas prioritetlərdən biridir. Minalar insanların, xüsusi ilə mülki vətəndaşların həyat və sağlamlığı üçün təhlükə olaraq, həm də torpaqlardan istifadə prosesinə əngəl yaradır, ümumilikdə, Böyük Qayıdış prosesinə ciddi təsir göstərir və əsas maneələrdən biridir.

Minatəmizləmə, ümumiyyətlə, minaların təmizlənməsi deməkdir və müxtəlif kateqoriyalara bölünür. Minalardan təmizləmə hərbi əməliyyatlar zamanı olur və istehkamçı dəstələri və xüsusi təlim keçmiş minatəmizləmə qrupları tərəfindən əl ilə, atəşlə və yaxud texnikadan istifadə edilərək həyata keçirilir. Bu əməliyyatlarda Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Sərhəd Xidməti və digər səlahiyyətli qurumlar iştirak edirlər.

Bu gün təqdim olunan qanun layihəsi humanitar minatəmizləmə əməliyyatına aiddir. Humanitar minatəmizləmə əməliyyatı hərbi əməliyyatlar başa çatdıqdan sonra mülki əhalinin təhlükəsizliyini təmin etmək üçün həyata keçirilir. Bu məqsədlə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 15 yanvar tarixli fərmanı ilə Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin hüquqi varisi olan Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi, yəni ANAMA publik hüquqi şəxs yaradılmışdır. Beynəlxalq təcrübə nəzərə alınmaqla, Minatəmizləmə fəaliyyəti haqqında qanun layihəsinin hazırlanması da dövlət başçısı tərəfindən müvafiq fərmanla Nazirlər Kabinetinə tapşırılmışdır.

Bu gün müzakirə edilən qanun layihəsi məhz Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü ilə hüquqi qaydada Milli Məclisə təqdim edilmişdir. Qanun layihəsinin hazırlanmasının zərurəti Azərbaycan Respublikasında mina əleyhinə fəaliyyətin, o cümlədən minatəmizləmə fəaliyyətinin təşkili və həyata keçirilməsinin hüquqi əsasları, xüsusi ilə minatəmizləmə fəaliyyəti ilə bağlı icra mexanizmləri, eləcə də müvafiq fəaliyyətə cəlb edilmiş qurum və şəxslərin hüquq və vəzifələrinin müəyyən edilməsindən irəli gəlir. Bu qanun layihəsi Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən Azərbaycan Respublikasının təhlükəsizliyi və müdafiəsinin təmin edilməsi məqsədi ilə aparılan mina əleyhinə fəaliyyətə şamil edilmir.

Qanun layihəsi 3 fəsil, 14 maddədən ibarətdir. I fəsil “Ümumi müddəalar” adlanır. Bu fəsildə qanunda istifadə olunan əsas anlayışların mənaları, qanunvericilik və bu qanunun tətbiq dairəsi müəyyən edilir. Qanunun II fəslin-

də mina əleyhinə fəaliyyətin təşkili və həyata keçirilməsi sahəsində dövlət siyasətinin istiqamətləri, minatəmizləmə fəaliyyətinin subyektləri, ona dair tədbirlər, təhlükəli ərazilərdə minatəmizləmə subyektləri və bu fəaliyyətə dair tələblərdir. Qanunun III fəsli yekun müddəalarla müəyyən edilir. Minatəmizləmə fəaliyyəti haqqında qanun layihəsinin qəbul edilməsi minatəmizləmə sahəsində münasibətlərin tənzimlənməsini və mina əleyhinə fəaliyyətin ayrı-ayrı səviyyə və mərhələləri üçün ümumi mexanizmin müəyyən olunmasını təmin edəcəkdir. Qanun layihəsi Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində ANAMA-nın rəhbər işçiləri, eyni zamanda, Minatəmizləmə Agentliyi İdarə Heyəti sədrinin birinci müavini, idarə rəisi və hüquq şöbəsinin müvafiq aparıcı mütəxəssisi ilə birlikdə müzakirə olunmuş, hər bir komitə üzvü öz fikrini bildirmişdir. Layihəni birinci oxunuşa məhz komitəmizin müvafiq qərarı ilə təqdim edirik və plenar iclasda birinci oxunuşda səs verməyinizi xahiş edirik.

**Sədrlik edən.** Sağ olun, Arzu müəllim. İndi mən istəyərdim ki, biz 9-cu məsələnin təqdimatına qulaq asaq. Bu qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən Kamal müəllimə söz verirəm. Kamal Cəfərov. Buyurun, məlumat verin.

**Kamal Cəfərov**. Çox sağ olun, hörmətli xanım sədr. Müzakirəmizə təqdim edilən qanun layihəsi, əslində, Minatəmizləmə fəaliyyəti haqqında qanuna uyğunlaşdırma xarakteri daşıyır və həmin qanunun 7-ci maddəsindəki "səlahiyyətli qurumun minatəmizləmə əməliyyatlarında təcili və təxirəsalınmaz tədbirlərin yerinə yetirilməsi,

habelə partlayıcı sursatların daşınmasında istifadə edilən xüsusi təyinatlı nəqliyyat vasitələri operativ nəqliyyat vasitələri hesab edilir" müddəasına müvafiq olaraq, "Yol hərəkəti haqqında" Qanunda "operativ nəqliyyat vasitələri" anlayışına "minatəmizləmə prosesində istifadə olunacaq nəqliyyat vasitələri" ifadəsi də daxil edilir. Qeyd olunanları nəzərə alaraq, həmkarlarımı hər iki qanun layihəsinin lehinə səs verməyə dəvət edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Arzu müəllim, bax, bu qanun layihəsinə sizdə də baxılıb. İndi Siz əsas komitə kimi deyil, rəyçi kimi rəy verin. Buyurun.

**Arzu Nağıyev.** Təşəkkür edirəm, xanım sədr. Komitədə bu qanun layihəsinə baxılıb və plenar iclasa tövsiyə olunub. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, biz hər 2 qanun layihəsi haqqında məlumatları dinlədik, rəyləri öyrəndik. İndi isə müzakirəyə keçirik. Mən görürəm, yazılanlar var. Yenə də xatırladıram ki, bu qanun layihələri haqqında birinci oxunuşa uyğun olaraq, yəni konseptual baxımdan çıxışlar edilsin. Buyurun. Razi Nurullayev.

**Razi Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar. Minatəmizləyənlər, doğrudan da, müqəddəs işlə məşğuldurlar. Həm öz adımdan, həm də rəhbərlik etdiyim Milli Cəbhə Partiyası adından ANAMA-nın rəhbəri hörmətli Vüqar Süleymanova, ANAMA-nın bütün rəhbər heyətinə, bütün işçilərinə və minatəmizləyənlərə ürəkdən təşəkkür etmək istəyirəm. Onlar, həqiqətən, çox əzizdirlər. Bütün məqamlarda onlara olan dərin hörmətimi və gördükləri fəaliyyətdən dolayı xoş münasibətimi hər zaman göstərməyə çalışmışam. Onlar həyatlarını

təhlükəyə ataraq bu işi görürlər.

Bir dəfə çıxışımda artıq qeyd etmişdim ki, mina təmizləyən zaman həlak olanlara şəhid statusu verilsin. Bu məsələ kifayət qədər qaldırılıb. Amma baxıram ki, qanuna salınmayıb. Belə məsləhət olubsa, mən də o məsələni uzatmaq istəməzdim. Amma şəhidlik statusu verilsəydi, ədalətli olardı. Cəmi 1 nəfər – Raqif Deputat oğlu Sarıyev mina təmizləyən zaman həyatını itirib. Rəqəm çox kiçikdir, cəmi 1 nəfər. Bu məsələ niyə müsbət həllini tapmasın? Əgər bu mümkün deyilsə, təklif edirəm ki, minatəmizləyənlərin sosial durumunun yaxşılaşdırılması üçün daha geniş addımlar atılsın. Çünki hələ minalar çoxdur və bu sahədə həvəsləndirməyə, qayğıya ehtiyac var.

İkinci oxunuşda imkan olacaqsa, konkret maddələr üzrə təkliflərimi deyərəm. O vaxta qədər isə xahişim şəhidlik statusunun təminatı, yaxud ona bərabər tutulan maddi imkanların yaradılmasıdır. Qeyd edim ki, bu günə qədər minatəmizləmə əməliyyatı zamanı 11 nəfər xəsarət alıb. Bu rəqəm də o qədər böyük deyil və büdcə üçün əlavə yük yaratmır. Amma sosial, mənəvi cəhətdən cəmiyyət və həyatını qurban vermək, mina təmizləmək istəyənlər üçün ciddi stimuldur. Onların da övladları, arzuları, körpələrinin gələcəyi var. Ən azından onların övladları və yaxınları ilə bağlı bir sosial yanaşmanın olmasını vacib hal hesab edirəm. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun. Vüqar Bayramov.

**Vüqar Bayramov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, mən də qanun layihəsini dəstəkləyirəm. Çox vacib, eyni zamanda, aktual qanun layihəsidir. Hörmətli Arzu müəllimə ətraflı təqdimata görə təşəkkür edirəm.

Mən birinci oxunuşun tələblərinə uyğun olaraq, bir neçə konseptual məsələni qeyd etmək istərdim. Nəzərə alsaq ki, qanun layihəsi, – Arzu müəllimin qeyd etdiyi kimi, – humanitar məqsəd daşıyır və praktik olaraq bu qanun layihəsi bizim üçün həm də humanitar, işğaldan azad olunmuş ərazilərimizdə məskunlaşma baxımından vacib olan bir qanun layihəsidir. Möhtərəm Prezidentin qeyd etdiyi kimi, "Azərbaycan ərazisindən minaların təmizlənməsi üçün 25 milyard dollar və 30 il müddət lazımdır". Ermənistanın işğalı dövründə ərazilərimizdə təxminən 1 milyona yaxın mina basdırılıb. Təbii ki, minatəmizləmə prosesi də bu kontekstdən zaman alır.

Eyni zamanda, İkinci Qarabağ müharibəsindən sonra 380-dən çox vətəndaşımız mina qurbanı olub. O baxımdan qanun layihəsi konseptual olaraq kifayət qədər vacibdir. Mən ikinci oxunuşun tələblərinə uyğun olaraq deyil, konseptual olaraq, – həm də 12-ci maddədə də bu, nəzərdə tutulur, yəni ikinci oxunuşda müzakirə etmək imkanımız olacaq, – bir neçə konseptual təklifimi çox qısa təqdim etmək istərdim. Nəzərə alsaq ki, 12-ci maddədə də məhz minatəmizləyənlərin sosial təminatının gücləndirilməsi əsas istiqamətlərdən biri olaraq qeyd olunur. Ona görə mən konseptual olaraq təklif etmək istərdim, əvvəla, minatəmizləyənlərin kifayət qədər məsuliyyətli və şərəfli iş həyata keçirdiklərini nəzərə alaraq, minatəmizləyənlər üçün də güzəştli ipoteka kreditlərindən istifadə imkanı verilsin. Nəzərə alsaq ki, güzəştli ipoteka kreditlərindən istifadə edənlərin kateqoriyası genişlənir və son illər bu kateqoriyaya xeyli sayda vətəndaşımız əlavə olunur, o baxımdan məhz bu qanunun qəbulundan sonra minatəmizləyənlərin də bu siyahıya əlavə olunması daha məqsədəuy-

ğun olardı.

Eyni zamanda, nəzərə alsaq ki, minatəmizləyənlərin fəaliyyəti kifayət qədər risklidir, məsuliyyətlidir və qanun layihəsində "Əmək pensiyaları haqqında" Qanuna istinad edilir. Ona görə də təklif etmək istərdim ki, "Əmək pensiyaları haqqında" Qanuna uyğun olaraq, məhz minatəmizləyənlər üçün də güzəştli şərtlərlə pensiyaya çıxmaq hüququ təmin olunsun. Bu onların daha tez, yəni güzəştli şərtlərlə pensiyaya çıxmasını təmin edə bilər.

Bütövlükdə, qanun layihəsini dəstəkləyirəm və hörmətli həmkarlarımızdan səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli Rafael müəllim söz istəyib. Rafael müəllim, buyurun. Rafael Hüseynov.

**Rafael Hüseynov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, dəyərli həmkarlar. Minatəmizləmə fəaliyyəti haqqında qanun yalnız hərbi və mülki deyil, həm də mühüm siyasi məna daşıyır. Bu qanunun bir ittihamedici tərəfi də var. Bu qanunun fəlsəfəsi artıq onu deyir ki, belə bir qanunu qəbul edən xalqın, dövlətin əraziləri müəyyən tarix kəsiyində düşmən qüvvələrin işğalı altında qalıb, təcavüzkar həmin torpaqları tərk edərkən ciddi şəkildə mina "əkinçiliy"i ilə məşğul olub. Düşmənin bu işi sistemli və miqyaslı şəkildə icra etməsinin sübutu da bir vaxtlar torpağı işğal altında olmuş dövlətin artıq ayrıca qanun səviyyəsində minatəmizləmə proseslərini tənzimləməsi faktından doğur.

Bu qanun mahiyyəti etibarı ilə həm də daha bir vacib həqiqəti, humanist yanaşmanı ifadə edir. İndi yaralı olan, təhlükələr vəd edən bu minalı torpaqlar əkilib-becərilməli, bu torpağın üstündə övladlar yaşamalı, gələcək qurulmalıdır. Vaxtında işğalçılıq etmiş düşmən həmin təcavüzü

gələcəkdə bir başqa şəkildə davam etdirmək üçün mina basdırma məkrini edib. Edib ki, o torpaq əkilib-becərilməsin, edib ki, bu ərazilərdə yeni ölümlər baş versin. Edib ki, o torpaq üstündə oynayan, böyüyən məsum balalar böyüməsin, həmin minaların partlayışlarından həlak olsunlar. Bunu edənlər insan ola bilərmi? Axı, onların da öz övladları, günahsız balaları var. Onlar bu mina "əkinçiliy"ini ediblər ki, bir zaman qaçqınlıq, məcburi köçkünlük əzabı verdikləri xalqın gələcəyini də ölüm qorxusu altında saxlasınlar. İşğal bitəndən sonra da onları öz ata-baba yurdlarında dinc yaşamaq imkanından məhrum etsinlər.

Müharibə başa çatıb, Azərbaycanın qəti zəfəri düşmənin qəti məğlubiyyəti ilə bitib. Torpaqlar yağı tapdağından azad edilib və yeni tarixi mərhələ gəlir. Bəli, bu tarixi mərhələdə sülh müqaviləsi lazımdır, həm o, həm də bu tərəfə lazımdır. Ancaq sülh bizdən daha çox, məğlub Ermənistana lazımdır. Biz tərəfdarıyıq ki, Ermənistan Konstitusiyasında zəruri dəyişmələri edəndən sonra tezliklə sülh müqaviləsi bağlansın, nəhayət, hər iki xalq rahat, dinc həyatını davam etdirə bilsin. Amma bu tarixi dönəmdə sülh həm də ikiqat lazımdır, ona görə ki, bir para müstəmləkəçi, işğalçı, yaxın və uzaq keçmişi digər ölkələrin daxili işlərinə qarışaraq qarşıdurmalar yaratmaq, siyasi mərdimazarlıqlar törətməkdən ibarət şər dövlətlər tərpəşməsinlər. Fransa və ona bənzər çürük və çirkli qüvvələrin də növbəti fəlakətləri qızışdırmağa münbit şəraitləri və girəvələri olmasın.

Mina xəritələri məsələsi ilə bağlı bir düşüncəni bölüşmək istəyirəm. Mina xəritələri mahiyyətcə Ermənistanın Konstitusiyasındakı qonşu dövlətlərə, konkret olaraq Azərbaycana ali qanun səviyyəsində ərazi iddialarına

bərabər bir yolverilməzlikdir. Hətta o xəritələrin işğalçı dövlət tərəfindən tam təhvil veriləcəyi halda da, onlar bel bağlanılmaz, etibar edilməz olduğundan, bizim minatəmizləmə, minasızlaşdırma əməliyyatlarımız ən dəqiq və səriştəli şəkildə həyata keçirilməlidir. Odur ki, minatəmizləmə fəaliyyəti haqqında dövlət siyasətinin hüquqi, iqtisadi, sosial və təşkilati əsaslarını müəyyənləşdirən bu qanun layihəsinin bu gün qarşımızda olması zamanın hökmüdür.

Bu qanunla bağlı düşüncələr başqa qənaətlər də doğurur. Bəzən görünən və görünməyən opponentlər hər hansı yeni sahəvi qanun layihələrinə qarşı olurlar ki, bu istiqamətdə ana qanun vardır və onsuz da bu və ya digər dərəcədə bu məsələləri də ehtiva edir. Ancaq təfərrüatlara varmadan, konkret nümunələr və izahatlar gətirmədən bildirmək istəyirəm ki, müəyyən sahələr üzrə detallara gedən, ayrıntıların qanuni zəminini əsaslandıran yeni qanunlara daim ehtiyac vardır.

Müxtəlif sahələrdə tənzimlənmənin ən düzgün yolu hansısa nizamnamələr və qaydalardan daha əvvəl müvafiq qanunvericilik təməlinin olmasıdır. Hüquqi dövlət quruculuğu, demokratik dəyərlərə sahiblənmə 3 illik, 5 illik deyil, uzunmüddətli prosesdir. Odur ki, sahəvi qanunların bolluğu bizi heç vaxt narahat etməməlidir, əksinə, bu səmtdə daim yaradıcı yanaşmanı tələb edir.

Minatəmizləmə fəaliyyəti haqqında qanun layihəsinin ayrı-ayrı müddəaları, xüsusən anlayışlar bölməsindəki müəyyən maddələrin definisiyası ilə bağlı mülahizələri, növbəti oxunuşa aid ayrı-ayrı qeydləri sonraya saxlayaraq bir daha vurğulamaq istəyirəm ki, müzakirələrini keçirərək qəbul edəcəyimiz bu qanun böyük Zəfərimiz haqqın-

da növbəti dəfə düşündürür.

Zəfərimiz milli tariximizin elə möhtəşəm və taleyüklü hadisəsidir ki, biz hər gün bu haqda düşünməli, dəfələrcə onun yüksək qiymətini verməli, bu səadəti bu millətə və yurda bağışlamış dövlətimizin fateh liderinə və bu yolda ona dayaq olmuş bütün qüvvələrə minnətdar olmalıyıq.

Bu qanun layihəsi də elə Zəfərdən sonrakı yolumuzun, böyük quruculuqlara aparan xəttimizin avand olması üçün daha bir zəruri addımdır.

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa. Buyurun.

**Fazil Mustafa.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Hər hansı bir qanun tez-tez təkrar olunan ictimai münasibətləri tənzimləyir. Biz Qarabağı işğaldan azad edəndən sonrakı dövrdə minatəmizləmə də tez-tez təkrarlanan ictimai münasibət kimi belə bir qanunun ortaya çıxmasına zərurət yaratdı. Mən hörmətli Arzu müəllimə təşəkkür edirəm. Çox yüksək səviyyədə bir qanun layihəsi hazırlanıbdır və burada təqdim olunubdur. Təbii ki, bu qanunu ikinci oxunuşda, üçüncü oxunuşda da elə təkmilləşdirməliyik ki, bu sahədə çalışan insanların həm hüquqlarının, vəzifələrinin, öhdəliklərinin, həm də müəyyən dərəcədə əməyinin qiymətləndirilməsinə şərait yarada bilsin.

Bu baxımdan, bildiyimiz kimi, minatəmizləmə sırf mülki fəaliyyətlə bağlıdır. Burada qeyd olundu, bunlara şəhid statusunun verilməsi. Əslində, bu fəaliyyət bizdə əvvəldən də var. Silahlı Qüvvələrin tərkibində minatəmizləmə ilə bağlı xüsusi bölmələr var. Bu bölmələrin də uzun illərdir böyük təcrübələri var. Onların da hər hansı bu prosesdə xəsarət almaları, hansısa bir şəkildə həlak olmaları şəhidlik kimi qiymətləndirilir. Ona görə də

mülki fəaliyyətlə hərbi fəaliyyəti, əslində, qarışdırmamalıyıq. Burada sırf mülki fəaliyyətdən söhbət gedir. O baxımdan da, hesab edirəm ki, biz bu sahədə birinci növbədə təhsil və ixtisaslaşma sahəsinə dövlət təşviqini artırmalıyıq. Çünki bu, elə bir riskli sahədir ki, hər adam burada hansısa bir şəkildə iş yeri tapmağa çox da maraq göstərmir, həyati risk tələb edən sahədir. Ona görə də biz təhsil müəssisələrində, bizim universitetlərdə hansısa formada ixtisaslaşma sahəsində dövlətin ayrıca təqaüdlərini, ayrıca təşviq mexanizmini də bu qanunda qeyd etməliyik ki, bu sahəyə yönəlmə müəyyən dərəcədə stimullaşdırılsın.

Digər tərəfdən, bu qanunda Azərbaycan Respublikasında minatəmizləmədən söhbət gedir. Bildiyiniz kimi, bizim bir sıra mandat almış nümayəndələr beynəlxalq səviyyədə, başqa ölkələrdə də bu prosesi həyata keçirir və ya keçirə bilərlər. Ona görə də bunu yalnız Azərbaycan Respublikasının ərazisi ilə məhdudlaşdırmağımız doğru deyil. Başqa ölkələrdə də bu fəaliyyəti həyata keçirən azərbaycanlı ixtisaslaşmış minatəmizləyənlərin də bu qanunun müəyyən əhatə dairəsinə daxil edilməsi faydalı olardı.

Ən başlıca məsələ isə birinci növbədə minatəmizləyənlərin sığorta məsələsinin həllinə aydın, anlaşıqlı bir münasibət bildirmək lazımdır. Bu qanunda digər bir məsələ zərərçəkmişlərin dəstəyi məsələsidir. Zərərçəkmişlərin dəstəyi məsələsində, məncə, maddi dəstəyi də qabartmaq lazımdır. Təkcə tibbi dəstəklə, psixoloji yardımla məsələ bitmir. Adamın müalicəsi var, müxtəlif proseslər üzrə reabilitasiya xərcləri var. Bunları da biz nəzərə almalıyıq.

Maliyyələşmə məsələsində, məncə, biz beynəlxalq humanitar məqsədyönlü qrantlar məsələsinə bir az diqqət

yetirməliyik. Bu, elə bir sahədir ki, siyasi məqsədli qrant verilməyəcək. Amma xarici ölkələrdə beynəlxalq fondlar var ki, bu sahəyə qrantlar ayıra bilirlər. Ona görə də biz qanunvericilikdə ümumi şəkildə qadağan olunmayan maliyyələşmə məsələlərini verə bilərik. Amma bir az bunu ayrıca vurğulamağımız lazımdır ki, buraya daha çox xarici qrantları cəlb etmək mümkün olsun.

Mən də güzəştli ipoteka məsələsinin burada yer almasının tərəfdarıyam. Çünki elə sahədir ki, burada bu insanlar mütləq müəyyən dərəcədə başqalarından fərqləndirici imtiyazlara sahib olmalıdırlar. Xüsusi ilə də mənzillə təminat məsələsində bu imkanı əldə etməlidirlər.

Bütövlükdə, mən bu qanun layihəsini olduqca aktual hesab edirəm və düşünürəm ki, bu layihə ilə biz həm də orada əziyyət çəkən insanların fəaliyyətini də qiymətləndiririk. Digər tərəfdən, bir sıra məsuliyyətsizlik məsələləri də var. Minatəmizləyənlərin hansısa günahı üzündən zərər çəkmiş şəxslərin xəsarət alması problemi də var. Ona görə də biz burada ayrıca bir bənddə həm zərərçəkmişlərin məsuliyyətini, həm də minatəmizləyənlərin məsuliyyətini göstərsək daha yaxşı olardı. Onların hansı vəzifələri daşıdığını burada ayrıca xatırlatsaq, qanun layihəsini daha da təkmilləşmiş formada təqdim edə bilərik. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Fazil müəllim. Sadiq Qurbanov. Buyurun.

**Sadiq Qurbanov.** Dəyərli Sahibə xanım, hörmətli həmkarlar. Əvvəla, deyim ki, qanun layihəsini dəstəkləyirəm, həmkarlarımı da dəstəkləməyə dəvət edirəm. Çünki önəmli bir qanundur.

Eyni zamanda, demək istəyirəm ki, Qafqazda sülhün

təmin olunmasında münaqişə tərəfləri arasında sülh sazişinin bağlanması nə qədər əhəmiyyət daşıyırsa, işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi də bir o qədər əhəmiyyət daşıyır. Bu həqiqəti Qafqazda sülh və sabitliyin gerçək tərəfdarı olan dövlətlər də unutmamalıdırlar. Bu gün Avropada, – bayaq burada deputat həmkarımız qeyd etdi, – Azərbaycanda insan hüquqları ilə əlaqədar müzakirələr başlayır. Mən bu barədə, Azərbaycanda insan hüquqlarının başqa dövlətlər tərəfindən necə pozulduğu ilə bağlı bir neçə məsələyə diqqət çəkmək istəyirəm.

İlkin qiymətləndirmələrə görə, Azərbaycan ərazilərində Ermənistanın torpaqlarımızda basdırdığı minaların sayı 1,5 milyondan artıqdır. Azərbaycanın 8235 kvadrat kilometrdən çox ərazisi mina və digər partlayıcı sursatlarla çirkləndirilib. 1991-ci ildən 2024-cü il oktyabrın 14-nə qədər olan statistikadır ki, 3400 nəfərdən çox insan mina qurbanıdır. Onlardan 359 nəfəri azyaşlı və gənc, 38 nəfəri qadındır.

İkinci Qarabağ müharibəsindən sonra, 2020-ci ilin noyabrından 2024-cü il oktyabrın 14-nə qədər isə mina qurbanlarının sayı 381 nəfər təşkil edib ki, bunun da 70 nəfəri həlak olub, 311 nəfəri xəsarət alıb. 198 nəfər mülki şəxs bunun qurbanıdır ki, onların da 55 nəfəri həlak olub. Hərbi qulluqçular 183 nəfər, 15 nəfəri isə həlak olub. Mina qurbanları olmuş mülki şəxslərin təsnifatına gəldikdə – infrastruktur işləri aparanlar 17 faiz, xidməti vəzifə aparanlar 24 faiz, kənd təsərrüfatı ilə məşğul olanlar 27 faiz təşkil edib. 32 faiz insan isə 30 il həsrətində olduğu dədə-baba torpaqlarına səfər edərkən mina qurbanı olmuşdur.

Rəsmi məlumatlara görə, Vətən müharibəsindən sonra Azərbaycanın 12 faizdən artıq ərazisi minalarla çirkləndirilib. Bayaq qeyd etdiyim kimi, 1,5 milyon mina olmaqla dünyada minaya görə ən çox çirklənmiş 5-ci ölkədir. İşğaldan azad edilmiş 1 milyon 166 min 702 hektar ərazidə minaların olması güman edilir ki, bunun da 211 min 800 hektarı yüksək və 954 min 902 hektarı orta səviyyəli çirklənməyə məruz qalıb.

Dəyərli Sahibə xanım, Siz bilirsiniz ki, Sizin razılığınızla və məsləhətinizlə biz VI çağırış zamanı bununla bağlı dinləmə keçirdik. Orada 15 diplomatik korpusun nümayəndəsi də dəvət olunmuşdu, iştirak etdilər. Bu məsələlərə aydınlıq gətirdik.

Vəsait ayrılması ilə bağlı Fazil müəllim də qeyd etdi. Mən demək istəyirəm ki, Qarabağda minatəmizləmə prosesinə indiyədək 349,1 milyon dollar vəsait xərclənib. Bu vəsaitin cəmi 16,1 milyonu beynəlxalq mənbələrdən daxil olub. Bu da onların bizə olan münasibəti. Azərbaycan hökuməti təkcə 2023-cü ildə dövlət büdcəsindən 110,2 milyon manat pul ayırmışdı. Bayaq da qeyd edildi və bu, uzun, 30 ilə qədər bir vaxt alacaq və 25 milyard ABŞ dolları lazım olacaq.

Bildiyiniz kimi, Azərbaycan humanitar minatəmizləmənin BMT-nin 18-ci Dayanıqlı İnkişaf Məqsədi olmasını və Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılmasını təklif edib. Həmfikirlər qrupunun yaradılması istiqamətində Qoşulmama Hərəkatında sədrlik etdiyi müddətdə fəaliyyət göstərib. Bildiyiniz kimi, Dayanıqlı İnkişaf Məqsədləri və minatəmizləmə fəaliyyəti arasında birbaşa əlaqə mövcuddur. Mina təhlükəsi ilə mübarizədə BMT-nin 17 Dayanıqlı

İnkişaf Məqsədinin 12-si birbaşa, 5-i isə dolayısı ilə minatəmizləmə məqsədləri ilə uzlaşır.

İşğaldan azad edilmiş ərazilərdə mövcud olan bir milyondan çox "ölüm toxumu" insanların həyatına, eyni zamanda, flora və faunaya, nadir heyvanlara və endemik bitkilərə ciddi təhdidlər yaradır ki, bu da, eyni zamanda, zəngin torpaqları çirkləndirməklə ekologiyamıza külli miqdarda ziyan vurur.

Bu gün də Azərbaycan dünyanı narahat edən ekoloji problemlərin həlli ilə məşğuldur, bəşəri dəyərlərə sadiqliyini nümayiş etdirir. Onu da qeyd edək ki, COP29 ilə bağlı Azərbaycan 14 təklif irəli sürüb...

**Sədrlik edən.** Sadiq müəllim, çox sağ olun, Siz rəsmi məlumatları bizə bir daha xatırlatdınız. Ayrı bir fikriniz, konseptual baxımdan təklifiniz varmı, yoxmu? Qanun layihəsinə səs verəcəksiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun. Hamımız reqlamentə riayət etmək məcburiyyətindəyik.

Tahir Rzayev. Buyurun, Tahir müəllim.

**Tahir Rzayev.** Çox sağ olun. Hörmətli sədr, hörmətli həmkarlar, minatəmizləmə fəaliyyəti sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, norma və qaydalara, tələblərə düzgün əməl edilməsi, maarifləndirilmənin genişləndirilməsi günümüzün reallıqlarından irəli gəlir. Çünki mənfur erməni təcavüzkarları tərəfindən işğal olunmuş ərazilərimiz, demək olar ki, tamamilə minalanmışdır.

Bir milyon yarımdan çox partlayıcı sursatın basdırıldığı ərazilərdə müharibədən sonra 381 nəfər insanın həlak olması, yaralanması, sağlamlığını itirməsi və bundan sonra da bu halların baş verəcəyini nəzərə alsaq, hadisələr Mina-

təmizləmə fəaliyyəti haqqında Azərbaycan Respublikası qanununun qəbul olunmasını zərurətə çevirir.

Mina əleyhinə fəaliyyət ilk növbədə əhalinin və dövlətin təhlükəsizliyinin təmin edilməsi, iqtisadi, sosial və ekoloji inkişaf üçün şərait yaradılması baxımından əhəmiyyətlidir.

Azərbaycan dövlətinin öz vətəndaşları üçün təhlükəsiz həyat şəraiti yaratmaq, onları qorumaq səyləri bu qanun layihəsində də aydın əksini tapmışdır və mina əleyhinə fəaliyyət sahəsində dövlət siyasətinin istiqamətləri layihədə aydın ifadə edilmişdir.

Dövlətimizin siyasəti hər birimizə aydındır. Çox təəssüflər olsun ki, biz beynəlxalq təşkilatların, insan hüquqlarından, təhlükəsiz normal həyatdan bol-bol danışan bir çox ölkələrin bu sahədə ölkəmizə dəstəyinin aydın nəticələrini görmürük. Qərb və Avropa ölkələrinin əksəriyyəti işğal və müharibə dövründə ərazilərimizə basdırılmış külli miqdarda partlayıcı sursatın canlar almasından narahat deyillər. Bu sahədə köməklikləri kənara qoyaq, heç insanların tələfatına, erməni təcavüzkarlarının çirkin əməllərinə belə münasibət bildirmirlər. Əksinə, onlar Ermənistanı silahlandırır, onlara hərbi sursatlar, minalar göndərirlər ki, yenidən müharibə şəraiti yaratsınlar, torpaqlarımızı minalasınlar, sularımızı zəhərləsinlər, meşələrimizi qırıb, şəhər və kəndlərimizi viran qoysunlar.

Erməni işğalçılarının minaladıqları ərazilərdə indi möhtəşəm bərpa, quruculuq, inşa işləri həyata keçirilir. Azərbaycanlı energetiklər günəş elektrik stansiyaları inşa edirlər, ətraf mühiti qoruyurlar, "yaşıl dünya" yaradırlar. Güclü Azərbaycan öz torpaqlarını minalardan təmizləyəcək və dövlətimiz öz təhlükəsizliyini təmin etməyə

qadirdir. ANAMA-nın, təhlükəsizlik, müdafiə, sərhəd xidməti orqanlarının bu sahədəki fəaliyyəti uğurludur və qiymətləndirilməyə layiqdir.

Sözsüz ki, bu qanunun qəbulu minatəmizləmə fəaliyyətinin genişləndirilməsi üçün yeni imkanlar yaradacaqdır. Hər bir vətəndaş da bu sahədə öz vəzifəsini qiymətləndirməlidir.

Qanun layihəsində zərərçəkmişlərə dəstək tədbirlərinin yer alması və genişləndirilməsi hər birimizi düşündürür. Xüsusi ilə minatəmizləmə fəaliyyəti ilə məşğul olan və zərər çəkən insanlara dəstək gücləndirilməlidir. Onlara maddi və psixoloji yardım artırılmalı, zərərçəkənlərin əlilliyi tez bir zamanda təyin edilməli, onlar diqqətdən kənar qalmamalıdırlar. Bu, çox vacib bir məsələdir.

Qanun layihəsi mükəmməl hazırlanmışdır. Səs verəcəyəm və qəbul olunmasına səs verməyi həmkarlarımdan xahiş edirəm. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Sahib Alıyev. Buyurun, Sahib müəllim.

**Sahib Alıyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, dəyərli həmkarlar. Xatırladım ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev 2023-cü il martın 2-də Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Bakıda keçirilən Zirvə görüşündə minatəmizləmənin BMT-nin 18-ci Dayanıqlı İnkişaf Məqsədi olması təşəbbüsünü irəli sürmüşdü. Bundan öncə, 2021-ci ilin sentyabrında minatəmizləmə fəaliyyəti ilə bağlı cənab Prezidentin fərmanı olmuşdu. Bu qanun isə Minatəmizləmə üzrə Cenevrə Beynəlxalq Mərkəzinin standartları əsasında mina əleyhinə dövlət siyasətinin təhlükəsiz və səmərəli təşkilinin hüquqi bazasını yaradır. Səhv etmirəm-

sə, Xorvatiyadan sonra Azərbaycan ikinci dövlətdir ki, Avrasiyada belə bir qanunvericilik aktı ilə çıxış edir. Yəni bu, gələcəkdə digər ölkələr üçün də model qanun rolunda çıxış edə bilər. Əlbəttə ki, biz istəmirik, böyük bacısının Əlcəzairdəki vəhşi təcrübəsindən ruhlanaraq Azərbaycan torpaqlarında bir neçə yerdə mina "cəngəllik"ləri əkən Ermənistan qarışıq heç bir dövlətin buna ehtiyacı olsun. Amma bunun üçün beynəlxalq birlik BMT başda olmaqla mina terroru ilə bağlı prinsipiallıq göstərməlidir, qətiyyətli mövqe ortaya qoymalıdır. Çox təəssüf, Azərbaycana yanaşmada biz bunu görmürük.

Baxın, burada söhbət getdi ki, Avropa Parlamentində bu gün, özü də BRICS sammiti keçirilən bir vaxtda Azərbaycan əleyhinə qətnamə hazırlanır. Guya Azərbaycan beynəlxalq hüququ pozur. Bununla bağlı da həmin qətnamənin adından göründüyü kimi, hansısa bir maddə olacaqdır. Azərbaycan hansı beynəlxalq hüququ pozub? Əgər Avropa parlamentariləri məsuliyyətli olsaydılar, onlar ilk növbədə məhz bu mina terroru ilə bağlı Ermənistana səslənərək mina xəritələrini verməyə çağırardılar. Bu cür təcrübənin gələcəkdə olmaması üçün Ermənistana qarşı sanksiya çağırışı ilə çıxış edərdilər. Amma təəssüf ki, biz bunu görmürük. Biz nə görürük? Avropa Birliyinə üzv dövlətlər indiyə kimi minatəmizləmə ilə bağlı Azərbaycana cəmi 1 milyon 750 min avro yardım ediblər. Gələcəkdə 2 milyon 750 mindir, ya 950 mindir, yardım etməyi planlaşdırırlar. Bu, "Sülh fondu"nun Ermənistana 10 milyonluq yardımı qarşısında edilib. Bu yardımın da nəyə yönəldiyi kimsəyə sirr deyil.

Amerika Birləşmiş Ştatları, USAID təşkilatı Ermənistana silahlanması üçün 250 milyon dollar vəsait ayırdığı

halda, Azərbaycana minatəmizlənməsinə ayırdığı vəsait heç 40 milyon dolları da keçmir. Biz başa düşürük, bu, niyə belədir. Cənab Baydenin dünənki məktubunda da vurğulanır ki, Azərbaycanla Ermənistan arasında "əsrlərdir davam edən münaqişə". "Əsrlərdir davam edən münaqişə" deyəndə nə nəzərdə tutulur? Bəlkə 19-cu əsrin 30-cu illərində Amerikadan Osmanlıya göndərilən protestant missionerlərlə başladılan qarşıdurma nəzərdə tutulur? Bəlkə "əsrlərdir davam edən münaqişə" deyəndə 1878-ci ildə Berlin Konqresində hay məsələsi qaldırılarkən olan məntiqdən çıxış edirlər?

Əlbəttə, bu cür hallara son qoyulmalıdır və dünya mina terrorunu lənətləməlidir, ən azından ona görə ki, 1991-ci ildən üzü bəri Azərbaycanda mina terrorundan 3500 insan həyatını itirib. İkinci Qarabağ savaşından sonra belələrinin sayı 380-ni keçib. Buna yol verilməli deyil. Mən bu qanunvericilik aktına səs verəcəyəm.

**Sədrlik edən.** Sağ olun. Fatma Yıldırım. Buyurun, Fatma xanım.

**Fatma Yıldırım.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Biz bu gün çox aktual bir qanun layihəsini müzakirə edirik. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etdikdən sonra qarşımızda böyük çağırışlar dayanır. Bu çağırışların əsaslarından biri 30 il erməni işğalında olmuş və bu illər ərzində vəhşicəsinə dağıdılmış, talan edilmiş yurdlarımızı bərpa etmək, həmin torpaqlara həyatı yenidən qaytarmaqdır. Artıq o torpaqlara həyat qayıdır, insanlar doğma yurdlarına dönürlər.

Ötən dövrdə reallaşdırılan layihələr onu deməyə əsas

verir ki, respublikamız işğaldan azad olunmuş ərazilərin bərpası, soydaşlarımızın məskunlaşdırılması ilə bağlı qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlir. Lakin Ermənistanın 30 il ərzində törətdiyi cinayətlər sırasında ərazilərimizin kütləvi minalanması hələ də ən böyük təhdidlərdən biridir. Vətən müharibəsi başa çatdıqdan sonra 380 nəfərdən çox vətəndaşımız mina terrorunun qurbanı olmuş və bu bizi çox narahat edir, əlbəttə ki, üzür.

Hörmətli həmkarlar, Ermənistan ölkəmizə minalanmış ərazilərin qeyri-dəqiq xəritəsini verib, bu xəritələrin dəqiqliyi cəmi 25 faizdir. Əsas məqsədlərdən biri işğaldan azad olunmuş ərazilərdə dinc həyatın bərpasına, insanların öz yurdlarına qayıtmasına mane olmaq, bölgədə hərbi gərginliyin aradan qalxmasına imkan verməməkdir.

Biz bilirik ki, dövlət tərəfindən minatəmizləmə sahəsində böyük işlər görülür. Bu işlərlə məşğul olan şəxslər, həqiqətən də, qəhrəman, fədakar və qorxmaz insanlardır. Çünki onlar doğma Qarabağımızı və Şərqi Zəngəzuru mina terrorundan təmizləmək üçün öz canlarını təhlükəyə atıblar.

Hesab edirəm ki, müzakirə etdiyimiz qanun minatəmizləmə sahəsində görülən işlərin daha da təkmilləşməsinə, bu işlərin sürətlənməsinə öz töhfəsini verəcəkdir.

Hörmətli millət vəkilləri, bu gün Azərbaycanda minatəmizləmə fəaliyyəti dünyada mövcud olan ən müasir və qabaqcıl texnologiyalardan istifadə etməklə həyata keçirilir. Minatəmizləmə fəaliyyətimizin mütləq hissəsi ölkəmizin daxili resursları hesabına aparılır. Xaricdən gələn dəstəyin həcmi isə hələ ki, çox məhduddur. Biz ərazilərimizin minalardan təmizlənməsi işində beynəlxalq təşkilatlardan daha fəal dəstək gözləyirik. Eyni zamanda,

beynəlxalq təşkilatlar, ayrı-ayrı ölkələrin parlamentləri, insan haqlarının müdafiəsi ilə məşğul olan qurumlar Azərbaycana qarşı davam etdirilən mina terroruna biganə qalmamalıdırlar, Ermənistanın bu cinayətkar əməllərini pisləməlidirlər.

Nəzərə almalıyıq ki, silahların, o cümlədən minaların tərkibi toksinlərlə, zəhərləyici maddələrlə çox zəngindir. Təbii ki, bu amil ekologiyaya çox ciddi ziyan vurur. Bütün silahların, o cümlədən minaların tərkibindəki maddələr torpağa və suya zərər verir, biosferamızı çirkləndirir. Yəni mina problemi təkcə bu günümüz üçün deyil, gələcəyimiz üçün də təhdiddir.

Azərbaycan hər zaman sülhün tərəfdarı olub, bu gün də sülh tərəfdarıdır. Amma Ermənistan törətdiyi bu dəhşətli cinayətlərə görə cavab verməlidir. İnanırıq ki, belə də olacaq.

Mən çıxışımın sonunda qanun layihəsinə səs verəcəyimi, mina axtaranlarımızla qürur duyduğumu bildirmək istəyirəm. Onlara olduqca çətin, amma şərəfli işlərində uğurlar arzulayıram. Həmkarlarımızı da layihəni dəstəkləməyə dəvət edirəm. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli Əli müəllimin sözü var idi. Buyurun. Əli Əhmədov.

**Əli Əhmədov.** Təşəkkür edirəm. Mən sizin vaxtınızı çox almaq istəmirəm. Mən, sadəcə olaraq, komitənin sədrinə bir təklifimi bildirmək istəyirəm, bilmirəm, o qəbul olunacaq, yoxsa olunmayacaq.

Çıxışlarda minatəmizləmə sahəsində beynəlxalq əməkdaşlıq istiqamətində fikirlər səsləndirildi. Təbii ki, dünyada, müxtəlif ölkələrin ərazisində 70 milyondan çox mina yerləşdirilibdir və minatəmizləmə sahəsi beynəlxalq səviyyədə əməkdaşlığı tələb edən ən ciddi işlərdən birinə çevrilib.

Hesab edirəm ki, bu qanun layihəsində dövlətin minatəmizləmə sahəsində siyasətinin istiqamətlərindən biri kimi beynəlxalq əməkdaşlığın həyata keçirilməsinə baxmaq olar. Bu, Azərbaycana minatəmizləmə siyasətinin və işlərinin həyata keçirilməsi üçün vəsaitin cəlb edilməsinə imkanlar yaradır və təbii ki, Azərbaycanda artıq bu sahədə təcrübə formalaşır. Dünyanın kifayət qədər zəif iqtisadiyyatlı ölkələri var ki, onların da minatəmizləmə ilə əlaqədar digər ölkələrin köməyinə ehtiyacı var. Azərbaycan bu istiqamətdə bu qanunun verdiyi imkanlar çərçivəsində fəaliyyət göstərə bilər.

Əgər mümkündürsə, xahiş edirəm, onu nəzərə alasınız. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, təklif var, səsə qoyulsun. 4 nəfər qalıb, təkid edən yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur. Mən sizə dedim ki, biz qanun layihələrini bir-bir səsə qoyacağıq. İndi 8-ci məsələdə olan qanun layihəsini səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İndi isə 9-cu məsələdə olan qanun layihəsinə münasibət

bildirək. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, fasilə elan edilir. Saat 3-də işimizə davam edəcəyik.

## *(FASİLƏDƏN SONRA)*

**Sədrlik edən.** İşimizi davam etdirək. Biz gündəliyin 9 məsələsinə baxdıq, müzakirə etdik. İndi 10-cu məsələyə keçirik və bu, "Qrant haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, Azər müəllim, mən Sizə söz verirəm, xahiş edirəm, məlumat verin.

**Azər Əmiraslanov.** Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. Müzakirəyə çıxarılan bu layihə yerli özünüidarəetmə institutu kimi bələdiyyələrin potensialının maliyyə əsaslarının gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bələdiyyələr yerli büdcələr hesabına maliyyələşir. Onlara dövlət tərəfindən büdcədən dotasiya verilir. Əgər onların gəlir və xərclərinin tənzimlənməsi

zərurəti yaranarsa, eyni zamanda, dövlət büdcəsindən subvensiyalar ayrılır. Əgər bələdiyyələrin konkret layihələri varsa, ehtiyac olduğu halda, büdcədən ssuda ayrılması imkanları da nəzərdə tutula bilər.

Layihə bələdiyyələrin maliyyə resurslarına çıxış imkanlarını artırır, onun mənbələrini bir növ şaxələndirir. Bu layihədə, belə demək mümkündürsə, bələdiyyələrin müxtəlif istiqamətlər üzrə, əsasən də, sosial-iqtisadi tədbirlərinin maliyyələşdirilməsi imkanları yaranır. Burada yenə də qrant müqaviləsi əsas götürülür və birmənalı şəkildə qeyd olunur ki, bələdiyyələrə münasibətdə qrant verilməsində donor məhz Azərbaycan Respublikası dövlətidir. Qanun layihəsində bələdiyyələr qrant üzrə resipiyent kimi təsbit olunur.

Ümumiyyətlə, müzakirə etdiyimiz qanun layihəsi ilə bələdiyyələrə dövlət tərəfindən qrant verilməsi üçün konkret, aydın və birbaşa hüquqi əsaslar yaradılır. Mən deyərdim ki, hüquqi müəyyənlik yaranır. Sual oluna bilər ki, indiyə kimi bələdiyyələrə dövlət qrantlarının verilməsi üçün hüquqi əsaslar olub, yoxsa olmayıb?

Hörmətli xanım sədr, komitə sədrləri ilə keçirilən görüşdə Siz də bu sualı ünvanladınız və biz bunu əsaslı hesab edirik. Çünki, əslində, "Qrant haqqında" Qanunda dövlət tərəfindən hüquqi şəxslərə qrant verilməsi nəzərdə tutulubdur və bələdiyyələr özü də hüquqi şəxslər hesab olunur. Sadəcə, burada tamamlanmalı, müəyyənləşdirilməli bir məqam var. Bu da ondan ibarətdir ki, hüquqi şəxslərin 3 növü var. Kommersiya, qeyri-kommersiya hüquqi şəxslər və bir də publik hüquqi şəxslər. Bələdiyyələr bu hüquqi şəxslərin heç bir növünə aid deyil və gələcəkdə bələdiyyələrə qrant verilməsi zamanı burada qrant münasi-

bətlərinin tənzimlənməsi və prosesin reqlamentləşdirilməsi üçün hüquqi əsaslar yaradılmalıdır. Məhz bu zərurətdən irəli gələrək bələdiyyələrə qrantların verilməsi qanunvericilikdə, "Qrant haqqında" Qanunda nəzərdə tutulub və gələcəkdə bələdiyyələrə qrant verilməsindən sonra bununla bağlı xüsusi müvafiq qaydaların hazırlanması planlaşdırılır. Qanunvericiliyə belə bir dəyişiklik də həmin qaydalar üçün indidən hüquqi əsaslar yaradır.

Bu layihə birinci oxunuş üçün komitədə müzakirə edilib və hörmətli həmkarlarımızdan birinci oxunuşda səs vermələrini xahiş edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Mən məsələni qaldırdım ki, burada həmin məsələ ilə bağlı suallar ola bilər, öz məlumatınızda onu nəzərə alasınız.

Siyavuş Novruzov. Siyavuş müəllim, buyurun. Əslində, sizin komitənizin məsələlərinə aiddir.

**Siyavuş Novruzov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, qanun layihəsi təqdirəlayiqdir və konseptual baxımdan yaxşı hazırlanmışdır. Amma müəyyən detallar var ki, bunların da gələcəkdə nəzərə alınması vacib məsələlərdən biridir. Qrantlara qədər bələdiyyələrin dövlət tərəfindən dotasiya və subvensiya alması nəzərdə tutulmuşdu. 2024-cü ildə bələdiyyələr birlikdə təxminən 8 milyona yaxın dotasiya və subvensiya alıb, bundan da istifadə olunubdur.

Amma burada bir nüans ortaya çıxır. Verilən dotasiyaların və subvensiyaların ünvanlılığı. "Qrant haqqında" Qanunda da bu ünvanlılıq göstərilir ki, sosial layihələrə sərf olunmalıdır. Təbii ki, adından çox gözəl görünür, "sosial layihə". Yəni sosial layihələrin həyata keçirilməsi. Bələdiyyənin sosial layihəsi nədir? Uşaq futbol meydança-

ları, nümunəvi həyətlərin düzəldilməsi, yaşıllıqların salınması, ağacların əkilməsi. Amma buna digər tərəfdən baxanda bu, bələdiyyələrin özünə də xeyir yox, ziyan gətirəcək. Niyə? Çünki bunu saxlamaq lazımdır. Bax, bunun saxlanması üçün vəsait tələb olunur. Bir meydança tikilir, təhvil verilir, aydındır. O meydançaya ayrılan vəsait müəyyən olunur və yaxud əkilmiş ağaclara qulluq etmək üçün işçi tutulmalıdır, onun suyu var, digər məsələlər var, bunlar həll olunmalıdır. O baxımdan orada biz bir əlavə etməliyik ki, həm sosial, həm də iqtisadi layihələr.

Tutalım ki, bələdiyyə verilən o qrant layihəsini təqdim edib bir çörək sexi açırsa, o da insanlara, vətəndaşlara xidmətdir. O çörək sexindən götürdüyü gəlirləri digər sahələrə yönəldirsə, tutalım ki, yolların təmirinə, həmin meydançaların bərpasına və yaxud həyətlərin bərpasına, bu, uyğun gəlir. Bu o qrantı götürür və qrantı da ancaq, tutalım ki, bir layihənin həyata keçməsinə sərf edir və sonradan bu layihənin daimi olması üçün vəsait tələb olunanda bələdiyyənin o gücü yoxdur, ora vəsait sərf etsin. O baxımdan da indi ikinci oxunuşun tələblərinə uyğun olaraq, fikirləşirəm ki, gələcəkdə biz bu məsələyə diqqət yetirməliyik.

Bax, bizdə digər dövlət strukturları var ki, bu gün, məsələn, bunlar olimpiya kompleksləri, ayrı-ayrı federasiyalar hesabına yaşayırlar, orada idman tədbiri keçirir, müəyyən vəsait ödəyirlər və bunun hesabına üzgüçülük hovuzu da, idman qrupları da var və hər biri də vəsait ödəyir. O vəsaitin hesabına saxlanılır, inkişaf etdirilir. Əgər bələdiyyədə belə vəsait ödənişi olmasa, onun aldığı qrant da, dotasiya da, demək olar ki, çox çətinlik yaradır.

Çünki o dotasiyadan o, nə əməkhaqqı kimi istifadə edə, nə də digər xərclərə sərf edə bilir. Layihəsində konkret olaraq göstərməlidir ki, bu, nəyə sərf olunur.

Son vaxtlar bizim təcrübəmiz də göstərir ki, ancaq parklar, uşaq futbol meydançaları salınmalıdır və sair. O baxımdan Azər müəllimdən xahiş edirik, iqtisadi layihələrə də qrant verilsə, demək olar ki, bu, layihəni tamamlayar. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Siyavuş müəllim. Siz təklif də verdiniz, ancaq Sizin çıxışınızda bir sözü heç qəbul edə bilmirəm. Dediniz, qrant ziyandır. Qrant niyə ziyan olur? Dövlət, hökumət bu qədər iş görür. Dediniz ki, bu, ziyandır. Gəlin o “ziyan” sözünü Sizin çıxışınızdan çıxaraq. Mən düşünürəm ki, onda düzgün olar. Məlahət İbrahimqızı. Məlahət xanım, buyurun.

**Məlahət İbrahimqızı**. Çox sağ olun, xanım sədr. Mən də bu gün müzakirəmizə təqdim olunmuş “Qrant haqqında” Azərbaycan Respublikasının Qanunundakı dəyişiklikləri, təbii ki, dəstəkləyəcəm, səs verəcəyəm, həmkarlarımızı da səs verməyə çağırıram. Bir halda ki, bu qanunla bağlı dəyişikliklər müzakirəmizdədir, bu qanun haqqında söhbət gedir, bu gün hər birimiz bilirik ki, ümumiyyətlə, dünyada və xüsusi ilə də bölgəmizdə çox ciddi geosiyasi proseslər gedir və son illərdə Azərbaycana qarşı aparılan bu təbliğat, qara piar, saxta məlumatlar və sair var. Bütün bunların fonunda, eyni zamanda, xarici fondlar, xüsusi ilə də Amerika Birləşmiş Ştatları və Brüsseldən dəstəklənən maliyyə fondları Azərbaycanın içində yenə də müəyyən antimilli qüvvələrə mülki müqavilə əsasında qrantlar verir. Quru sərhədlər, yəni dəmir yolu və nəqliyyat yolu açıq olarkən, bilirik ki,

hüquq mühafizə orqanları dəfələrcə bu təşkilatları ifşa etmişdir. Onlar bu qrantları qonşu respublika olan Gürcüstandan nağd formada alırdılar və Azərbaycan milli dövlətçiliyinə təhlükə ola biləcək müəyyən layihələr həyata keçirirdilər. Amma bu gün baxmayaraq ki, pandemiya ilə bağlı ölkədə hələ də müəyyən karantin qaydaları tətbiq olunur, amma yenə də bu antimilli qüvvələr, bir neçə təşkilat, qeyri-hökumət təşkilatları mülki müqavilə əsasında qrantlar alırlar. Bu, bir reallıqdır. Yəni müvafiq qurumlar onu mətbuatda da veriblər.

Bu gün Azərbaycana qarşı təhdidlərdən biri də ölkəmizdə, xüsusi ilə də bölgələrdə qadın və uşaqlarla bağlı sığınacaqların, yəni dövlətin nəzarətində olmayan sığınacaqların açılması ilə bağlı mülki müqavilə əsasında verilən qrantlardır. Bu isə Azərbaycanın ailə institutuna ciddi təhlükə yaradır. Ona görə mən çox hörmətli Azər müəllimdən xahiş edərdim ki, "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununa təkrar baxılsın və burada ola biləcək boşluqlar, mən elə xüsusi vurğulayıram, mülki müqavilə ilə bağlı daha ciddi təkmilləşdirilmələr aparılsın. Çünki elə bir neçə gün bundan qabaq Moldovanın müstəqilliyinə, necə deyərlər, təhdid kimi Avropadan olan bir sıra siyasi qruplar tərəfindən Kiyevdə baş verən proseslərin təkrarlanması, eləcə də bu gün Gürcüstanda baş verən seçkiqabağı proseslər Azərbaycan üçün də, təbii ki, gələcəkdə hansı isə təhlükə törədə bilər. Ona görə bu Qanuna, eləcə də "Qeyri-hökumət təşkilatları haqqında" Qanuna yenidən baxmağımız çox yaxşı olardı. Çox sağ olun, təşəkkür edirəm. Qanuna səs verəcəyəm.

**Sədrlik edən.** Sağ olun. Aydın Mirzəzadə. Buyurun.

**Aydın Mirzəzadə**. Təşəkkür edirəm, xanım sədr.

Qanunda edilən dəyişiklikləri dəstəkləyirəm, hesab edirəm ki, bu dəyişikliklər bələdiyyələrin nüfuzunun artması, fəaliyyətləri üçün geniş şərait yaradır, onların maliyyə imkanları çərçivəsini genişləndirir. Biz hamımız bələdiyyələrin güclü olmasında, eyni zamanda, vətəndaşlar üçün böyük işlər, layihələr həyata keçirməsində maraqlıyıq. Amma çox təəssüf ki, yalnız vergi yığımı ilə bunları həyata keçirmək mümkün olmur. "Bələdiyyələrin statusu haqqında" Qanunda bələdiyyələrin uşaq bağçası, məktəb, eyni zamanda, müəyyən təsərrüfat subyektləri açmasına icazə verilir. Amma hələ ki, Azərbaycanda bu nümunə yoxdur. Niyə də olmasın? Qoy kiçik, mobil, belə deyək, sosial obyektlər bələdiyyələrin ixtiyarında olsun. Eyni zamanda, bu, çox uğurlu bir biznes layihəsi kimi özünü göstərsin.

Şübhəsiz ki, burada maliyyə imkanları böyük rol oynayır. Azər Əmiraslanovun əlavə izahatı oldu ki, bu, sadəcə, pul ayrılması mexanizmi deyil, eyni zamanda, bunun alınması, xərclənməsi ilə bağlı hüquqi mexanizm hazırlanır, mən bununla tamamilə razıyam. Hesab edirəm ki, bələdiyyələrin nəyə getdikləri və nə cür etdikləri barəsində əvvəldən hüquqi anlayışları olsun. Amma bununla belə, hesab edirəm ki, həmin o hüquqi mexanizm çox ağır olmamalıdır. Elə bir şərait yarana bilər ki, dövlət qrant ayırır və bələdiyyələrə təklif edir. Amma şərtlər o qədər ağır və yaxud anlaşılmaz olur, bələdiyyələr onu götürməyə ehtiyat edirlər ki, sonradan bununla bağlı başağrısı olmasın.

Ancaq bununla belə, hesab edirəm ki, bizim artıq kifayət qədər bələdiyyə təcrübəmiz var, xarici təcrübə var və bələdiyyələrin qrant almaq imkanının genişləndirilməsi bələdiyyələrin daha geniş fəaliyyət göstərməsinə şərait

yaradacaqdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 15.16 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. 11-ci məsələmizdir. Bu, "Daşınar əmlakın yüklülüyü haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də, Azər müəllim, sizin komitənizdə baxılıb. Xahiş edirəm, məlumat verin. Buyurun.

**Azər Əmiraslanov**. Hörmətli xanım sədr, təqdim olunan layihə komitədə müzakirə edilmişdir. "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci maddəsi ilə daşınar əmlakın yüklülüyü ilə bağlı dövlət reyestrinin aparılması zamanı reyestrə daxil edilən bildirişdəki məlumatların dairəsi təsbit edilmişdir. Təklif edilən qanun layihəsi həmin məlumatların sırasına daşınar əmlakın seriya nömrəsinin əlavə edilməsinin də hüquqi əsaslarını yaradır. Bu məlumatın reyestrə daxil edilməsi yüklülüyün predmetini təşkil edən əmlakın identifikasiyasını asanlaşdıracaq, bildirişlər üzrə daha çevik axtarışın aparılmasını və reyestrdən çıxarışların

verilməsini təmin edəcəkdir.

Əgər daha konkret şəkildə desək, ümumiyyətlə, daşınar əmlakın yüklülüyünün dövlət reyestri sistemi var. Bu dövlət reyestri yüklülük məlumatları üzrə dövlət informasiya sistemi adlanır və bu dövlət reyestrinə yüklülük haqqında bildiriş daxil edilir. Bu qanun layihəsinə görə bildirişin əsas məlumatlarından biri daşınar əmlakın seriya nömrəsidir və bu seriya nömrəsinin bir əlavə məlumat kimi daxil edilməsi gələcəkdə daşınar əmlakın yüklülüyü ilə bağlı bütün tərəflərin zəruri olan məlumatları əldə etməsinə imkan yaradacaqdır. Qanun layihəsi birinci oxunuş üçün təqdim olunur və hörmətli həmkarlarımızdan bu layihənin dəstəklənməsi xahiş olunur. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Azər müəllim. Çıxış etmək istəyən yoxdur və mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 15.18 dəq.) |
| --- | --- |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. Bu, "Arbitraj haqqında" Qanunun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə

dair məlumat vermək üçün hörmətli Kamran Bayramova söz verirəm. Kamran müəllim, buyurun.

**Kamran Bayramov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. “Arbitraj haqqında” 2023-cü il 26 dekabr tarixli Azərbaycan Respublikası Qanununun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim olunub. 5 məcəllədə və 6 qanunda dəyişikliklərin edilməsini, həmin məcəllə və qanunların yeni qəbul olunmuş qanuna uyğunlaşdırılmasını nəzərdə tutur. Edilməsi nəzərdə tutulan dəyişikliklər “Arbitraj haqqında” Qanunun qəbulu ilə əlaqədar yerli arbitraj institutunun yenidən formalaşdırılması, beynəlxalq və daxili arbitrajın həyata keçirilməsi ilə bağlı münasibətlərin tənzimlənməsi, arbitraj vasitəsi ilə həll olunan mübahisələrə dair qərarların dövlət tərəfindən tanınması və icrası üçün yeni mexanizmin yaradılması məsələlərinin qanunvericiliklə tənzimlənməsi zərurətindən irəli gəlir. Hörmətli həmkarları qanun layihəsinə birinci oxunuşda səs verməyə çağırırıq.

**Sədrlik edən.** Çox sağ olun, Kamran müəllim. Hörmətli həmkarlar, bu qanun layihəsinə daha 3 komitədə baxılıb. Onlardan birincisi Əmək və sosial siyasət komitəsidir. Musa müəllim, xahiş edirəm, Siz komitənin rəyini bildirin.

**Musa Quliyev**. Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Dəyişiklik Əmək Məcəlləsində təklif olunur. “Arbitraj haqqında” Qanuna uyğunlaşma xarakteri daşıyır. Dəyişikliyin mahiyyəti ondan ibarətdir

ki, Əmək Məcəlləsinin mətnindən "münsiflər" termini çıxarılır və "münsiflər məhkəməsi" termini "arbitraj məhkəməsi" termini ilə əvəz olunur. Layihə komitədə müzakirə olunmuşdur. İrad və təklifimiz yoxdur, komitənin rəyi müsbətdir. Səsə qoymağınızı xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. İkinci komitə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsidir. Azər müəllim, xahiş edirəm, Siz də komitənin rəyini bildirin.

**Azər Əmiraslanov**. Xanım sədr, layihə ilə bağlı əlavə təklifimiz, qeydimiz yoxdur. Səsə qoyulmasını xahiş edirik. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Üçüncü komitə Gənclər və idman komitəsidir. Hörmətli Şahin İsmayılov, xahiş edirəm, komitənin rəyini bildirin.

**Şahin İsmayılov,** *Milli Məclisin Gənclər və idman komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, əziz həmkarlar. Komitənin rəyi müsbətdir, səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun. Yazılanlar yoxdur. Mən qanun layihəsini səsə qoyuram, münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 15.22 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələ "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılmışdır. Arzu müəllim, özünüz məlumat verəcəksiniz, buyurun.

**Arzu Nağıyev.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Təqdim edilən qanun layihəsi "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında hərbi qulluqçuların təhsili ilə bağlı normaların təkmilləşdirilməsi məqsədi ilə hazırlanmışdır. Təklif olunan dəyişikliklərə əsasən layihənin müxtəlif maddələrində "və ya orta ixtisas təhsili" sözləri əlavə edilir. Qeyd olunan dəyişikliklərin əsas məqsədi ölkədə hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrinin sayının artırılması və həmin təhsil pilləsinin təkmilləşdirilməsi hesab olunur.

Belə ki, "Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanının birinci hissəsinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə Müdafiə Nazirliyinin strukturlarına daxil olan Milli Müdafiə Universitetinin tabeliyində hərbi qulluqçu hazırlayan 3 xüsusi təyinatlı orta təhsil müəssisəsi – Bakı Hərbi Kolleci, Gəncə Hərbi Kolleci və Naxçıvan Hərbi Kolleci yaradılmışdır. Təklif olunan dəyişikliklərə uyğun olaraq, müvəffəqiyyət qazanmayan,

eyni zamanda, təhsilini davam etdirmək istəməyən və ya intizamsızlığa görə hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil müəssisələrindən xaric edilən kursantlarla yanaşı, xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrindən xaric edilən kursantların da müddətli həqiqi hərbi xidmət keçmək üçün hərbi hissələrə göndərilməsi təklif edilir. Burada da 4 gün 1 günlə əvəz olunur. Yəni oxuduğu təhsil müddətinin hər 4 günü 1 gün sayılmaqla həqiqi hərbi xidmət müddətinə hesablanmalıdır.

Eyni zamanda, hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı orta ixtisas təhsili sisteminin təkmilləşdirilməsi, tələbələrin həmin təhsil müəssisələrinə daxil olmaqda marağının artırılması məqsədi ilə gizirlərin və miçmanların tutmalı olduqları vəzifələrə təyin olunması, həmçinin hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrini bitirmiş hərbi qulluqçularla komplektləşdirilməsi təklif edilir. "Hərbi xidmətkeçmə haqqında" Əsasnaməyə və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanuna müvafiq olaraq, təklif edilən 150-1-ci və 42-1-ci maddələrdə nəzərdə tutulan hallarda hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və orta ixtisas təhsili müəssisələrində onların hazırlanmasına çəkilmiş xərclərin əvəzinin hərbi qulluqçular tərəfindən ödənilməsi, hesablanması, əvəzinin ödənilməsi qaydası və müddəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Yəni fərmandan sonra kimə həvalə olunsa, bu məsələlərin həllində birbaşa cavabdehlik daşıyır. Təklif edilən analoji norma Azərbaycan Respublikasının 2021-ci il 29 iyun tarixli müvafiq qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"nin I-I fəslində də öz

əksini tapmışdır.

Yuxarıda qeyd olunanlarla yanaşı, layihədə bir sıra uyğunlaşdırma və dəqiqləşdirmə xarakterli dəyişikliklər də var. Layihə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində ətraflı müzakirə edilmişdir və birinci oxunuş üçün plenar iclasa tövsiyə olunub. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Arzu müəllim. Çıxış etmək istəyən yoxdur və mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 15.26 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələmiz "Uşaq hüquqları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Ailə, qadın və uşaq məsələləri komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitə sədrinin müavini hörmətli Jalə xanım Əliyevaya söz verirəm. Jalə xanım, buyurun.

**Jalə Əliyeva,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsi sədrinin müavini.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media mənsubları. Təqdim olunan qanun layihəsi Azərbaycan Respublikası Prezidentinin

“Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında 2020-ci il 27 noyabr tarixli Sərəncamının icrasının təmin edilməsi məqsədini daşıyır.

Məlumdur ki, Azərbaycan Respublikasında uşaq hüquqlarının müdafiəsi ilə bağlı qanunvericilik bazası mövcuddur və bu hüquqların inkişafı istiqamətində davamlı olaraq islahatlar həyata keçirilir. Birləşmiş Millətlər Təşkilatının “Uşaq hüquqları haqqında Konvensiya”sının milli qanunvericilikdə tətbiq olunması məqsədi ilə ölkəmizdə son illərdə mühüm normativ aktlar qəbul edilmişdir. Layihədə qeyd edilən tələblər müəssisələrdə xidmətlərin təşkili, yaşayış şəraiti, qidalanma, sağlamlığın mühafizəsi, təlim-tərbiyə və asudə vaxtın təşkili sahələrini əhatə edir. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası”na əsasən uşaq müəssisələrində keçirilən monitorinqlərdə həmin tələblərdən istifadə edilməsi nəzərdə tutulur.

Bir məsələni də qeyd etmək yerinə düşər ki, bir qayda olaraq, monitorinqlər ancaq dövlət müəssisələrində aparılır. Əlbəttə ki, bu da, bütövlükdə, ölkə üzrə uşaq müəssisələrində göstərilən xidmətlər, onun keyfiyyəti ilə bağlı real vəziyyətin öyrənilməsində müəyyən çətinliklər yaradır. Bu və bu kimi çətinliklərin hüquqi aspektdən aradan qaldırılması üçün “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsinə ehtiyac yaranıb. Elə bu baxımdan da yanaşdıqda təqdim olunan qanun layihəsi çox mühüm bir sənəd rolunu daşıyır. Layihə komitədə müzakirə edilmiş və birinci oxunuşda baxılması

üçün Milli Məclisin plenar iclasına tövsiyə edilmişdir. Hörmətli həmkarlar, məlumatı nəzərə almağınızı xahiş edirəm və sizi qanun layihəsinə səs verməyə dəvət edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Jalə xanım, çox sağ olun. Hörmətli həmkarlar, bu qanun layihəsinə ikinci komitədə də baxılıb – İnsan hüquqları komitəsində. Mən komitənin sədri hörmətli Zahid Oruca söz verirəm. Zahid müəllim, buyurun, komitənin rəyini bildirin.

**Zahid Oruc,** *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli sədr, dəyərli millət vəkilləri. Burada artıq uşaqlara dair dövlət strategiyasının tələbi qeyd olundu, bunların üzərində dayanmaq istəmirəm. Amma həm də monitorda çıxışları görərək bəlkə hələ deyilməyən məsələlərə aydınlıq gətirmək üçün maksimum 2 dəqiqə çərçivəsində qısa qeydlərimi bölüşmək istəyirəm.

Uşaq müəssisələri dövlət və qeyri-dövlət müəssisələri olmaqla iki yerə bölünür. Qeyri-dövlət müəssisələrinin rəsmi qeydiyyatı Ədliyyə Nazirliyi tərəfindən aparılır. Sosial xidmət müəssisələri kimi akkreditasiyadan keçmək tələbi yalnız məişət zorakılığından zərər çəkənlərə yardım mərkəzlərinə aiddir. Bu günə qədər belə qeyri-dövlət yardım mərkəzlərinin sayı 9-dur. Onlar məişət zorakılığından zərər çəkən uşaqlara xidmət göstərirlər. Lakin elə qeyri-dövlət uşaq müəssisələri var ki, onlar akkreditasiyadan keçmir və burada hüquqi boşluq var. Bax, indi 29.1-ci və 43-cü maddələrdə edilən dəyişiklik bu iki məqsədi özündə ehtiva edir.

Ölkəmizdə mövcud olan sığınacaqlar haqqında yalnız "Sosial xidmət haqqında" Qanunda müəyyən ümumi

normalar var ki, tənzimlənmə onun hesabına aparılır. Amma hamı üçün nümunəvi vahid qaydalar yoxdur. Yalnız dövlət və bələdiyyələr tərəfindən yaradılan uşaq müəssisələrində nümunəvi əsasnamələr mövcuddur. Əlbəttə, keyfiyyətə dair tələblər bir nömrəli məsələdir. Xidmətin təşkili standartları, yaşayış şəraiti, qidalanma, sağlamlığın qorunması, asudə vaxtın təşkili, təlim-tərbiyə məsələləri və sair. Bunların hamısı mühüm tələblərdir. Biz hər zaman uşaq müəssisələri üçün bunları istəyirik.

Uşaq hüquqlarının qorunmasına dair nəzarət üzrə burada artıq Jalə xanım qeyd etdi, illik monitorinqlər keçirilir. Nazirlər Kabineti yanında yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi üzrə monitorinqin nəticələri ən sonda parlamentə də təqdim olunur. İndi edəcəyimiz dəyişikliklərlə hər iki növ müəssisələrdə monitorinq mümkün olacaq. Dediyimiz kimi, uşaqların qidalanması, sənədləşmə, köhnə qida və sair məsələlərin hamısını burada çözmək mümkündür. O ki qaldı bütün sahələrdə uşaq hüquqlarının qorunmasına dair 43-cü maddəyə, məlumdur ki, komitə aidiyyəti qurumlardan hesabatları indiyə qədər alır, ümumiləşdirir və Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyaya təqdim edir. Bununla bağlı mexanizm hazırda uğurla çalışır və Prezidentin 626 nömrəli Fərmanı ilə müəyyənləşir. Amma orada standartlar göstərilməyib-dir. İndi artıq qeyd etdiyimiz bu dəyişiklik həmin standartı da özündə ehtiva edir. Təhsil hüququ üzrə meyarlar, məsələn, uşaqların təhsil hüququ, həmin hesabatlar dediyimiz standart əsasında komitəyə təqdim olunacaq və onlar da onu ümumiləşdirə biləcəklər. Bax, dəyişikliyin mahiyyəti budur. İndiki məsələ müavinətlər və sair

məsələləri əhatə etmir. Ola bilər ki, bizim həmkarlarımız ona toxunsunlar. Layihə bununla bağlıdır. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Çıxış etmək istəyənlər var. Razi Nurullayev, buyurun.

**Razi Nurullayev**. Hörmətli Sahibə xanım, hörmətli deputatlar. Dövlət uşaqlara birdəfəlik ödəmələr, aylıq müavinətlər, kompensasiyalar formasında sosial yardımlar edir. Bu, çox yaxşıdır. Amma o ödəmələr indiki vəziyyətdə onların ehtiyaclarını tam ödəmir, həm də gələcəkləri üçün potensial da yaratmır. Həm müalicələri, həm təhsilləri, həm də hətta tərbiyələri baxımından. Təklif edirəm ki, yeni doğulan 1–3 yaş arası uşaqların yemək xərcləri dövlət tərəfindən ödənilsin. Təəssüf ki, ölkəmizdə uşaq yeməkləri istehsal olunmur. Uşaq yeməkləri də çox bahadır. Hər bir ailə keyfiyyətli uşaq yeməyi ala bilmir. Məhz bunun nəticəsində körpələrin özülünün sağlam şəkildə qoyulmaması təhlükəsi yaranır. Zənnimcə, bunun nəticəsi olaraq nəsildə boyun qısalması, yaddaş zəifliyi, beyin kilidlənməsi və sair kimi hallar yaşanır. Hətta deyərdim ki, oxumamağa, savad almağa zəif meyillilik də bununla bağlı ola bilər.

Bir də, əlil uşaqları olan ailələrin sosial durumunun yaxşılaşdırılması üçün addımlar atılmasını istərdim. Nə demək istədiyimi bir ailənin üzərində izah etmək istəyirəm. Bir ailə tanıyıram, iki övladı var. Qan qohumu ilə evlənib, iki uşağın ikisi də xəstə doğulub. Biri kar-lal və fiziki məhdudiyyətli, o birisi isə tam fiziki məhdudiyyətlidir. Yazıq ana hər gün həkim və xəstəxanalardadır. Onun uşaqlarına dövlət tərəfindən köməklik olunur. Amma bu onlara kifayət etmir. Ata da tam işləyə bilmir. Yəni həyatları alt-üst olub. Onun üçün də bu cür ailələrə

əsaslı köməyin tərəfdarıyam. Bu cür ailələrə hətta avtomobil də vermək olar ki, ana özü idarə edib övladını həkimlərə, xəstəxanalara aparsın. Hətta onun sürücülük məktəbində oxumasını də dövlət üzərinə götürə bilər. Çünki dövlətin əsasını onun vətəndaşları təşkil edir və bizim ölkəmiz də sosial məsələlərə daha həssasdır. Sadəcə, konkret misallar üzərində problemləri dedim. İstərdim ki, həm uşaqların, həm də bu qəbildən olan əlil uşaqların və valideynlərinin sosial durumunun yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər nəzərə alınsın. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Ceyhun Məmmədov. Buyurun.

**Ceyhun Məmmədov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Öncə qeyd edim ki, qanunda edilən dəyişikliklərə səs verəcəyəm. Dəyişikliklər valideyn himayəsindən məhrum olmuş uşaqların hüquqlarının qorunması, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda, mən burada iki rəqəmə toxunmaq istəyirəm.

Rəsmi statistikaya, Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2023-cü ildə 14–17 yaşda olan uşaqlar tərəfindən, ümumilikdə, 364 cinayət törədilibdir və biz cinayətlərin sayını ötən illərlə müqayisə etdikdə görürük ki, 2021-ci ildə 251, 2022-ci ildə 311 cinayət törədilib. Rəqəmlərin təhlili cinayətlərin getdikcə artdığını göstərir.

İkinci statistika məktəbə gedən uşaqların sayının azalması ilə bağlıdır. Onu qeyd edim ki, hər iki statistik məlumat Dövlət Statistika Komitəsinin məlumatlarından götürülüb. Məktəbə gedən uşaqlarla bağlı 2023–2024-cu tədris ili üzrə birinci sinfə 132 min 261 uşaq qəbul olunduğu halda, 2022–2023-cü tədris ilində isə ölkənin ümumi təhsil məktəblərinin birinci sinfinə 137 min 862

uşaq gedib. Söhbət uşaqların sayının təxminən 5 min nəfər azalmasından gedir. Hər iki rəqəm kifayət qədər ciddi rəqəmdir və bu rəqəmlərdə ildən-ilə artım var. Hesab edirəm, bu barədə düşünməliyik. Səbəblər araşdırılmalı və müvafiq qərarların qəbul edilməsi barədə düşünməliyik. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Səyyad Salahlı. Buyurun, Səyyad müəllim.

**Səyyad Salahlı**. Təşəkkür edirəm, xanım sədr. Şübhəsiz, uşaqların müdafiəsi, onların inkişafı, müəyyən qidalarla təmin olunmaları mühüm məsələdir. Çünki məşhur ifadə ilə desək, uşaqlar bizim gələcəyimizdir, vətənin sipəridir və onların haqqında dövlətin də, ayrı-ayrı uşaq müəssisələrinin də qayğısı əlahiddə vacibdir.

Qanunda edilən dəyişikliklər, şübhəsiz ki, daha çox məktəbəqədər uşaq müəssisələri üçün nəzərdə tutulub və bu, bütün mənalarda ilkin bazadır. Çox arzu edərdik ki, ümumiyyətlə, bu sahədə müəyyən adamların sponsor xidməti, dövlətin özünün də qayğısı daha artıq olsun. Çünki bu, çox vacib cəhətdir. Uşaqlıqdan məktəbəqədər müəssisələrdə bizim balalarımızın müəyyən mənada qısıq şəkildə böyüməsi və müəyyən ərzaqdan, xüsusən meyvələr baxımından məhrum edilməsi ciddi çatışmazlıqdır. Uşaqlar körpə yaşından müəyyən qüsurlara uğrayırlar və bunu sonradan bərpa etmək olmur. Bu, uşaq vaxtı bərpa olunmalıdır və onun sağlam, mükəmməl böyüməsi gələcəyimiz üçün çox vacibdir.

Qanun layihəsi konseptual baxımdan çox vacibdir, çox maraqlıdır və dediyim kimi, həyatımızın ayrılmaz tərkib hissələrindən biridir. Amma bu uşaqların mükəmməl böyüməsi üçün əlavə mənbələr tapılmalıdır. Onlar müəy-

yən qədər xəstəliklərdən qorunmalı, əgər tutaq ki, müəyyən bir şikəstlik əlaməti varsa, onun tezliklə aradan qaldırılmasına xidmət etməlidir.

Burada bir də istərdim ki, söhbət konkret uşaq hüquqlarından gedirsə, yaş müəyyənləşsin, neçə yaşına qədər? Məktəblilər də bu "Uşaq hüquqları haqqında" Qanuna aiddir, yoxsa yox? Yoxsa, onlarla bağlı ayrıca bir qanun olmalıdır? İndi burada qeyd edildi ki, müəyyən uşaqların hazırlığı və tərbiyəsi ilə bağlı ciddi nöqsanlar meydana çıxır. Bu, orta məktəbdə daha çox zərər verir. Mən burada onu dəqiqləşdirə bilmirəm ki, "uşaq" deyəndə neçə yaş nəzərdə tutulur? İndi, düzdür, hiss olunur ki, məktəbəqədər müəssisələr daha çox diqqətdədir, amma arzu edərdim ki, konkretlik olsun. Bu qədər. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Tənzilə Rüstəmxanlı. Tənzilə xanım, buyurun.

**Tənzilə Rüstəmxanlı**. Təşəkkür edirəm, xanım sədr. Bugünkü müzakirəyə çıxarılan "Uşaq hüquqları haqqında" Qanunda təklif edilən dəyişikliklər Azərbaycan Respublikasının uşaq hüquqlarının daha effektiv qorunmasına və təmin edilməsinə yönəlmiş mühüm bir addımdır. Əlbəttə, qanunda edilən bu dəyişikliyi dəstəkləyirəm və qanunun aktuallığını nəzərə alaraq, təcrübəmdən irəli gələn bir-iki təklifimi də irəli sürmək istəyirəm. Əsasən, xidmətin keyfiyyətinin dövlət tərəfindən nəzarətə götürülməsi çox önəmli bir dəyişiklikdir. Azərbaycanda uşaq evləri, uşaq müəssisələri ilə bağlı təcrübəm, onlarla əlaqəli gördüyümüz işlər, gəldiyimiz qənaətdən yola çıxaraq bunu qeyd etmək istəyirəm ki, bu xidmətlərin keyfiyyətinin yüksəldilməsi çox vacibdir. Çünki birbaşa uşaqlarımızın psixoloji, fiziki və sosial rifahı üçün olduqca mühümdür.

Təklif olunan dəyişikliklərdən biri də uşaq hüquqlarının qorunmasının monitorinqlərinə dair yeni meyarların müəyyən olunmasıdır. Əlbəttə, bunlar Azərbaycan dövlətinin uşaq hüquqlarının qorunması ilə bağlı qanunları ilə tənzimlənir və bu qanunların icrasına nəzarət qurumların da məsuliyyətini daha da artırır. Deməli, bu qanunların yerlərdə icra olunması, əlbəttə, uşaqlarımızın hüquqlarının müdafiəsi müvafiq icra hakimiyyəti orqanları, məhkəmə, prokurorluq, digər hüquq mühafizə orqanları tərəfindən və özəlliklə də Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili, bələdiyyələr, eləcə də ictimai birliklər və həmkarlar ittifaqları təşkilatları tərəfindən təmin edilməlidir.

Uşaqlar cəmiyyətimizin ən həssas və gələcəyimiz üçün ən çox diqqət ayırmalı olduğumuz bir qrupdur. Bu mövzuda vətəndaş cəmiyyəti, özəlliklə bu sahə ilə məşğul olan ictimai qurumlarda və qeyri-hökumət təşkilatlarında bu məsələlərlə  bağlı ictimai nəzarətin artırılmasını təklif edirəm.

Özəlliklə hörmətli həmkarımız Zahid Orucdan xahiş edirəm ki,  İnsan hüquqları komitəsinin sədri kimi uşaq hüquqları ilə bağlı ictimai maarifləndirmənin mövcud vəziyyətini qiymətləndirmək üçün bir ictimai sorğu təşkil edilsin. Daha sonra aidiyyəti dövlət qurumları dəvət edilərək həmin sorğunun nəticələri müzakirə edilə və vətəndaş cəmiyyətinin nümayəndələri ilə birlikdə ictimai dinləmə təşkil oluna bilər.

Deyəcəyim özəlliklə uşaqlarımızla bağlıdır. Son zamanlar informasiya kirliliyi, digər rəqəmsal təhdidlər uşaqlarımıza ciddi təsir göstərir. Bu məsələlərə diqqət yetirərək, müvafiq dövlət qurumlarının da bu prosesə dəstək olmasının vacibliyini vurğulamaq istəyirəm. Bu

kontekstdə son zamanlar Elm və Təhsil Nazirliyinin nəzdində De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsinin yaradılması çox ciddi bir addımdır.

Yekun olaraq, bu dəyişikliklər uşaqlarımızın hüquqlarının daha yaxşı qorunmasını və vətəndaş cəmiyyətinin, özəlliklə ictimai nəzarətin daha ciddi şəkildə artırılmasını təmin edəcəkdir. Mən qanun layihəsini dəstəkləyirəm.

**Sədrlik edən.** Sağ olun, Tənzilə xanım. Elnarə Akimova. Elnarə xanım, buyurun.

**Elnarə Akimova.** Hörmətli xanım sədr, hörmətli deputatlar. Bəri başdan deyim ki, qanun layihəsini dəstəkləyirəm və çox aktual hesab edirəm.

Layihədə təqdim edilən tələblər – müəssisələrdə xidmətlərin təşkili, yaşayış şəraiti, qidalanma, sağlamlığın mühafizəsi, təlim-tərbiyə və asudə vaxtın təşkili sahələrini əhatə edir. Burada diqqəti daha çox elə son tələbə – uşaqların asudə vaxtının təşkili məsələsinə cəlb eləmək istəyirəm.

Asudə vaxtın təşkili üçün nələr etmək olar? Əsas məsələ, əlbəttə ki, mütaliə ilə bağlıdır. Uşaqlar üçün maraqlı, gərəkli kitabları əlçatan etmək lazımdır. Kitabxanaların sayını artırmaq, uşaqları ora cəlb etmək, onlara həm klassik irsimiz, həm də dünya ədəbiyyatının ən dəyərli nümunələri ilə tanışlıq imkanı yaradılmalıdır. Xüsusi ilə regionlarımızda uşaq kitabxanaları kasaddır, əlverişli deyil, bu sahəyə diqqət ayrılmır. Əvvəllər, heç olmasa, böyük tirajla çıxan “Göyərçin”, “Pioner” jurnalları vardı. Hətta ən ucqar kənddə yaşayan uşağın belə əlinə çatırdı, məktəblərə paylanırdı. Yaxud televiziyalarda uşaq verilişləri vardı – “Çıraq”, “Kitab evi”. Bu verilişlər indi yoxdur. “Göyərçin”, “Göy qurşağı”, “Günəş” jurnalları

çıxır, amma təəssüf ki, çox az tirajla, yəni regionlarda yaşayan uşaqlara gedib çata bilmir.

Yeri gəlmişkən, uşaq ədəbiyyatı nəşrləri mexanizminin tənzimlənməsi üçün dövlət nəzarəti artırılmalı və bu sahə ciddi yanaşmanın predmetinə çevrilməlidir. "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinə əsasən, ailə institutunu nüfuzdan salan informasiyalar uşaqlar arasında dövriyyəsi qadağan olunan informasiyalar sırasına aid edilib və həmin informasiya məhsullarının uşaqlar arasında yayılması qadağandır. Bizdə bəzi hallarda bu qanunun tələblərinə zidd olan kitablar çap olunur. Baxırsan ki, orada ya dini-ideoloji, ya da mənəvi-əxlaqi baxımdan yanlışlar yer alır. Məncə, xüsusi ilə azyaşlı uşaqlar üçün istənilən vəsait çap olunmamışdan əvvəl senzuradan keçib qrif almalıdır. Müvafiq prosedur və yoxlamalardan sonra çap edilməlidir.

Bir də, asudə vaxtın təşkili üçün elə bir mexanizm tapmaq lazımdır ki, bunlar harmoniya təşkil etsin, qidalanma da, təlim-tərbiyə də, asudə vaxtın təşkili də vahid ahəngdə olsun. Burada daha çox iki cəhət – estetik dünyagörüşünün təkmilləşdirilməsi və vətənpərvərlik tərbiyəsi əsas götürülməlidir. Bunu sənət əsərləri ilə tarixin qarşılıqlı əlaqələrini sintez edərək də təmin etmək olar. Məsələn, Qobustan qayaüstü rəsmləri uşaqların həm estetik ehtiyaclarının ödənilməsi, həm də tarixin, Azərbaycan xalqının mifoloji dəyərlərinin, simvollarının mənimsənilməsi baxımından yaxşı bir zəmin ola bilər. Bunun üçün müəssisələrdə bu kimi məkanlara planlı və sistemli ekskursiyalar təşkil etmək lazımdır.

Əlbəttə, bunların hər biri kollegiallıq tələb edən mə-

sələlərdir. Amma düşünürəm, bu kimi qanunlar narahatlıq doğuran problemlərin zamanla həll edilməsinə yol açacaqdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Elnarə xanım. Mən istərdim, indi sözü hörmətli Əli müəllimə verim. Əli müəllim söz istədi. Əli müəllim, başa düşdüyüm kimi, Sizin elə özünüzün bu qanuna bir əlavəniz var. Buyurun.

**Əli Əhmədov.** Təşəkkür edirəm. Çox vaxtınızı almayacağam. Azərbaycanda, təbii olaraq, dövlət uşaq müəssisələri ilə yanaşı, eyni zamanda, özəl uşaq müəssisələri də fəaliyyətə başlayıbdır. Ancaq bir neçə müddət bundan əvvəl, – mən adını çəkmək istəmirəm, – Bakı şəhərində rayonların birində çox ciddi pozuntular müşahidə olunan bir uşaq müəssisəsi məlum oldu. Bizim çox ciddi səylərimizə baxmayaraq, məlum oldu ki, dövlətin müəyyənləşdirdiyi qaydalar yalnız dövlət uşaq müəssisələrinə şamil edilir. Özəl şəkildə yaradılan uşaq müəssisələrində, uşaq bağçalarında isə bu qaydalar və meyarlar tətbiq edilmir. Bu ideya bundan sonra ortaya gəldi. Mən hesab edirəm ki, dövlət müəssisələri ilə yanaşı, özəl uşaq müəssisələrində, uşaq bağçalarında da dövlət müəssisələri üçün nəzərdə tutulmuş bütün meyarlar tətbiq olunmalıdır.

Bizim müşahidə etdiyimiz ciddi pozuntular bu fikri söyləməyə əsas verir ki, həmin müəssisələrin qeydiyyata alınması, onlara lisenziya verilməsi, sonra isə onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi ciddi şəkildə reqlamentləşdirilməlidir və burada dövlətin müvafiq nəzarət orqanları öz fəaliyyətlərini göstərməlidir.

Bu qeyri-dövlət və dövlət uşaq müəssisələrində monitorinqin aparılması zərurətinin yaranması buradan irəli çıxdı, buradan meydana gəldi. Amma eyni zamanda, mən

hesab edirəm, prinsip etibarı ilə gələcəkdə biz növbəti addımı da atmalıyıq, həm müəssisələrin yaradılması zamanı onların lisenziyalaşması, onlara icazə verilməsi, həm də onların fəaliyyətinə ciddi şəkildə nəzarət edilməsi məsələləri qanunvericilik şəklində, bəlkə bundan daha təkmil formada həyata keçirilməlidir.

Mən hesab edirəm ki, bu, məsələnin birinci addımıdır. Təsəvvür edin ki, biz bütün digər sahələrdə lisenziyalaşdırma, razılaşdırma mərhələlərini ciddi şəkildə həyata keçiririk. Amma uşaqların tərbiyə olunduğu, saxlanıldığı, qidalandığı yerlərdə isə nisbətən loyal münasibətin göstərildiyi müşahidə olunur.

Mən hesab edirəm ki, bu, çox ciddi bir qanun layihəsidir. Amma gələcəkdə bunun daha da təkmilləşdirilməsinə ehtiyac var. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Sonuncu çıxış. Mehriban Vəliyeva. Mehriban xanım, buyurun.

**Mehriban Vəliyeva.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Əslində, "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklərlə bağlı olan məsələyə bir balaca aydınlıq gətirmək istərdim. Çünki bəzilərini Əli müəllim qeyd etdi.

Burada əsas məsələ iki maddədə edilmiş dəyişiklikdir. Birincisi, "Uşaq müəssisələrində xidmətlər" adlı yeni 29-1-ci maddədir. "Dövlət və qeyri-dövlət uşaq müəssisələrində xidmətlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi xidmətin keyfiyyətinə dair tələblərə uyğun olaraq göstərilir". Əlbəttə ki, keyfiyyət tələblərinin hazırlanması, dövlət və qeyri-dövlət müəssisələrində tətbiqi, nəzarət mexanizmlərinin formalaşdırılması qanunvericilik baxımından buna imkan verəcək.

Digər maddəyə əlavə isə uşaq hüquqlarına əməl edilməsi üzərində nəzarətlə bağlıdır. 43-cü maddədə "Uşaq hüquqlarının həyata keçirilməsinin bütün sahələrdə təmin edilməsi vəziyyətinin monitorinqi üzrə meyarlar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur" əlavəsi nəzarət mexanizmlərinin formalaşdırılmasına imkan verəcək.

Göründüyü kimi, layihədə irəli sürülən dəyişikliklər uşaq müəssisələrində uşaq hüquqlarının müdafiəsinin təşkili və nəzarət mexanizmlərinin hazırlanmasına, uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti qaydasının təmin edilməsinə imkan verəcəkdir. Bu, əslində, komitədə müzakirə olunub. Bütün komitə üzvləri yekdilliklə lehinə səs veriblər. Mən də bütün həmkarları bu vacib qanun layihəsinə səs verməyə dəvət edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Mehriban xanım. Hörmətli həmkarlar, çıxışlar bitdi. Sadəcə, onu deyim ki, bir neçə çıxış bu qanun layihəsi ilə deyil, ümumən uşaq məsələləri ilə bağlı idi. Ancaq düşünürəm, təbii ki, uşaqlarımız haqqında mövzu çox vacib bir mövzudur və danışmağa da lüzum var.

Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 15.53 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələ "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılıb. Mən yenə də sözü komitə sədri hörmətli Musa Quliyevə verirəm. Musa müəllim, buyurun.

**Musa Quliyev.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Sosial müdafiəyə ehtiyacı olan şəxslərə, xüsusən uşaqlara diqqət və qayğı göstərilməsi dövlətimizin sosial siyasətində ən prioritet istiqamətlərdən biridir.

Heç də təsadüfi deyildir ki, hazırda ölkəmizdə mövcud olan 21 adda sosial müavinət növünün 13-ü uşaqlarla bağlıdır. Müxtəlif kateqoriyalardan olan 600 mindən çox uşaq sosial müavinətlə əhatə olunmuşdur.

Bu mənada valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlara dövlətimiz tərəfindən hərtərəfli qayğı göstərilməsi xüsusi önəm kəsb edir. Onların təhsili, müalicə, məişət, geyim xərcləri dövlət tərəfindən ödənilir, onlara 6 növdə sosial müavinət verilir, mənzil və ya yataqxana təminatı, kvota əsasında güzəştli şərtlərlə işə qəbul edilməsi məsələləri də qanunvericiliyimizdə öz həllini tapmışdır.

Hazırda müzakirənizə təqdim edilən qanun layihəsi də bu qəbildən olan şəxslərin ilk dəfə işə düzələn zaman onlara verilən müavinət və pul kompensasiyasının məbləğinin konkretləşdirilməsi və artırılması məqsədini daşıyır.

Belə ki, mövcud qanun 1999-cu ildə qəbul edilmişdir və o zaman orta aylıq əməkhaqqı çox aşağı məbləğdə idi. Müqayisə üçün qeyd etmək istəyirəm ki, 2001-ci ildə orta aylıq əməkhaqqı indiki kursla 50 manat təşkil edirdi. Ona görə də bu qəbildən olan ilk işə düzələn şəxslərə orta aylıq əməkhaqqının 5 mislindən az olmayaraq pul ödənci verilməsi nəzərdə tutulmuşdur ki, ilk dəfə əmək fəaliyyətinə başlayan gənc əməkhaqqı alana qədər özünün kirayə, məişət əşyaları, paltar, qida təminatı ehtiyaclarını qarşılaya bilsin. O vaxtdan keçən müddət ərzində ölkəmizdə orta aylıq əməkhaqqı 22 dəfədən çox artmış, ilk dəfə əmək fəaliyyətinə başlayan valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş şəxslərə bu məqsədlə verilən pul kompensasiyasının məbləği 2024-cü il üçün 5017 manata çatmışdır.

Verilən müavinətin məbləğinin dəfələrcə artmasına baxmayaraq, qanunda təsbit olunmuş "beş mislindən az olmayan miqdarda" ifadəsi bir çox hallarda tərəflər arasında fikir ayrılığına və anlaşılmazlığa da səbəb olur.

Həmçinin qanunda "valideynlərini itirmiş və onlara bərabər tutulan şəxslər ilk dəfə əmək fəaliyyətinə başlayan zaman müvafiq icra hakimiyyəti orqanı tərəfindən həmin uşaqlara paltar, ayaqqabı və digər geyim əşyaları alınıb verilməlidir" müddəasının icrası da müəyyən praktik çətinliklər və anlaşılmazlıqlar yaradır. Belə ki, müvafiq icra hakimiyyəti orqanı tərəfindən 265 manat dəyərində alınan geyimlərin modeli, rəngi, forması və sair keyfiyyətləri çox zaman uşaqları razı salmırdı.

Bununla yanaşı, mövcud qanun yaradıcılığı texnikasında vergi, rüsum, cərimə, müavinət və sair ödənclərin hər hansı dəyişən normalara münasibətdə deyil, vaxtaşırı

tənzimlənən konkret rəqəmlərlə ifadə olunması daha optimal yanaşma hesab edilir.

Hazırda qanunun təsir dairəsinə aid olan uşaqlara ilk dəfə əmək fəaliyyətinə başlayarkən verilən pul ödəncinin məbləği iki tərkib hissədən – orta aylıq əməkhaqqının 5 misli, yəni 5017 manat və 265 manat miqdarında paltar təminatı xərclərindən ibarət olmaqla cəmi 5282 manat təşkil edir. Qanunda təklif olunan dəyişikliklər qəbul edildikdən sonra bu məbləğin müvafiq qərarla artırılaraq 6000 manat təşkil edəcəyi nəzərdə tutulmuşdur.

Göründüyü kimi, təklif edilən dəyişikliklər valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin daha da gücləndirilməsinə və onlara verilən müavinətin məbləğinin artırılması ilə yanaşı, onun konkretləşməsinə və ünvanlılığının yüksəlməsinə xidmət edəcəkdir.

Hörmətli millət vəkilləri, çıxışımın sonunda onu da diqqətinizə çatdırmaq istəyirəm ki, bu qanun layihəsi qəbul olunduqdan sonra "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda da müvafiq dəyişikliyin edilməsi, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların ilk dəfə əmək fəaliyyətinə başlamasına görə birdəfəlik müavinət növünün təsis olunması və bu müavinətin də qanunda nəzərdə tutulmuş qaydada indeksləşdirilməsi nəzərdə tutulur.

Qanun layihəsi konseptual baxımdan birinci oxunuşun tələblərinə cavab verir. Layihə qanunvericilik subyektinin nümayəndəsinin iştirakı ilə Əmək və sosial siyasət komitəsində ətraflı müzakirə edilmiş və müzakirə üçün Milli Məclisin plenar iclasına təqdim olunmuşdur. Qanun layihəsini dəstəkləməyinizi sizdən xahiş edirəm. Diqqə-

tinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Musa müəllim, çox sağ olun, ətraflı məlumat verdiniz. İkinci komitədə də baxılıb – Ailə, qadın və uşaq məsələləri komitəsində. Jalə xanım, bu gün Siz məlumat verirsiniz. Buyurun, komitənin rəyini bildirin.

**Jalə Əliyeva.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Ölkəmizdə həssas qrupdan olan şəxslərin, xüsusi ilə də valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların hüquqlarının qorunması, onların sosial müdafiəsinin gücləndirilməsi prioritet bir məsələdir.

Təqdim olunan qanun layihəsi də sosial ödənişlərin təyin olunması və bu ödənişlərin hüquqi əsaslarının davamlı şəkildə təkmilləşdirilməsi, nəticə etibarı ilə qorunmağa ehtiyacı olan təbəqədən olan uşaqların dövlət himayəsi imkanlarının artırılması məqsədi ilə hazırlanmışdır.

Hörmətli Musa müəllim artıq təqdim olunan qanun layihəsi ilə bağlı ətraflı məlumat verdi. Mən də diqqətinizə çatdırmaq istəyirəm ki, həmin layihə Ailə, qadın və uşaq məsələləri komitəsində müzakirə edilmiş və birinci oxunuşda baxılması üçün Milli Məclisin plenar iclasına tövsiyə edilmişdir. Nəzərə almağınızı və səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Jalə xanım. Çıxış etmək istəyən var. Elman Nəsirov. Elman müəllim, buyurun.

**Elman Nəsirov.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli deputatlar. Hazırda müzakirə olunan məsələnin, yəni "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanunun bu gün cəmiyyətimizdə çox diqqətlə, həssaslıqla qarşılanacağını və sosial şəbəkələrin də ona reaksiya

verəcəyini nəzərə alıb, bu məsələ ilə bağlı bəzi fikirlərimi bildirmək istəyirəm.

Əvvəla, onu qeyd edim ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sözləridir: “Azərbaycan sosial dövlətdir və dövlətimizin siyasətinin mərkəzində Azərbaycan vətəndaşı, onun sosial rifahı və təhlükəsizliyi dayanır”.

Həqiqətən də, bizim parlamentdə qəbul etdiyimiz dövlət büdcəsində də elə məhz bu reallıq öz əksini tapıb. Elə 2024-cü ilin büdcəsinə baxsaq, bizim illik xərclərimiz 39,7 milyard manatdır. Yəni daha uyğun, anlaşıqlı olsun deyə, deyim ki, bizim əlimizdə təxminən 40 milyard manat il ərzində xərcləməyə pulumuz var. Bizim bu 40 milyardlıq xərclərimizdə 43 faiz, təxminən 16 milyard manat sırf sosial xərclərdir.

İkinci yerdə təhlükəsizlik qeyd olundu. Bizim müdafiə və təhlükəsizlik xərclərimiz isə 6,4 milyard manat təşkil edir. Fikir verin, bizim sosial xərclərimiz, yəni 43 faiz, üstəgəl hərbi xərclərimiz, o da təxminən 18 faizdir. Yəni bütün büdcəmizin 61 faizi məhz insanların sosial rifahı və təhlükəsizliyinə xidmət edən xərclərdir ki, bu da dövlətimizin, doğrudan da, sosial mahiyyətini özündə əks etdirir.

O ki qaldı uşaqlara, onların sosial müdafiəsi ilə bağlı məsələyə, hesab edirəm ki, bu qanun, – indi hörmətli həmkarım Musa müəllim ətraflı və geniş məlumat verdi, – doğrudan da, bu sahədə atılmış növbəti çox mühüm addımlardan biridir. Yenə də o məsələnin həssaslığını nəzərə alıb, qeyd etmək istəyirəm ki, büdcəmizdə, yəni bizim, dediyim kimi, 40 milyard manatlıq xərclərimizin içərisində 650 milyon manat sırf uşaqların sosial müdafiəsi ilə bağlı ayrılmış vəsaitdir. Söhbət 611 min uşağın sosial müdafiəsindən gedir. Necə deyərlər, “əlahəzrət

faktın qarşısında şlyapanı çıxarırlar". Düz 50 min bizim əlil uşağımız var, onlar həmin o sosial müdafiə ilə təmin olunurlar. Ölkəmizdə valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olan 166 min uşaq var ki, onlar da dediyim o 611 min nəfərin içərisindədir. Ölkəmizdə aztəminatlı uşaqların sayı 160 mindir. 3 yaşınadək uşaqları olan valideynlər var ki, onlar işləyirlər, onların sayı 35 mindir. Şəhid ailələridir, müharibə əlilləridir, sonra 5-dən yuxarı uşağı olan analardır, müddətli hərbi xidmətçilərdir, bunların da sayı təxminən 30 mindir. Onların da uşaqları sosial müdafiə ilə əhatə olunurlar. Nəhayət, ölkəmizdə təkcə əlil uşaqlar deyil, eyni zamanda, əlil uşaqlara xidmət edən insanlar və valideyn himayəsindən məhrum olmuşların qəyyumları da dövlətdən belə vəsait alırlar ki, onların da sayı 50 mindir. Yəni dediyim kimi, bütövlükdə, ölkəmizdə 611 min uşaq 650 milyon manat vəsait ayrılmaqla dövlətin qayğısı ilə əhatə olunub.

Eyni zamanda, əlil uşaqlara dövlətin qayğısı ilə bağlı başqa bir faktı da söyləyim ki, bir vaxtlar belə uşaqlara ayda 82 manat pul verilirdi. İndi ölkəmizdə birinci dərəcəli əlil uşaqlara ayda 572 manat, ikinci dərəcəli əlil uşaqlara 330 manat və nəhayət, üçüncü dərəcəli əlil uşaqlara isə 250 manat vəsait ayrılır. Bütün bunlar bir daha onu göstərir ki, bəli, dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşıdır, onun sosial rifahıdır və xüsusi ilə də uşaqlara diqqət hər zaman dövlətimizin siyasətinin mərkəzindədir. Cənab Prezidentin dediyi kimi, "bunlar son hədd deyil". Biz öz imkan və potensialımıza adekvat olaraq həmişə bu sahəyə xüsusi diqqət ayırmışıq və bundan sonra da həmin siyasət davam etdiriləcəkdir. Qanunun lehinəyəm və lehinə də səs verəcəyəm. Təşəkkür

edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 16.05 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Bizim növbəti məsələmiz 16-cı məsələdir. "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Qanunda və digər 6 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Əminə xanım Ağazadəyə söz verirəm. Əminə xanım, buyurun.

**Əminə Ağazadə,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Hörmətli həmkarlar, xatırlatmaq istərdim ki, Milli Məclis tərəfindən "Dövlət qulluğu haqqında" Qanunda 2020-ci il noyabrın 24-də qəbul edilmiş dəyişikliyə əsasən, dövlət qulluğunun xüsusi növündə qulluq keçən şəxslər dövlət qulluğuna işə qəbul edilərkən onların xüsusi, hərbi və diplomatik rütbə-

lərinin dövlət qulluqçularının ixtisas dərəcələri ilə qarşılıqlı olaraq uyğunlaşdırılmasının aparılması müəyyən edilmişdir. Lakin dövlət qulluğunun xüsusi növündə qulluq keçən şəxslərin bir orqandan digərinə işə qəbul edilərkən xüsusi, hərbi, diplomatik rütbələrinin öz aralarında qarşılıqlı olaraq uyğunlaşdırılmasının qaydası mövcud olmadığından, bu halları təcrübədə tənzimləmək zərurəti yaranmışdır.

"Dövlət qulluğu haqqında" Qanunu biz xatırlayırıq. 2023-cü il noyabrın 21-də qəbul edilmiş dəyişikliyə əsasən, qeyd edilən məsələ də öz həllini tapmış oldu və həmin qanunun keçid müddəasına əsasən, bu dəyişikliklərin müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən "Xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı uyğunlaşdırılması Qaydası" ilə eyni gündə qüvvəyə minməsi müəyyən edilmişdir. Həmin qaydalar bu il sentyabrın 28-də dövlət başçısının müvafiq fərmanı ilə təsdiq edildi və bununla "Dövlət qulluğu haqqında" Qanunda edilmiş dəyişikliklər qanuni qüvvəyə mindi.

Hörmətli sədr, bu gün təqdim edilən qanun layihəsində isə dövlət qulluğunun xüsusi növünü tənzimləyən qanunlarda dəyişiklik etməklə, həm şəxsin müvafiq orqanların dövlət qulluğunun digər xüsusi növünə və ya dövlət qulluğuna keçməsi zamanı, həm də əksinə olan halları nəzərə alacaq məsələləri müəyyən etmiş oluruq. Eyni zamanda, layihədə dövlət qulluğunun xüsusi növü olan müvafiq orqanlarda stajorluq və sınaq müddətini keçmə şərtlərini, rütbələrin verilməsi qaydalarını tənzimləyən bir sıra müddəalar da dəqiqləşdirilir.

Hörmətli həmkarlar, qeyd etmək istəyirəm ki, bu

dəyişikliklər, xüsusi ilə dövlət orqanları ilə bağlı qarşılıqlı olaraq müvafiq qulluq illərinin nəzərə alınması məsələsi çox aktualdır. Bu məsələnin imperativ olaraq qanunda birbaşa öz əksini tapması, hesab edirəm ki, mütərəqqi dəyişiklikdir. Həmkarlarımı qanun layihəsinin lehinə səs verməyə dəvət edirəm. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Əminə xanım. Fazil Mustafa. Fazil müəllim, buyurun, çıxışa yazılmısınız.

**Fazil Mustafa**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Mən burada bir neçə məsələyə münasibət bildirmək istəyirəm. Qanun layihəsini prinsip olaraq dəstəkləyirəm və lehinə də səs verəcəyəm. Amma burada bir vacib məsələ var, bəlkə bu, texniki səhv kimi gedir. Prokurorluq orqanlarına qulluğa qəbul zamanı tələb olunur ki, elmlər doktoru elmi dərəcəsi olan şəxslər sınaq müddətindən azad olunurlar. Onları nəzərdə tutur, qalan qurumların hamısına fəlsəfə doktoru və elmlər doktoru elmi dərəcələri. Bu, nə dərəcədə doğru ola bilər? Hamısında elmi dərəcəsi olan hər kəs bu müddətdən azad olunmalıdır. Bizdə elmi dərəcənin başqa hansı növləri var ki? Hamısına aid edilsin, yalnız "elmi dərəcə" sözləri işlənsə, daha doğru olar. Yalnız prokurorluqda ancaq elmlər doktoru sınaq müddətindən azad olunur. Niyə fəlsəfə doktoru yox? Yəni ona görə də bəlkə bu məsələ texniki yanaşmadır. Amma hər halda hamısını eyniləşdirmək, məncə, doğru olar. Çünki daxili işlər orqanlarında da, gömrükdə də, ədliyyə orqanlarında da bu məsələ hər iki elmi dərəcəyə şamil olunur. Amma prokurorluqda olunmur.

İkinci bir vacib məsələ ədliyyə orqanları ilə bağlıdır. Burada dövlət notariuslarının işə qəbul zamanı o sınaq müddətindən azad olunması nəzərdə tutulur. Bizdə xüsusi

notariat da var. Bunların əsas fərqi odur ki, dövlət notariatı əldə etdiyi vəsaiti dövlət büdcəsinə keçirir. Xüsusi notariatlar isə rüsumdan vergi ödəyirlər. Amma bunların hər ikisinin təyinatı zamanı birinə şəhadətnamə verilir, o biri, dövlət notariatı da təyin olunur. Amma bunların bütün yoxlama proseduru, təyin olunma, işinə nəzarət, hamısı müvafiq icra hakimiyyəti orqanı, yəni Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilir. Niyə xüsusi notariuslara bu imkan verilmir? Niyə mən bunu əsaslandırmaq istəyirəm? Burada, məsələn, tutaq ki, hakim vəzifəsinə namizədlər üçün nəzərdə tutulmuş tədris kurslarını bitirmiş şəxslər hakim vəzifəsinə təyin olunmadığı halda, bu müddətdən azad olunurlar. Axı, bu xüsusi notarius da, əslində, faktiki olaraq elə bir müvafiq icra hakimiyyəti orqanının sistemi içində fəaliyyət göstərir və məncə, bu insanlara da, bu kateqoriyadan olan şəxslərə də belə bir imkanın tanınması doğru olardı.

Digər bir vacib məsələ – "sınaq müddətini müvəffəqiyyətlə keçə bilmədikdə" məsələsi də bir az subyektivlik doğurur. Məsələn, hansısa qurumun rəhbərliyi istənilən adama sınaq müddətini doğru keçməyib, deyə rəy verə bilər, yaxud da ona müsbət rəy verə bilər, keçə bilər. Bunun hansı isə bir kənar qiymətləndirmə forması tapılmalıdır. Yəni necə ki, bizdə Dövlət İmtahan Mərkəzi hansı isə bir qiymətləndirməni verir, sonra işə qəbul məsələsi təmin olunur. Burada da bu, mütləq təmin olunmalıdır. Çünki subyektivlik olan yerdə mütləq hüquqların pozulmasına gətirib çıxara biləcək şərait ortaya çıxır. O baxımdan da, məncə, – bu qanun layihəsi ilə bağlı demirəm, – gələcəkdə hər halda bu ifadənin özünə də biz diqqət etməliyik ki, məsələlər hansı isə bir müəssisənin,

bu sistemin rəhbərliyində olan hansı isə şəxslərin subyektiv mülahizəsi ilə həll olunmasın, obyektiv qərarlar qəbul olunsun. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Əminə xanım, buyurun, yazılmısınz.

**Əminə Ağazadə**. Hörmətli həmkarlar, bir məsələni nəzərinizə çatdırmaq istəyərdim ki, hər birimizin qanun layihəsi ilə bağlı obyektiv və subyektiv fikirləri ola bilər. Lakin indiki qanun layihəsi, – mən onun tarixini də qeyd etdim, – yəni əsas ana qanunda biz dəyişikliklər etmişik, indi isə sahəvi qanunlarda dəyişikliklər edirik. Biz konkret olaraq “Prokurorluq haqqında” Qanunda olan dəyişikliklərdən danışırıqsa, hörmətli Fazil müəllimin qeyd etdiyi stajorluq müddəti ilə bağlı, digər qanunlarda nəyə görə o elmi dərəcəsi olan şəxslərin azad olunması göstərilməyib? Onu qeyd edim ki, stajorluq məhz prokurorluqda qulluqkeçmə ilə tənzimlənir və prokurorluq işçiləri imtahan veriləndən sonra stajorluq müddətinə cəlb olunurlar. Stajor müstəntiq olur, stajor prokurorun köməkçisi olur. Digər qurumlarda, yəni istər Daxili İşlər Nazirliyi, istərsə də Dövlət Gömrük Komitəsi olsun, orada bu vəzifə yoxdur və qanunun “Əsas anlayışlar” maddəsində o göstərilibdir.

Misal üçün, bu mənim subyektiv fikrimdir. Söhbət burada təcrübədən gedir. Yəni hər hansı bir elmi dərəcəsi olan şəxs qulluq keçərkən, əlbəttə, öz biliklərindən istifadə edir. Amma nəzəriyyə ilə təcrübə tamam fərqli yanaşmalardır. Yəni bunu elmi dərəcəsi olan şəxslərə bir güzəşt kimi qəbul etmək olar və bunun analogiyası “Hakimlər haqqında” Qanunda da öz əksini tapıbdır.

Sınaq müddətinin digər qurumlar tərəfindən qiymətlən-

dirilməsi, mən hesab edirdim ki, düzgün olmazdı. Çünki sınaq müddətinin qiymətləndirilməsində yalnız nəzəri biliklərə qiymət verilməsindən söhbət getmir. Burada, deyək ki, həmçinin təcrübədə istintaq apardığı cinayət işlərinin keyfiyyətinə baxılır və sair, buna yalnız həmin orqanda təmsil olunan şəxslər, yəni deyək, prokurorluqdan söhbət gedirsə, yuxarı prokuror qiymət və rəy verə bilər. Çünki o, xüsusi biliklərə malikdir. Digər hansı isə bir imtahanla biz bu bilikləri müəyyən edə bilmərik. O baxımdan da orada Ali Attestasiya Komissiyası var. Onlar onu sınaq müddətindən sonra qiymətləndirir. Bu qədər.

**Sədrlik edən.** Çox sağ olun, Əminə xanım. İndi Fazil müəllim bir neçə məsələ qaldırdı. Mən düşünürəm, Əli müəllim, əgər hansı isə məsələlər varsa, sonra sizin komitənizdə işçi qaydada öz fikirlərinizi bölüşə və danışa bilərsiniz.

Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 16.14 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələ “Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun

layihəsidir. Layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün, Arzu müəllim, yenə də Sizə söz verirəm. Buyurun.

**Arzu Nağıyev**. Təşəkkür edirəm, xanım sədr. Hörmətli həmkarlar, hörmətli media nümayəndələri. "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən irəli sürülüb. "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun iki maddəsi – 7.2.5-ci və 18.4-cü maddələrdə təklif edilən dəyişikliklər uyğunlaşma xarakteri daşıyır. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 9-cu maddəsinin I hissəsinin və "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.1-ci maddəsinin tələblərinə uyğun olaraq, Azərbaycan Respublikasının Silahlı Qüvvələri "Azərbaycan Ordusundan və başqa silahlı birləşmələrdən ibarətdir". Göründüyü kimi, silahlı qüvvələrin tərkib hissəsinə Azərbaycan Ordusu ilə yanaşı, başqa silahlı birləşmələr də daxil olduğundan, layihədə "və başqa silahlı birləşmələrinin" ifadəsinin çıxarılması təklif olunur.

Təklif edilən növbəti dəyişikliyə əsasən kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin əməkdaşlarının bilik və bacarıqlarının daha da təkmilləşdirilməsi məqsədi ilə ölkəmizin kəşfiyyat və əks-kəşfiyyat subyektlərinin hüquqlarının genişləndirilərək xarici dövlətlərin xüsusi xidmət və hüquq mühafizə orqanları ilə beynəlxalq əməkdaşlığın, o cümlədən müvafiq proqramlar çərçivəsində

kadrların hazırlanması, təkmilləşdirilməsi və ixtisaslarının artırılması sahəsində əməkdaşlığın həyata keçirilməsi nəzərdə tutulur.

Layihədə təklif edilən digər dəyişiklik kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin loyallığının təmin edilməsi məqsədi ilə həmin subyektlərin əməkdaşlarının "müvafiq icra hakimiyyəti orqanı tərəfindən açıq çıxışlarla bağlı müəyyən olunmuş qaydalara əməl etmə"ləri nəzərdə tutulur. Təklif edilən analoji norma "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun 6.3-cü maddəsində də öz əksini tapmışdır.

Bundan başqa, layihədə kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri tərəfindən şəxslərin həmin qurumlarda hərbi xidmətə və yaxud işə qəbul olunmasından imtina edilməsi səbəblərini açıqlamaq öhdəliyinin olmaması barədə yeni 15.2-1-ci maddənin əlavə edilməsi təklif edilir. Qeyd olunan dəyişikliyin əsas məqsədi həmin subyektlərdə fəaliyyət istiqamətlərinə uyğun olaraq, məxfiçiliyin, eyni zamanda, konfidensiallığın qorunmasıdır.

Bundan başqa, təklif edilən yeni 18.6-cı maddənin qəbul edilməsi gələcəkdə həm kəşfiyyat, həm də əks-kəşfiyyat fəaliyyəti sahəsində maliyyə nəzarətinin gücləndirilməsi və təkmilləşdirilməsi, həmçinin həmin subyektlər tərəfindən kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti tədbirləri üçün ayrılan vəsaitin xərclənməsi normalarının və qaydalarının dəqiq müəyyən edilməsi ilə nəticələnəcəkdir.

Qanun layihəsi komitəmizdə hərtərəfli müzakirə olunub, plenar iclasa birinci oxunuşa tövsiyə edilib. Səs verməyinizi xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Arzu müəllim. Çıxış etmək

istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.19 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi birinci oxunuşda qəbul edildi. Çox sağ olun.

Növbəti məsələ Mülki Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Mən indi sözü komitənin sədri hörmətli Əli Hüseynliyə verirəm. Əli müəllim, buyurun.

**Əli Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri*.

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli deputat həmkarlar, Mülki Prosessual Məcəllədə təklif olunan əlavə və dəyişikliklərin mahiyyəti prosessual müddətlərin dəqiqləşdirilməsi yolu ilə məhkəmə prosesinin lüzumsuz olaraq uzadılmasının qarşısını almaqdır. Həmkarlarımdan səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Çıxış etmək istəyən yoxdur. Qanun layihəsini səsə qoyuram. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.20 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyimizin sonuncu məsələsinə çatdıq. 19-cu məsələdir. “Kredit büroları haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Azər müəllim, mən yenə də Sizə söz verirəm. Buyurun.

**Azər Əmiraslanov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. Qanun layihəsi ilə bağlı məlumat, şərh verməzdən əvvəl mən bir daha kredit büroları və onların məqsədi haqqında xatırlatma etmək istərdim. Kredit bürolarının əsas məqsədi borcalanlar haqqında məlumatı toplayaraq onların kredit tarixçəsini təmin etməkdir. Onlar banklara və digər maliyyə qurumlarına borcalanların maliyyə vəziyyəti və ödəniş intizamı barədə məlumat verir və bu məlumatlar kredit riskinin qiymətləndirilməsi prosesində istifadə olunur. Yəni borcalanların kredit qaytarma qabiliyyətini dəyərləndirməyə imkan verir. Yeni təqdim olunan layihə məhz kredit tarixçəsi məlumatlarının təchizatçılarının dairəsini genişləndirir, bu məlumatlar üçün yeni platforma yaradır və burada məlumatların ən müasir texnologiyalarla mübadiləsini təmin edir. Nəhayət, kredit tarixçəsi subyektlərinin hüquqlarını müəyyənləşdirir. Təqdim edilmiş layihədə əsasən 3 dəyişiklik nəzərdə tutulur.

Birincisi, mobil telefon operatorları müştəriləri olan kredit tarixçəsi subyektlərinin məlumatlarını onların razılığı olmadan kredit bürolarına təqdim edə biləcəklər. Bu isə kredit təşkilatlarından kredit götürmək üçün müraciət edən şəxslərin ödəmə qabiliyyətini və borc öhdəliklərinin icra intizamını qiymətləndirmək imkanını artıracaqdır.

İkinci dəyişiklik kredit bürosuna verilən neqativ məlumatlar barədə bildirişlərin kredit tarixçəsi subyektinə kredit bürosu tərəfindən ötürülməsini nəzərdə tutur. Bu dəyişikliyə əsasən kredit tarixçəsi subyekti onun barəsində kredit bürosuna daxil olan neqativ məlumatlarla bağlı ödənişsiz bildiriş almaq hüququna malikdir.

Üçüncü dəyişiklik uyğunlaşma çərçivəsində "Elektron hökumət portalı" sözlərinin "Elektron hökumət informasiya sistemi" sözləri ilə əvəz edilməsini nəzərdə tutur.

Qeyd olunan məsələlərin icrası Dünya Bankı Qrupunun "Əlverişli Biznes Mühiti" layihəsinin "Maliyyə xidmətləri" indikatorunun təkmilləşdirmələri ilə bağlıdır. Qanun layihəsinin birinci oxunuş üçün təqdim edildiyini nəzərə alaraq, hörmətli həmkarlarımızdan münasibət bildirmələrini və sənədin səsə qoyulmasını xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Çıxış etmək istəyən yoxdur. Məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.23 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin məsələləri başa çatdı, ancaq mən sizi bir məlumatla tanış etmək istəyirəm.

Milli Məclisin Aparatı öz resursları hesabına "Gündəlik" adlı mobil tətbiq hazırlamışdır. Bu tətbiqdən istifadə edilməsi Milli Məclisin və komitələrin iclaslarının vaxtı və gündəlikləri, müzakirə edəcəkləri sənədlərlə vaxtında və operativ tanış olmaq imkanı yaradır. Onu da deyim ki, artıq 65 deputatımız bu tətbiqdən istifadə edir. Yenə də xatırladım ki, sənədlər, qanun layihələri, bizim Daxili Nizamnaməmizə uyğun olaraq, 8-ci maddənin ikinci hissəsinə görə 3 gün öncə deputatlara verilir. Həmişə belə olub və belə də var.

Hesab edirəm ki, bu mobil tətbiqdən hamının istifadə etməsi bizim işimizin səmərəsini artırmağa da kömək edər. Mən digər həmkarlarımızdan da xahiş edirəm, – dediyim kimi, artıq 65 nəfər bundan istifadə edir, – ya özləri, ya da köməkçiləri vasitəsi ilə Milli Məclis Aparatının İnformasiya resursları və texnologiyaları şöbəsi ilə əlaqə saxlasınlar.

Məlumat bu qədər.

Növbəti iclasın vaxtı barədə sizə məlumat veriləcək. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

***<u>22 oktyabr 2024-cü il</u>***

**Azay Quliyev.** Dörd gün sonra, oktyabrın 26-da Gürcüstanda parlament seçkiləri keçiriləcək. Budəfəki seçkilər Qərbin Gürcüstan hakimiyyətinə qarşı total basqıları ilə müşayiət olunur. Konkret olaraq ABŞ-ın və Avropa İttifaqının Gürcüstanla bağlı hazırkı siyasəti bu ölkədə ictimai-siyasi sabitliyin pozulma ehtimalını artırır ki, bunun da Azərbaycanın milli maraqlarına mənfi təsiri ola bilər.

Təkcə ona görə yox, Gürcüstanda yüz minlərcə soydaşımız yaşayır, həm də ona görə ki, Azərbaycanın bir çox strateji kommunikasiya xətləri Gürcüstandan keçir və orada sabitliyin qorunması bizim üçün də xüsusi əhəmiyyət kəsb edir. Ancaq görünən odur ki, hazırda ABŞ və Avropa İttifaqı hər vəchlə Gürcüstanda seçkilərin [illegible] lərinə təsir etməyə və özlərinə sərf edən siyasi q[illegible] hakimiyyətə gətirməyə çalışırlar.

Məhz son həftələr Qərb rəsmilərinin Gürcüstanla bağlı təhdid dolu bəyanatları, maliyyə yardımlarının, bir sıra sahələrdə əməkdaşlığın və danışıqların dayandırılması haqqında qərarları, habelə gürcü rəsmilərinə qarşı tətbiq olunan sanksiyalar parlament seçkiləri ərəfəsində insanlar arasında qorxu və panika yaratmaq, seçkilərin nəticələrinə təsir göstərmək və hazırkı hökuməti gözdən salmaq məqsədi daşıyır.

Onu da qeyd etmək lazımdır, bu gün ABŞ və Avropa İttifaqının Gürcüstanın daxili işlərinə asanlıqla müdaxilə edə bilməsinin əsas səbəblərindən biri iqtisadi asılılıq-

dırsa, digəri və ən vacibi isə odur ki, onlar uzun illər maliyyələşdirdikləri və qrant ayırdıqları QHT-lərdən hazırda Gürcüstan dövlətinə qarşı rahatlıqla istifadə edə bilirlər.

Azərbaycan da dəfələrcə bu cür təzyiqlərə və kobud müdaxilələrə məruz qaldığından, bunun nə demək olduğunu biz yaxşı başa düşürük. Lakin Azərbaycan dövlətinin güclü və dayanıqlı təməllər üzərində qurulması, iqtisadi və maliyyə baxımdan heç kimdən asılı olmaması, xüsusi ilə Prezident İlham Əliyevin müdrik və qətiyyətli siyasəti, habelə hakimiyyətlə xalq arasında sarsılmaz birlik bu cür müdaxilələrin təsirini sıfıra endirir.

İndi əsas sual odur ki, Gürcüstan dövləti və xalqı bu təzyiqlərin öhdəsindən gələ biləcəkmi? Gürcüstan dövləti bu "dayanıqlıq testi"ndən necə çıxacaq?

Ümid edirik ki, bu basqıların heç bir nəticəsi olmayacaq, gürcü xalqı düzgün seçim etməklə kənar qüvvələr tərəfindən ölkəsinin daxili işlərinə müdaxiləyə, dövlət müstəqilliyinə və suverenliyinə xələl gətirilməsinə yol verməyəcək. Ən azı gürcü xalqı kimi Azərbaycan xalqı da Gürcüstanda sabitliyin və əmin-amanlığın qorunub saxlanılmasında maraqlıdır.

**Malik Həsənov.** Bu gün müzakirəmizə çıxarılan Minatəmizləmə fəaliyyəti haqqında qanun layihəsi, deyərdim, nadir layihələrdən biridir və hesab edirəm ki, dünyanın çox az ölkəsində belə qanunlar mövcuddur. 30 illik işğal dönəmində torpaqlarımız yüz minlərcə piyada və texnika əleyhinə minalarla çirkləndirilmişdir. Həm Birinci Qarabağ müharibəsində, həm də atəşkəs dövründə çoxlu sayda insanlar, hərbi və mülki şəxslər şəhid olmuş, sağlamlıqlarını itirmişlər. Vətən müharibəsindən sonrakı dövrdə

minatəmizləmə ilə məşğul olan qurumun həftəlik hesabatlarında hər həftə yüzlərcə minanın aşkar edilərək götürülməsinə dair məlumatlarla tanış oluruq. Bu gün Ermənistan adlandırılan ölkənin minalanmış ərazilərin dürüst xəritələrini təqdim etməkdən yayınması onun insanlıq əleyhinə cinayət siyasətini yürütməkdə israrlı olmasının təzahüründən başqa bir şey deyil.

Ölkəmizdə minatəmizləmə fəaliyyəti elə müharibənin gedişində formalaşmışdır və bu sahədə böyük təcrübə və ciddi uğurlarımız vardır. Mən deyərdim, Azərbaycan dünyada yeganə ölkədir ki, işğaldan azad olunmuş təxminən 12 min kvadrat kilometrlik geniş bir ərazinin minadan təmizlənməsini təkbaşına, yalnız öz vəsaiti və öz qurumu vasitəsi ilə həyata keçirir. Yadımızdadır ki, Vətən müharibəsindən sonrakı ilk aylarda bir çox ölkə ilə birgə minatəmizləmə fəaliyyətinin qurulması istiqamətində danışıqlar aparılan zaman bizdən çox böyük məbləğlər istənilirdi. Ölkə rəhbərliyi, xüsusən də cənab Prezident haqlı olaraq heç bir ölkənin xidmətindən istifadə etməməyi qərarlaşdırdı və nəticədə onların xidmətinə məsrəf edəcəyimiz vəsait ölkəmizdə bu fəaliyyətin təkmilləşdirilməsinə, ixtisaslı kadrların yetişdirilməsinə, onun maddi-texniki bazasının müasirləşdirilməsinə yönəldilmişdir.

Bu gün ölkəmizdə qurulan minatəmizləmə fəaliyyəti dünyanın hərbi güc baxımından öndə gedən ölkələri ilə bərabər sırada dura biləcək səviyyədədir. Artıq işğaldan azad olunmuş torpaqlarımızın böyük hissəsi minalardan və partlamamış sursatlardan təmizlənmişdir. Minatəmizləmə fəaliyyətinin inkişafı gələcəkdə bizə imkan verəcəkdir ki, dünyanın müxtəlif bölgələrində müharibələrdən sonrakı dövrdə ölkəmizin minatəmizləmə xidmətindən istifadə

edilsin. Bu, həm humanitar, həm də real iqtisadi gəlirlər baxımından ölkəmizə əlavə dividendlər gətirəcək.

Bu gün bu qanunun qəbulu ilə biz minatəmizləmə fəaliyyətinin tənzimlənməsini ayrı-ayrı qərar, təlimat və göstərişlərdən qanun səviyyəsinədək yüksəldirik.

Müzakirəmizə təqdim olunan 14 maddədən ibarət qanun layihəsi kifayət qədər peşəkarcasına hazırlanmışdır, özündə bu fəaliyyətin qurulması, təşkili, ümumiyyətlə, bu istiqamətdə bütün münasibətlər sistemini tarazlaşdırmağa imkan verir.

Diqqət yetirmək istədiyim əsas məqamlardan biri ondan ibarətdir ki, minatəmizləmə fəaliyyəti ilə müxtəlif hərbi bölüklərdə xidmət keçən həm hərbçi minatəmizləyənlər, istehkamçılar, həm də müvafiq agentlikdə işə götürülmüş mülki minatəmizləyənlər məşğuldurlar. Burada hesab edirəm ki, hərbi xidmət və mülki fəaliyyət birbaşa hərbi fəaliyyətlə bağlıdır. Yəni hər iki zümrədən olan şəxslər birbaşa döyüş sursatları ilə işləyirlər və işin mahiyyəti hərbi xarakterlidir. Bu baxımdan, düşünürəm ki, bu fəaliyyətlə məşğul olan insanlara münasibətdə, sosial məsələlərə yanaşmada – yəni onların pensiya, qida, əlavə məsrəflər, təqaüd yaşı, mənzil və yaşayış yerləri ilə təminat, sağlamlıqlarını itirmə və əlillik, eləcə də, xidmət zamanı vəfatetmə məsələlərinə vahid yanaşma ortaya qoyulmalıdır.

Təklif edirəm ki, bu zaman hərbçi sosial qrupuna daxil olan şəxslərlə tam eyni fəaliyyəti və funksiyanı həyata keçirən mülki şəxslərə münasibətdə mülki qanunvericiliyin tələb və normaları tətbiq edilməməlidir. Yaxşı olar ki, burada sosial baxımdan üstün imtiyazlar verilən hüquqlar tanınsın. Ümumiyyətlə, təqdim olunan qanun

layihəsi optimal variantda hazırlanmışdır və konseptual baxımdan qəbulediləndir.

**Nigar Məmmədova.** Azərbaycanda uşaq hüquqlarının müdafiəsi həm ölkə Konstitusiyası, həm də bir sıra qanunlarla təmin edilir. “Uşaq hüquqları haqqında” BMT Konvensiyasının milli qanunvericilikdə tətbiq olunması məqsədi ilə son illər mühüm normativ aktlar qəbul olunub. Ölkəmizdə uşaqların müdafiəsi, onların rifahı, hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində ardıcıl addımlar atılır.

“Uşaq hüquqları haqqında” Qanunda təklif edilən dəyişikliklər dövlət və qeyri-dövlət uşaq müəssisələrində xidmətlərin keyfiyyətinin artırılmasına hesablanıb. Layihədə qeyd edilən tələblər müəssisələrdə xidmətlərin təşkili, yaşayış şəraiti, qidalanma, sağlamlığın mühafizəsi, təlim-tərbiyə və asudə vaxtın təşkili sahələrini əhatə edir. Hazırlanmış tələblərin uşaq müəssisələrində “Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası”na əsasən keçirilən monitorinqlərdə istifadə edilməsi nəzərdə tutulur.

Hesab edirəm ki, dövlət və ya qeyri-dövlət uşaq müəssisələrində monitorinqlər daha intensiv davam etdirilməli, vətəndaşlar tərəfindən edilən müraciətlər dəqiq araşdırılmalıdır. Uşaqların psixi sağlamlıqlarına təsir edəcək bir sıra risk faktorları mövcuddur ki, bu da onların sonrakı həyatlarında özünü açıq şəkildə göstərir. Bu mənada uşaq müəssisələrində zorakılıq hallarına birmənalı şəkildə yol verilməməlidir. Mümkün neqativ halların qarşısını almaq üçün nəzarət mexanizmi daha da gücləndirilməlidir.

Eyni zamanda, bu müəssisələrdə uşaqların asudə vaxtının səmərəli təşkili də təmin olunmalıdır. Çünki asudə

vaxt istirahətlə yanaşı, həm də mənəvi sahənin inkişafı, sərbəst yaradıcılıq vaxtıdır. Onun düzgün təşkilinin psixi sağlamlıq, ümumi uyğunlaşma, özünə inam və intellekt kimi müsbət təsirləri var. Bu baxımdan asudə vaxtın təşkilinə xüsusi diqqət yetirilməlidir.

Ümumiyyətlə, uşaq müəssisələrindəki uşaqlar cəmiyyətin həssas, xüsusi qayğıya ehtiyacı olan təbəqəsidir. Onların cəmiyyətə uğurlu inteqrasiyası strateji məqsəddir. Uğurlu inteqrasiya isə insanın cəmiyyətə səmərəli uyğunlaşmasını, eyni zamanda, özünüinkişafı, problemlərə müqavimət göstərmək bacarığını nəzərdə tutur.

Uşaq evlərində bütün uşaqlar eyni şəraitdə böyüsələr də fərqlidirlər. Gələcəkdə hər kəs öz yolunu, şəxsi inkişafını seçəcək. Bu mənada uşaq müəssisələri uşaqlar üçün ailə əsaslı sosial xidmət mərkəzi olmalıdır. Bu müəssisələrdə uşaq hüquqlarının qorunması onların müstəqil həyata və sosiallaşmaya uyğunlaşmasını şərtləndirir.

Hesab edirəm ki, uşaqların müstəqil həyata hazırlanması üçün sosial uyğunlaşma proqramları da hazırlanmalıdır. Məqsəd uşaq müəssisələrində formalaşan uşaqların fiziki və mənəvi baxımdan sağlam, layiqli vətəndaş kimi yetişmələrini təmin etməkdir. Layihəni dəstəkləyirəm.

**Ramid Namazov.** İlk növbədə qeyd etmək istərdim ki, dünən Milli Məclisdə çox hörmətli Sahibə xanımın tapşırığına əsasən Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiya "COP29-a qarşı hibrid təhdidlər" mövzusunda ictimai müzakirə keçirmişdir. Tədbirdə ölkəmizə qarşı hibrid təhdidin "Lawfare", yəni hüquqi vasitələrdən "silah" kimi istifadəni ehtiva edən növünə də toxunuldu.

Bunu nəyə görə qeyd edirəm? Təkcə bu aya nəzər salsaq, görürük ki, ölkəmizə qarşı ardıcıl formada və

əlaqələndirilmiş şəkildə parlament xətti ilə bir sıra fəaliyyətlər həyata keçirilib:

- AŞPA-da keçirilən debatlar;
- konqresmenlərin Entoni Blinkenə məktubları;
- Niderland parlamentinin anti-Azərbaycan qətnamələri;
- İsveçrə parlamentinin qətnamə layihəsi;
- bu gün Avropa Parlamentində keçiriləcək debatlar.

Yəqin ki, COP29 tədbirinə kimi hələ bir neçə belə parlament qətnamələri və müzakirələrinin şahidi olacağıq. Niyyətləri aydındır, bizə müxtəlif vasitələrlə təzyiq edərək, məsələyə hüquqi don geyindirməklə strateji maraqlarını təmin etməkdir.

Eyni zamanda, İsveçrə parlamenti və Avropa Parlamentində müzakirələrdə yeni bir tendensiyanı görürük – Qarabağ iqtisadi rayonunu ötən il könüllü surətdə tərk edən erməni əsilli əhalini geri qaytarmaq məsələsi ortaya atılıb. "Freedom House" da artıq digər dörd təşkilatla birgə bu mövzuda ilkin hesabat yayıb.

Ermənistanın rəsmi məlumatlarına görə, Azərbaycandan ötən il Ermənistana könüllü gedən ermənilərin artıq 15 mini oranı da tərk ediblər. Qeyri-rəsmi məlumatlara görə, bu rəqəm haradasa 25–30 min arasında dəyişir. Emiqrasiya bu sürətlə davam edərsə, yaxın illərdə onların böyük əksəriyyətinin Ermənistanı birdəfəlik tərk edəcəyi ehtimal edilir.

Düşünürəm ki, Qərbdəki dairələrin bu məsələni gündəmə gətirməkdə məqsədləri həmin ermənilərin Ermənistandan arzuolunmaz köçünün qarşısını almaqdır. Onlara boş ümidlər verərək, yalançı vədlərlə Ermənistanda saxlayıb bizə qarşı hibrid təhdid kimi istifadə etməyi planlaşdırırlar. Eyni zamanda, bilirsiniz ki, qaçqınlar məsələsi dünyada həm də böyük biznes, gəlir və korrupsiya mənbəyidir.

Xarici dairələrin bu məkrli niyyətlərinə cənab Prezidentin məşhur kəlamını xatırlatmaq istərdim: "Heç kim bizimlə diktat və ultimatum dili ilə danışa bilməz! Bunu heç kim unutmasın!"

Hörmətli həmkarlar, bildiyiniz kimi, dünən, eyni zamanda, çox təqdirəlayiq və tarixi bir hadisə baş verib. Milli Məclis sədrinin sərəncamı ilə parlamentdə Qərbi Azərbaycana qayıdış üzrə təşəbbüs qrupu yaradılıb.

Əziz müəllimi bu qrupun rəhbəri seçilməsi münasibəti ilə ürəkdən təbrik edirəm. Təklif edirəm, artıq bu məsələ bəyanat formasında səslənilsə də, İsveçrə parlamentinə və ya məsələdə maraqlı olan digər parlamentlərə rəsmi müraciət edilsin ki, ilk növbədə Qərbi Azərbaycan İcması ilə Ermənistan rəsmiləri arasında bir sülh görüşü təşkil edilsin, soydaşlarımızın doğma yurdlarına geri qayıtmaq hüququ ilə bağlı danışıqlara başlanılsın.

**Sahib Alıyev.** Cəmisi bir neçə saat sonra Azərbaycanın təmsil olunmadığı və yaxşı ki, təmsil olunmadığı Avropa Parlamentində mətni neçə gün öncə Parisdə yazılıb Brüsselə göndərilən qətnamə qəbul ediləcək. Bu kağız parçası həmin parlamentin yeni tərkibində də korrupsiyada suçlu bilinərək tutulan keçmiş sədrləri eva kaylinlərin, ölkəmizə yanaşmada nifrət ifritəliyi edən natali luazoların və xristian təəssübkeşliyi adı altında elə həmin Qərbin bizim regiondakı maraqlarına zərbə vurmağa çalışan təsir agentlərinin varlığını, digərlərinin isə məsuliyyətsizliklərini, Makron kimi səriştəsiz liderlərindən gələn əmrə yatımlılıqlarını göstərməkdən başqa heç bir anlam daşımır.

Bu qətnamənin məhz Kazanda BRICS sammitinin keçirildiyi gündə qəbulunun nəzərdə tutulması da çox şeydən xəbər verir. İlk növbədə ondan xəbər verir ki,

Qərbdəki bəlli çevrələr qarşılarında necə bir səddin çəkilməyə başlandığını, Azərbaycanla Türkiyə prezidentlərinin ora niyə qatıldıqlarını yaxşı anlayırlar. Onu da yaxşı anlayırlar ki, bunun səbəblərindən biri məhz hay faktoruna dayanaraq özlərinin 19-cu əsrdən, məsələn, 1878-ci ildə keçirilən Berlin Konqresindən qalma siyasətlərini davam etdirmələrindən, türk düşmənçiliklərindən qaynaqlanır.

Azərbaycan Prezidenti cənab İlham Əliyevə ABŞ-ın dövlət başçısı Cozef Baydenin dünənki məktubundan da bu, açıq-aydın görünmürmü? Həmin məktubda "əsrlər boyu davam edən münaqişə" deyiləndə, görəsən, nə nəzərdə tutulur? Ölkəsinin 19-cu əsrin 30-cu illərində Osmanlıya protestant missionerlərinin göndərilməsi ilə fitilləndirdiyi qarşıdurmamı? Əgər söhbət Azərbaycanla Ermənistan arasındakı münaqişədən gedirsə, onun nə vaxt meydana çıxdığı və İkinci Qarabağ savaşınadək niyə həllini tapmadığı Ağ Evdəkilər üçün sirr olmamalıdır axı.

Eyni zamanda, ən azından ortada 2009-cu ildə Barak Obamanın təkidli dəvətinin necə rədd edildiyi təcrübəsi var ikən, cənab İlham Əliyevin heç bir vəchlə bizim milli maraqlarımıza cavab verməyən addımı atmayacağı da öncədən bəlli ola-ola bu məktub və BRICS sammiti öncəsi Maykl Karpenterin Bakıya göndərilməsi nə üçün idi? Ermənistanı revanşizmə həvəsləndirən növbəti hərtərəfli dəstəyə, bizə qarşı aparacaqları hayalətli informasiya savaşına haqq qazandırmaq üçünmü?

Əgər onlar dedikləri kimi, doğrudan da, regionda davamlı və ləyaqətli sülh istəyirlərsə, onda buna mane olan səbəbin aradan qaldırılması üçün Ermənistana ən azından çağırış etməlidirlər ki, konstitusiyanı dəyiş! Qarabağı özləri tərk edən hayların geri qayıtmaları məsələsini

qaldırarkən Ermənistandan deportasiya olunan azərbaycanlıların da belə haqlarının olduğunu unutmamalıdırlar.

Cənab Prezidentin bu yöndə yeritdiyi siyasətə uyğun olaraq, dünən Milli Məclisdə Qərbi Azərbaycana qayıdış üzrə təşəbbüs qrupunun yaradılması haqda Sərəncama görə Sizə təşəkkürümü bildirirəm. Əminəm ki, öz müzəffər Ali Baş Komandanının ətrafında sıx birləşən bu ordu, xalq Qərbdə, yaxud da başqa yerdəkilərin nə düşünmələrindən asılı olmayaraq, beynəlxalq hüquqa dayanmaqla öz istəyini reallaşdıracaq ki, bunların arasında hazırda ən aktualı mənəvi coğrafiyanın bərpası, yəni qərbi azərbaycanlıların öz yurd yerlərinə dönməsidir.

## MÜNDƏRİCAT

22 oktyabr 2024-cü il.......................................................... 3

Edilməmiş çıxışların mətnləri............................................ 130

Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Birinci sessiya
Payız

5-ci cild

22 oktyabr 2024-cü il

Buraxılışına məsul
***Hafiz Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi 8,5. Sifariş 103. Tiraj 150.